Xalqın qəzeti!

# Xalq qəzeti

№ 06 (30975) 13 yanvar 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Su həyatdır, tərəqqidir, yüksələn rifahdır!

## Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramına həsr olunan müşavirə

**Yanvarın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış sularının sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirə keçirilib. Müşavirədə dövlətimizin başçısı çıxış edib.**



### Prezident İlham Əliyevin çıxışı

– Bu gün biz Bakı şəhərinin və Abşeron yarımadasının su problemlərinin həlli məsələlərini müzakirə edəcəyik. Bu, həyata keçirilən infrastruktur layihələri arasında xüsusi yer tutan məsələdir. Bildiyiniz kimi, ölkəmizdə son illər ərzində genişmiqyaslı infrastruktur layihələri icra edilmişdir, həm Bakıda, həm bütün bölgələrdə. Demək olar ki, əsas infrastruktur məsələləri öz həllini tapmışdır. İyirmi il ərzində bir neçə regional inkişaf proqramı qəbul edilmişdir. Hər proqram beş ili əhatə edirdi və proqramlar uğurla icra olundu. Biz bunun nəticəsində əsas infrastruktur məsələlərini həll etdik. İlk növbədə, elektrik enerjisi ilə təchizat bütün ölkəni əhatə etmişdir. Tamamilə yeni mərhələyə qədəm qoyduq.

Bu yaxınlarda yeni külək elektrik stansiyasının açılışında bu məsələyə bir qədər toxundum, bu gün bizim enerji generasiya gücümüz tələbatımızdan daha artıqdır. Hətta biz elektrik enerjisini ixrac edirik. Vaxt var idi ki, bu məsələ ilə bağlı ciddi problemlər mövcud idi, enerji qıtlığı mövcud idi. Biz hətta xaricdən elektrik enerjisini idxal etməyə məcbur idik. Bu gün isə görülmüş tədbirlər nəticəsində həm generasiya gücləri yaradıldı, - hazırda təqribən 10 min meqavata yaxındır, - eyni zamanda, yarımstansiyalar, ötürücü xətlər, paylayıcı şəbəkə - bütün bu məsələlər vahid sistem halına salınmışdır. Vaxtilə bu sahədə qüsurların böyük hissəsi aradan qaldırılmışdır. Biz bu gün nəinki öz enerji tələbatımız haqqında, - bu məsələ həll edilmiş hesab olunur, - ixrac yolları haqqında düşünürük və nəinki düşünürük, onları biz yaradırıq. Azərbaycan bir neçə ildən sonra, - necə ki, bu gün nefti, qazı dünya bazarlarına ixrac edir və bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir, - eyni səviyyədə elektrik enerjisini dünya bazarlarına ixrac edəcək. Qeyd etməliyəm ki, buna nail olmaq üçün indi qonşu dövlətlərlə və bizim şirkətlərlə, qonşu ölkələrin şirkətləri ilə ciddi danışıqlar aparılır.

*(ardı 5-ci səhifədə)*

## Sülh və rifah: yeni iqtisadi inkişaf mərhələsi



**Azərbaycan əldə etdiyi sülhü milli rifahı formalaşdıran yeni iqtisadi inkişaf mərhələsinin əsas dayağına çevirir.**

Son dövrlərdə Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində sülh və sabitlik faktoruna xüsusi vurğu etməsi Azərbaycanın postmünaqişə mərhələsində inkişafını hansı strateji xətt üzrə qurduğunu aydın şəkildə göstərir. Bu yanaşma sülhün eyni zamanda milli iqtisadiyyatın uzunmüddətli trayektoriyasını müəyyən edən, dayanıqlı inkişaf üçün baza yaradan fundamental inkişaf resursu kimi qəbul edildiyini təsdiqləyir. Ölkənin ərazi bütövlüyünün bərpası bu baxımdan yalnız tarixi-siyasi nailiyyət deyil, həm də milli iqtisadiyyatın uzunmüddətli və aydın əsaslar üzərində qurulmasına imkan verən mühüm şərtə çevrilmişdir.

*(ardı 10-cu səhifədə)*

### TAP kəmərinin ötürmə gücü 1,2 milyard kubmetr artıb



Səhifə ⇨ 11

### Paytaxt metrosu: "Hansı stansiyaya gedirsən?"



Səhifə ⇨ 17

### Azərbaycanın dövlət – din siyasətində yeni mərhələ



Səhifə ⇨ 7

### Bakı–İrəvan: şəffaf bazar yaxınlaşan sülhə töhfədir



Səhifə ⇨ 5

### Bakının xəbərdarlığı təsdiqini tapdı



Səhifə ⇨ 5

### Bitməyən "Mercosur sınağı"



Səhifə ⇨ 6

### Təyyarə olayı: Rusiya gözləntilərimizi "basdırır"?



Səhifə ⇨ 6

### "Somalilənd"in tanınması separatizmə xidmət edir



Səhifə ⇨ 7

### Avropa silahlanır, Azərbaycanın sülhə töhfələri artır



Səhifə ⇨ 8

## Uğurlarımızın əsasında informasiya siyasətinə dövlətin strateji yanaşması dayanır

Səhifə ⇨ 18

# Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramına həsr olunan müşavirə

*(əvvəli 1-ci səhifədə)*



Biz qazlaşma məsələlərini böyük dərəcədə həll etmişik. Bu gün ölkəmizdə qazlaşma 96 faizə çatıbdır. Mən bunu deməklə yaşayış məntəqələrini yox, əhalini nəzərdə tuturam. Əhalinin 96 faizi bu gün təbii qazla təchiz edilib. Bu da son 20 il ərzində aparılan infrastruktur layihələri arasında xüsusi yer tutan məsələdir. Çünki vaxtilə bizim qaz təchizatımız daxili tələbatı ödəməyə imkan vermirdi. Biz qazı da xaricdən idxal edirdik və böyük çətinliklərlə üzləşirdik. Bu gün isə dünyanın 10-dan çox ölkəsi, - bu ölkələrin sayı ildən-ilə artır və bu il də yeni ölkələr bu siyahıya daxil ediləcək, - Azərbaycan təbii qazını alıb öz enerji təhlükəsizliyini gücləndirir.

Avtomobil yollarının inşası geniş vüsət almışdır. Bu gün həm magistral, həm kənd yolları, şəhərlərarası yollar - bu layihələr icra edilir. Hazırda işğaldan azad edilmiş ərazilərdə dediyim bütün bu infrastruktur layihələri icra edilir. Elektrik enerjisi, generasiya gücləri, ötürücü xətlər, yollar, körpülər, tunellər, su təchizatı, qazlaşma və bütövlükdə uzun illər işğal altında qalmış ərazilər dirçəlir, həyata qayıdır və vahid infrastruktur şəbəkəsinə qoşulur.

İçməli su və suvarma layihələri də həmişə diqqət mərkəzində olub. Azərbaycan vətəndaşları yaxşı xatırlayırlar ki, vaxtilə bu, insanları narahat edən ən ciddi məsələlərdən biri idi. Bu məsələlər də tədricən öz həllini tapmışdır. Bu gün bizim əksər şəhərlərimizdə içməli su, kanalizasiya layihələri icra edilmişdir və bu proses davam etdirilir.

Biz son 20 il ərzində dörd böyük su anbarı inşa etmişik və bu su anbarlarının potensialı 500 milyon kubmetrdən çoxdur. Onların arasında xüsusilə "Taxtakörpü", "Şəmkirçay" su anbarlarını qeyd etməliyəm. Əgər bu su anbarları tikilməsəydi, bu gün həm Bakının su təchizatı, həm də qərb zonasının su təchizatı böyük problemlərlə üzləşə bilərdi. "Taxtakörpü" su anbarı bizə imkan verdi ki, Samur çayının sularını "Ceyranbatan" su anbarına yığaq və orada ehtiyat yaransın. O cümlədən "Ceyranbatan" su anbarı tamamilə yenidən qurulmuşdur, yeni, müasir təmizləyici qurğular kompleksi inşa edilmişdir.

Bu gün biz azad edilmiş ərazilərdə içməli su və suvarma layihələrini icra edirik. Son beş il ərzində bir neçə önəmli layihə başa çatıb. Vaxtilə Ermənistan tərəfindən dağıdılmış və yararsız vəziyyətə salınmış su anbarları əsaslı təmir edilib. Onların arasında, ilk növbədə "Sərsəng" su anbarını qeyd etməliyəm. Bu, nəinki azad edilmiş ərazilərdə, bütövlükdə ölkəmizdə ən böyük su anbarlarından biridir. Vaxtilə torpaqlarımız işğal altında olanda Ermənistan dövləti bizə qarşı su terroru da həyata keçirirdi. "Sərsəng" və "Suqovuşan" su anbarlarının sularının bağlanması və sudan bir silah kimi istifadə edilməsi bizə böyük problemlər yaradırdı. Su lazım olan aylarda kəsilirdi, ondan sonra buraxılırdı və bu, böyük daşqınlara səbəb olurdu. Yəni, əslində, Ermənistan dövləti su terroru həyata keçirirdi. Bu gün isə "Suqovuşan" su anbarı, "Sərsəng" su anbarı tamamilə yenidən qurulub. Azad edilmiş digər torpaqlarda - Füzuli rayonunda "Köndələnçay" - üç su anbarı yenidən qurulub, Ağdam rayonunda "Xaçınçay" su anbarı yenidən qurulub. Laçın rayonunda tamamilə yenidən qurulmuş "Zabuxçay" su anbarı bu gün artıq istismardadır. Azad edilmiş ərazilərdə daha iki böyük su anbarının - "Həkəriçay", "Bərgüşadçay" su anbarlarının tikintisi də nəzərdə tutulur və artıq hazırlıq işləri gedir. Yəqin ki, biz bu il artıq praktik işlərə başlayacağıq.

Su mənbələri hər bir ölkə üçün çox önəmlidir. Bizim su mənbələrinin təqribən dörddəbir hissəsi vaxtilə işğal altında olmuş ərazilərdə formalaşır. Bu su mənbələrinin üstünlüyü də odur ki, bunların əksəriyyəti Azərbaycan ərazisində formalaşır. Yəni başqa ölkələrdən asılılıq ərazilərimizin qaytarılması nəticəsində böyük dərəcədə azalıb. Bizim digər əsas su mənbələrimiz xaricdə formalaşır - Kür çayı, Araz çayı, Samur çayı. Əlbəttə ki, bu sahəyə olan diqqət bu həssas məsələni də nəzərə almalıdır.

Bu gün dünyada iqlim dəyişikliyi ilə bağlı ciddi narahatlıq hökm sürür. Bir çox ölkələr artıq bundan ciddi zərər görür. Bizim su təhlükəsizliyimizlə bağlı olan bütün məsələlər sistem şəklində öz həllini tapır. Qeyd etdiyim kimi, son 20 il ərzində ancaq sadaladığım, - halbuki görülən işlər qat-qat çoxdur, - layihələr onu göstərir ki, əgər vaxtında bu addımlar atılmasaydı, bu gün su təhlükəsizliyimizlə bağlı olan məsələlər bizim üçün çox ciddi problemlər yarada bilərdi. Bizim məqsədimiz isə əhalini və sənayeni, kənd təsərrüfatını dayanıqlı su ilə təmin etməkdir, su mənbələrini qorumaqdır, su anbarlarının potensialını artırmaqdır, uçotu tam yaratmaqdır və mövsüm gələndə suları yığmaqdır ki, sonra il boyunca onlardan istifadə edək.

Bakının və Abşeron yarımadasının içməli su problemləri əfsuslar olsun ki, uzun illər ciddi problem kimi qarşımızda durur. Qeyd etdiyim kimi, bu istiqamətdə müəyyən işlər görülüb. Ancaq mən hesab edirəm, vaxt gəlib çatıb ki, genişmiqyaslı və müfəssəl dövlət proqramı qəbul edilsin. Bu proqram Bakı şəhərini, onun qəsəbələrini, Sumqayıt şəhərini və Abşeron rayonunu əhatə edəcək. Bir müddət bundan əvvəl mənim göstərişimlə proqramın hazırlanması prosesi başlamışdır və demək olar ki, proqram hazırdır. Biz bu gün həm bu proqramı müzakirə edəcəyik, eyni zamanda, görülmüş işlərdən danışacağıq və görüləcək işlərlə bağlı müzakirə aparacağıq.

Bu proqramın əsas məqsədi, qeyd etdiyim kimi, Bakı və Abşeron yarımadasını dayanıqlı içməli su ilə təmin etməkdir. Proqram 2035-ci ilə qədər icra olunmalıdır. Bu fakt özlüyündə göstərir ki, nə qədər genişmiqyaslı proqramdır, çünki vaxt lazımdır biz bunu tam icra edək. Proqramın icrası üçün maliyyə mənbələri müəyyən edilib. Bu, iki mənbədən maliyyələşəcək, həm dövlət büdcəsi hesabına, həm də xarici kreditlər hesabına. Deyə bilərəm ki, son illər ərzində burada da aparılan islahatlar imkan verdi ki, biz xarici borcumuzu böyük dərəcədə aşağı salaq və salmışıq da. Bu gün dünya miqyasında xarici borcun ümumi daxili məhsula nisbətdə Azərbaycan dünyada aparıcı yerlərdədir, bu, cəmi 6 faizdən bir qədər çox təşkil edir. Yəni bu, deməyə əsas verir ki, bu gün biz daha çox xarici kreditlərə müraciət edə bilərik, xüsusilə nəzərə alsaq ki, dünyanın aparıcı maliyyə təsisatları bizə müraciətlər edirlər.

Biz bu proqramı daxili vəsait hesabına da icra edə bilərdik. Ancaq ölkə qarşısında duran bir çox məsələlər var. Həm Qarabağın, Şərqi Zəngəzurun bərpası, ölkəmizin hərbi gücünün artırılması və həm də digər layihələr, sosial layihələr. Ona görə qeyd etdiyim kimi, biz iki mənbədən istifadə edəcəyik. Proqramın icrası nəticəsində yeni su anbarları tikilməlidir. Onların sayı 30-a yaxın olacaq. Bu da çox böyük, genişmiqyaslı infrastruktur layihələridir. Sayğaclaşdırma 100 faizə çatdırılmalıdır. Bu gün fasiləsiz içməli su ilə təmin olunan əhali 70 faiz təşkil edir. Proqramın icrası nəticəsində bu, 95 faizə çatacaq. Bakının, Sumqayıtın, Abşeron rayonunun və 64 yaşayış məntəqəsinin su təchizatı böyük dərəcədə yaxşılaşacaq. 200 kilometrdən çox magistral kanallar və bir o qədər paylayıcı şəbəkə tikiləcək və yenidən qurulacaq.

Bu gün problemlərdən biri həm də itkilərlə bağlıdır. Əgər itkilər aşağı səviyyədə olsaydı, hətta mövcud su ehtiyatı bizə bu gün kifayət edərdi. Halbuki biz baxmalıyıq, gələcəyi də hesablamalıyıq. Çünki əhali artır, sənaye artır, təbii ki, tələbat da artır. Ona görə itkilərin kəskin azaldılması əsas məsələlərdən biridir. Bu gün bu sahədə itkilər təqribən 40-45 faizdir və qeyd etdiyim kimi, proqramın icrası nəticəsində bu, kəskin azalmalıdır.

Bu gün kanalizasiya xidməti göstərilən əhali cəmi 50 faiz təşkil edir. Proqramın icrası nəticəsində bu, 95 faizə çatdırılmalıdır. Leysan yağışları yağan kimi şəhər nəqliyyatı iflic vəziyyətinə düşür, çox ciddi problemlər yaşanır. Düzdür, bu, təkcə Bakıda, Azərbaycanda deyil. Biz  televiziya verilişlərində dünyanın istənilən yerində bunu görürük. Hətta ən inkişaf etmiş hər ölkənin şəhərlərində də daşqınlar adi hal alıb. Heç bir şəhərin infrastrukturu imkan vermir ki, əgər şiddətli leysan yağışları bir neçə gün davam etsə, bunu idarə etmək mümkün olsun. Ancaq buna baxmayaraq, bizim də bu sahədə zəif yerlərimiz kifayət qədər çoxdur. Ona görə yağış sularının idarə olunması üçün Bakının 30 küçəsində yeni kollektor şəbəkəsi də qurulacaq və bunun çox böyük faydası olacaq.

Dənizə buraxılan sular 100 faiz təmizlənməlidir. Xəzər dənizinin çirklənməsinin əsas amillərindən biri də budur. Ona görə burada da lazımi əlavə tədbirlər görüləcək. Hövsan sutəmizləyici stansiyasının modernləşdirilməsi və potensialının genişləndirilməsi də gündəlikdə duran məsələdir.

Su sektorunda rəqəmsal idarəetmə sistemi də tətbiq edilməlidir. Mən artıq bu barədə məlumat verdim. Bir daha demək istəyirəm ki, Abşeron yarımadasının su təchizatını yaxşılaşdırmaq üçün ilk dəfə olaraq ölkəmizdə duzsuzlaşdırma zavodu inşa ediləcək. Bu prosesə start verildi. Bunun üstünlüyü ondan ibarətdir ki, bu, sırf xarici investisiyalar hesabına həyata keçiriləcək layihədir. Bu imkan verəcək ki, biz Bakıya və Abşeron yarımadasına gələn suların həcmini artıraq.



Bu sahədə texnoloji inkişaf da göz önündədir. Bizim Xəzər dənizinin suyu o qədər də duzlu deyil, yəni tam əminlik var ki, duzsuzlaşdırma nəticəsində əhali təmiz və keyfiyyətli içməli su ilə təmin ediləcək və eyni zamanda, suvarma üçün də böyük mənbə yaranacaqdır.

Samur-Abşeron su kanalı. Vaxtilə biz bu kanalı yenidən inşa etmişik. Bu, tam beton kanaldır və orada itkilər kifayət qədər azdır. Ancaq yenə də bu kanalın infrastrukturunun inkişafı ilə bağlı tədbirlər nəzərdə tutulur ki, "Ceyranbatan" su anbarı dayanıqlı su ilə təmin edilsin. Bu gün Bakıya beş mənbədən su daxil olur. Altıncı mənbə duzsuzlaşdırma zavodu olacaq və əlbəttə ki, bu axın tam təmin edilməlidir.

Onu da bildirməliyəm ki, son 20 il ərzində həyata keçirdiyimiz layihələrdən biri də tamamilə yenidən qurulmuş Oğuz-Qəbələ-Bakı su kəməridir. Əgər bu su kəməri tikilməsəydi, bu gün Bakıda su qıtlığı özünü çox ciddi şəkildə göstərmiş olardı.

Qeyd etdiyim kimi, proqram çox genişdir, çox konkretdir. Bütün vəzifələr orada qoyulub, nəzarət də təmin ediləcək, həm Hökumət tərəfindən, həm də Prezident Administrasiyası tərəfindən. İctimai nəzarət də əlbəttə ki, mütləq olmalıdır. Bu proqramın icrası mətbuatda geniş işıqlandırılmalıdır ki, Azərbaycan vətəndaşları, xüsusilə Bakı və Abşeronda yaşayan insanlar görsünlər, bilsinlər ki, nə vaxt hansı məsələ öz həllini tapır və yubanmalar da olmamalıdır. Çünki yenə də deyirəm, proqram 2035-ci ilə qədər nəzərdə tutulur. Biz hesab edirdik ki, bunu daha da tez bir zamanda etmək mümkündür. Ancaq tələsməmək üçün və bütün işləri keyfiyyətlə təşkil etmək üçün qərara gəldik ki, təxminən 10 illik proqramdır, yəni kifayət qədər vaxt var, ancaq bir gün də yubanma olmamalıdır.

***

**Prezident İlham Əliyev:** İndi isə çıxış üçün söz verilir Baş nazirin müavini Şahin Mustafayevə.

**Şahin Mustafayev:** Möhtərəm cənab Prezident, sosial-iqtisadi əhəmiyyətini nəzərə alaraq, ölkənin su təhlükəsizliyinin təmin edilməsi hər zaman Sizin diqqət mərkəzinizdə olmuş, rəhbərliyinizlə əvvəlki illərdə böyük ölçüdə işlər həyata keçirilmiş, ehtiyat tədbirləri görülmüş, "Taxtakörpü", "Şəmkirçay", "Tovuzçay", "Göytəpə", Naxçıvanda "Heydər Əliyev", "Vayxır" su anbarları, Oğuz-Qəbələ-Bakı su kəməri inşa edilmiş, Samur-Abşeron su kəməri yenidən qurulmuş və qeyd etdiyiniz kimi, əksər şəhər və rayon mərkəzləri içməli su və kanalizasiya xidmətləri ilə təchiz edilmişdir. Bununla yanaşı, kəskin su çatışmazlığının müşahidə edildiyini nəzərə alaraq, ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə 2020-ci il 15 aprel tarixli Sərəncamınızla müvafiq komissiya yaradılmışdır. Eyni zamanda, tərəfinizdən su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair tədbirlər planı təsdiq edilmişdir ki, buna uyğun olaraq ölkə üzrə genişmiqyaslı işlər həyata keçirilir.

Həmçinin 2024-cü il 10 oktyabr tarixli Sərəncamınızla 2024-2040-cı illər üzrə su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya təsdiq edilmişdir. Milli Strategiyanın əsas hədəfləri su ehtiyatlarının yenidən qiymətləndirilməsi və inteqrasiyalı idarə edilməsi, su ehtiyatlarından səmərəli istifadə edilməsi, əhalinin dayanıqlı və keyfiyyətli içməli su və sanitariya xidmətləri ilə təminatının yaxşılaşdırılması, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və su təhlükəsizliyinin təmin edilməsidir. Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi məqsədilə 2023-cü il 30 mart tarixli Fərmanınızla vahid qurum kimi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yaradılmışdır.

Möhtərəm cənab Prezident, qlobal iqlim dəyişməsi və orta temperaturun yüksəlməsi, yağıntıların və çaylarda sululuğun əhəmiyyətli dərəcədə azalması, digər tərəfdən suvarma və içməli su təchizatı üzrə şəbəkələrin genişləndirilməsi nəticəsində suya tələbatın artması öz növbəsində su çatışmazlığını şərtləndirir. Ölkə üzrə yerüstü su ehtiyatlarının təqribən 75 faizi qonşu ölkələrdən daxilolmaların hesabına formalaşır və qlobal iqlim dəyişikliyi həmin su axımlarının həcminə də öz təsirini göstərir.

Möhtərəm cənab Prezident, 2020-ci ildən başlayaraq hər il Nazirlər Kabineti tərəfindən ölkə üzrə illik su təsərrüfatı balansı təsdiq edilir. Su təsərrüfatı balansı əvvəlki üç il üzrə faktiki hesabat ili üzrə gözlənilən və növbəti il üzrə proqnoz göstəricilərini özündə əks etdirir ki, bu da ölkənin su ehtiyatlarının formalaşması və istifadəsi üzrə ümumi qiymətləndirmənin aparılmasına imkan verir. Su ehtiyatlarının içməli su təchizatı, suvarma, energetika və digər məqsədlər baxımından planlı, koordinasiyalı və prioritetləşmə aparmaqla optimal istifadə istiqamətində görülən tədbirlər sayəsində əsas su anbarlarında su ehtiyatlarının həcmi cari il yanvarın 1-nə 16,4 milyard kubmetr təşkil etmişdir ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 6,2 milyard kubmetr və ya 60 faiz çoxdur.

Eyni zamanda, ölkənin ən böyük su anbarı olan Mingəçevir su anbarında 2020-ci ildəki 8 milyard kubmetr ilə müqayisədə 13 milyard kubmetrə yaxın su ehtiyatı toplanmışdır. Belə ki, Mingəçevir su anbarı 2024-cü ildən etibarən çoxillik tənzimləmə rejiminə qaytarılmışdır.

Komissiyanın fəaliyyəti çərçivəsində əsas su anbarları üzrə tövsiyə olunan iş rejimləri təsdiq edilir, sudan istifadə gündəlik qaydada nəzarətdə saxlanılır və görülən tədbirlər əhalinin içməli və suvarma suyu ilə təchizatının daha da yaxşılaşdırılmasına, su elektrik stansiyalarının səmərəlilik göstəricilərinin əhəmiyyətli dərəcədə yüksəlməsinə şərait yaratmışdır. Ölkənin əsas su və su təsərrüfatı obyektlərində su ehtiyatlarının qiymətləndirilməsi üçün müasir texnologiyalara əsaslanan ölçmə cihazlarının quraşdırılması, içməli su təchizatı sahəsində sayğaclaşdırma, subartezian quyularında avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqi istiqamətində işlər davam etdirilir. Ölçmə cihazlarının texniki parametrlərinin elektron su təsərrüfatı informasiya sisteminə inteqrasiyası üzrə işlər aparılır. Müasir ölçmə cihazlarının quraşdırıldığı məntəqələrdən daxil olan operativ məlumatlar əsasında gündəlik bülletenlər hazırlanır və aidiyyəti qurumlara təqdim olunur.

Tapşırığınıza uyğun olaraq, məsləhətçi şirkət cəlb edilməklə ölkə əhəmiyyətli "Şəmkir", "Yenikənd", "Mingəçevir" və "Varvara" kaskad su anbarları üzrə texniki təhlükəsizliyin qiymətləndirilməsi tamamlanmış və komissiya tərəfindən təsdiq olunmuş müvafiq tədbirlər planının icrasına başlanmışdır. Nazirlər Kabinetinin 2025-ci il 1 may tarixli Sərəncamına əsasən həmin su anbarları da Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin balansına verilmişdir.

Möhtərəm cənab Prezident, müvafiq sərəncamlarınıza uyğun olaraq Qəbələ rayonunda 17,5 milyon kubmetr həcmində "Yengicə" su anbarının və Oğuz, Şəki rayonlarında 108 milyon kubmetr həcmində "Əlicançay" su anbarının tikintisi həyata keçirilir və 2027-ci ildə tamamlanması nəzərdə tutulur. "Yengicə" su anbarı Qəbələ rayonu üzrə 10 min hektar əkin sahəsinə xidmət edəcəkdir. "Əlicançay" su anbarı isə Şəki və Qax rayonları üzrə 30 min hektara yaxın əkin sahəsinə xidmət etməklə yanaşı, Şəki və Oğuz rayonları üzrə 28 yaşayış məntəqəsinin 49 min nəfərə yaxın əhalisini içməli su ilə təmin edəcəkdir. "Şirvan" kanalının yenidən qurulması işləri müvafiq Sərəncamınıza uyğun olaraq davam etdirilir və 2027-ci ildə tamamlanması nəzərdə tutulur. Yenidənqurmadan sonra 10 rayon üzrə 228 min hektar əkin sahəsini suvarma suyu və yaşayış məntəqələrini məişət suyu ilə təmin edəcəkdir. Eyni zamanda, 9 rayonun 115 min hektaradək əkin sahəsinin suvarma suyu və yaşayış məntəqələrini məişət suyu ilə təmin edən "Qarabağ" kanalının yenidən qurulması üzrə layihə-smeta sənədləri hazırlanır.

Qeyd olunanlardan əlavə, 7 suvarma kanalı yenidən qurulmuş və 3 suvarma kanalının yenidən qurulması davam etdirilir ki, bunlar da ümumilikdə 132,3 min hektar əkin sahəsinə xidmət edir. Son illərdə azsuluq dövründə Kür çayının 60 kilometrlik mənsəb hissəsində Xəzər dənizinin təsirindən suda duzluluq konsentrasiyasının artması Kür çayının aşağı axarında yerləşən Neftçala və Salyan rayonlarının ərazisində məskunlaşmış əhalinin suya olan tələbatının ödənilməsində ciddi çətinliklər yaradırdı. Görülən tədbirlər nəticəsində suqəbuledici qurğuların normal istismarı və "Mingəçevir" su anbarının izafi suyun buraxılmasına ehtiyac qalmadan suya olan tələbatın optimal şəkildə ödənilməsi təmin olunmuşdur. "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri" haqqında 2023-cü il 12 aprel tarixli Sərəncamınızın icrası məqsədilə elan edilmiş müsabiqənin qalibi olan şirkətlə Dövlət-Özəl Tərəfdaşlıq Müqaviləsi və digər müqavilələr ötən ilin sentyabr ayında Bakıda keçirilmiş Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində imzalanmışdır. Bu pilot layihə əhalinin dayanıqlı içməli su təminatına xidmət etməklə yanaşı, ölkəmizdə dövlət-özəl tərəfdaşlığı baxımından da xüsusi nümunə təşkil edəcəkdir.

*(ardı 3-cü səhifədə)*

# Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramına həsr olunan müşavirə

*(əvvəli 2-ci səhifədə)*



Həmçinin "Hövsan" aerasiya qurğusunda Xəzər dənizinə axıdılan tullantı sularının təmizlənməsi və təkrar istifadəsi ilə bağlı pilot layihənin həyata keçirilməsinə dair Sərəncamınızla əlaqədar Texniki-İqtisadi Əsaslandırma sənədinin hazırlanması və müvafiq dövlət-özəl tərəfdaşlığı modelinin müəyyən edilməsi ilə bağlı Beynəlxalq Maliyyə İnstitutu ilə əməkdaşlıq həyata keçirilir.

Möhtərəm cənab Prezident, ötən dövr ərzində işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı tikinti-quraşdırma, bərpa və yenidənqurma işləri görülmüş, çoxsaylı infrastruktur layihələri həyata keçirilmişdir.

Ali rəhbərliyinizlə ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi ilə birlikdə həmin ərazilərdəki su ehtiyatlarımız üzərində də nəzarət bərpa edilmişdir ki, bu da ölkə ərazisində formalaşan su ehtiyatlarının təqribən 20 faizinə bərabərdir. İşğaldan azad edilmiş ərazilərdə su təsərrüfatı obyektlərinin tikintisi, yenidən qurulması, bərpası, içməli su və suvarma suyu təchizatı ilə bağlı tədbirlər üzrə fəaliyyətin əlaqələndirilməsi Komissiyası tərəfindən Əlaqələndirmə Qərargahı ilə birlikdə təmin edilir. Siz də qeyd etdiyiniz kimi, Laçın rayonunda Qubadlı və Zəngilan rayonları üzrə 12 min hektar torpaq sahəsinin suvarma suyu ilə təminatı məqsədilə həcmi 26,7 milyon kubmetr olan "Zabuxçay" su anbarı inşa edilərək istismara verilmişdir. Ağdərə rayonunda həcmi 5,9 milyon kubmetr olan "Suqovuşan" su anbarı təmir-bərpa edilmişdir. Dörd rayon üzrə 29,7 min hektar torpaq sahəsinin su təminatının yaxşılaşdırılmasına xidmət edən 20 kilometr uzunluğunda "Tərtərçay" sol sahil suvarma kanalı və onu "Suqovuşan" su anbarından su ilə təmin edən 5,2 kilometr uzunluğunda magistral kanalı yenidən qurularaq istismara verilmişdir. Beş rayon üzrə 67 min hektar torpaq sahəsinin su təminatını yaxşılaşdıracaq 50 kilometr uzunluğunda "Tərtərçay" sağ sahil suvarma kanalının yenidən qurulmasına dair layihə-smeta sənədləri tamamlanmış və tikinti işlərinə başlanılacaqdır. Ağdam rayonunda həcmi 23 milyon kubmetr və əkin üzrə xidmət sahəsi 7 min hektar təşkil edən "Xaçınçay" su anbarı və Füzuli rayonunda ümumi həcmləri 15,5 milyon kubmetr və əkin üzrə xidmət sahəsi 6,2 min hektar təşkil edən "Köndələnçay" su anbarları təmir-bərpa edilmişdir. Laçın rayonunda həcmi 91 milyon kubmetr təşkil edəcək "Həkəriçay" su anbarının və Qubadlı rayonunda həcmi 67 milyon kubmetr təşkil edəcək "Bərgüşadçay" su anbarının tikintisi ilə əlaqədar layihə-smeta sənədləri yekunlaşmaq üzrədir. "Həkəriçay" su anbarının ilkin mərhələdə Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Ağdam rayonlarının içməli su ilə təminatına xidmət etməsi nəzərdə tutulur. "Bərgüşadçay" su anbarı isə Qubadlı, Zəngilan və Cəbrayıl rayonları üzrə 8,8 min hektar torpaq sahəsini suvarma suyu ilə təmin etməklə yanaşı, "Qız Qalası" su anbarına layihələndirilən magistral kanala saniyədə 12 kubmetr suyun ötürülməsinə xidmət edəcəkdir. Azərbaycan Respublikası və İran İslam Respublikası arasında mövcud razılaşmalara uyğun olaraq Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" su anbarlarının su və enerji ehtiyatlarından səmərəli istifadə edilməsi məqsədilə tədbirlər davam etdirilir. "Qız Qalası" su anbarından ayrılan magistral suvarma kanalının tikintisi layihəsinin beynəlxalq maliyyə qurumu ilə birgə maliyyələşdirilməsi məqsədilə 2024-cü ildə kredit və layihə sazişləri imzalanmış və layihənin icrası istiqamətində işlərə başlanılmışdır. Bu layihə Mil-Muğan zonasında 252 min hektar torpaq sahəsinin su təminatının yaxşılaşdırılmasına, Cəbrayıl və Füzuli rayonları ərazisində 12 min hektar yeni torpaq sahəsinə suyun verilməsinə xidmət edəcəkdir.

Möhtərəm cənab Prezident, ötən il su təchizatı baxımından Naxçıvan Muxtar Respublikasında müəyyən çətinliklər müşahidə edilmişdir. Belə ki, ötən il ərzində əsas iki su anbarına, - tutumu 150 milyon kubmetr olan "Arpaçay" su anbarı və tutumu 100 milyon kubmetr olan "Heydər Əliyev" su anbarına, - daxil olan suyun həcmi 2024-cü ilin eyni dövrü ilə müqayisədə təqribən yarıbayarı – 200 milyon kubmetrdən artıq azalmışdır. Tapşırığınıza uyğun olaraq, Naxçıvan Muxtar Respublikası üzrə su ehtiyatlarından səmərəli istifadə və əhalinin su ilə dayanıqlı təchizatı məsələsi Komissiyanın fəaliyyəti çərçivəsində ətraflı müzakirə edilmiş, problemlərin köklü şəkildə həlli ilə bağlı görüləcək tədbirlərin ilkin layihəsi hazırlanmış və yekunda diqqətinizə təqdim ediləcəkdir. Eyni zamanda, Bakı şəhərində və Abşeron yarımadasında içməli su təchizatına, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair Sizin rəhbərliyinizlə keçirilən bugünkü müşavirə su ehtiyatlarının səmərəli istifadə edilməsinə, əhalinin dayanıqlı və keyfiyyətli içməli su və sanitariya xidmətləri ilə təminatının yaxşılaşdırılmasına xüsusi töhfə verəcəkdir.

Möhtərəm cənab Prezident, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi ilə bağlı qarşımıza qoyduğunuz bütün vəzifələr yerinə yetiriləcəkdir.

Diqqətinizə görə minnətdaram.

**Prezident İlham Əliyev:** Sağ olun.

*

**Prezident İlham Əliyev:** İndi isə söz verilir Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılova.

**Zaur Mikayılov:** Möhtərəm cənab Prezident, Sizin tapşırığınıza əsasən hazırlanmış bu layihə təklifi iqtisadiyyatın inkişafı və artan əhali fonunda Bakı şəhərinin və Abşeron yarımadasının dayanıqlı su, içməli su, tullantı və yağış suları sisteminin təşkilini əks etdirir. Hazırlanan Dövlət Proqramının əsas məqsədi Sizin tapşırığınıza əsasən həyata keçirilən Bakı və Abşeron yarımadasında nəqliyyat, şəhərsalma və ərazi inkişaf layihələri fonunda əhalinin dayanıqlı su təminatını təşkil etməkdir. Məhz bu yanaşma əsasında 2026-2035-ci illəri əhatə edən Dövlət Proqramı Bakı şəhərində və Abşeron yarımadasında həm bugünkü, həm də perspektiv inkişaf hədəfləri ilə uzlaşmaqdadır.

Möhtərəm cənab Prezident, bu proqramın hazırlanmasını şərtləndirən amilləri və onun əsas tərkib hissəsi olan istiqamətləri göstərmək üçün icazənizlə təqdimata keçmək istərdim. İcazə versəniz, cənab Prezident, yaxınlaşardım.

**Prezident İlham Əliyev:** Buyurun.

**Zaur Mikayılov:** Möhtərəm cənab Prezident, əvvəlcə Bakı şəhərində və Abşeron yarımadasında bugünkü sosial-iqtisadi inkişaf və demoqrafik artımla əlaqədar bəzi məlumatları diqqətinizə çatdırmaq istəyirəm ki, bunlar da bu proqramın hazırlanmasında əsas amillərdən biridir. Bakı şəhərindəki su və kanalizasiya sistemləri əsasən 1980-ci illərin sonuna qədər hazırlanmışdır və o gündən bu günə qədər yaşayış məntəqələrinin ərazisi 2,6 dəfə, əhalisi isə 2,1 dəfə artmışdır. Əsas magistral xətlərin istismar müddəti çoxdan başa çatmışdır, müasir nəzarət sistemləri də standartlara heç bir şəkildə cavab vermir. Bunların çoxunun ömrünün 40-50 il olmasını nəzərə alsaq, onların istismar müddəti artıq başa çatmışdır. Əksər yağış suyu kollektorlarının kanalizasiya xətlərinə qoşulması ilə sistemlərdə əlavə yükləmələr yaranmışdır. Vaxtilə Bakıda mövcud olan yağış sistemlərinin hamısı 1990-cı illərdə kanalizasiya kollektoruna çevrilmişdir.

Əsas kollektorların maksimal ötürücülük qabiliyyəti, formalaşan su miqdarının az olması təbii ki, həm yuxarıda göstərdiyimiz kimi əhalinin artması, həm də yağış sularının həmin kollektora axıdılması ilə əlaqədardır.

Bir çox magistral xətlərin mühafizə zonalarının zəbt olunması, cənab Prezident, bu gün hazırda əsas kanalizasiya magistrallarımızla bağlı Bakı şəhərində bu yaxınlarda apardığımız təhlillərdən məlum oldu ki, həmin magistralların istismarını çətinləşdirərək hətta imkansız hala gətirən 1600-dən çox fərdi yaşayış və ya digər tikintilər mövcuddur. Bu da bəzi yerlərdə müddəti bitmiş kanalizasiya sistemlərinin çökməsi və əhalinin evlərinə ziyan dəyməsi ilə nəticələnir.

Bu tərəfdə, cənab Prezident, bugünkü vəziyyətimiz bütün Azərbaycanda fasiləsiz içməli su təminatı, sayğaclaşdırma ilə bağlı faizlər və bununla bərabər Avropa İttifaqında olan rəqəmlər göstərilmişdir. İçməli suya olan əlçatanlıq Azərbaycanda 73,4 faiz, təxminən 74 faiz, Avropa İttifaqında isə 95 faizdir. Fasiləsiz su təminatı Azərbaycan üzrə 72,5 faiz, Bakı və Abşeronda, - Siz də qeyd etdiniz, - 70 faizdir. Bunun fərqli olmasının səbəbi son illərdə rayonlarda, bölgələrdə aparılan böyük quruculuq işləridir. Odur ki, orada fasiləsiz suya əlçatanlıq daha yüksəkdir.

Gördüyünüz kimi, bizdə sayğaclaşdırma Avropa İttifaqı ilə müqayisədə daha yüksək səviyyədədir – 91,9 faiz, təxminən 92 faizə çatmaqdadır.

Su itkilərimiz isə daha yüksəkdir. Su itkiləri faktiki olaraq 38,6 faizdir ki, bu, Avropa İttifaqında orta hesabla 22 faizdir.




Bununla yanaşı, Siz də qeyd etdiyiniz kimi, bizim itkilərimiz 46 faizə yaxındır. Çünki bununla yanaşı, bir də daxili istismarda olan sular var, onlar da itki olaraq nəzərə alınır. Avropada bu, 3 faiz olduğu halda, Azərbaycanda 9 faiz səviyyəsindədir.

Cənab Prezident, bu xəritədə Bakı şəhərində və Abşeron yarımadasında sosial-iqtisadi inkişaf, demoqrafik artım ilə əlaqədar içməli su sistemlərinin istifadəsi xəritəsi göstərilir. Burada gördüyünüz mavi bölgələr şəbəkənin tikintisinin normalara cavab verdiyi ərazilərdir. Bu, gördüyünüz kimi, Bakı şəhərinin mərkəzini, Sumqayıt şəhərinin bəzi hissələrini və digər bəzi bölgələri özündə əks etdirir. Yaşıl ərazilərdə isə su şəbəkəsi mövcuddur, amma bu, normalara cavab verməyən, əhali tərəfindən, bəzi yerlərdə maklerlər tərəfindən primitiv şəkildə tikilmiş qoşulma şəbəkələrdir. Gördüyümüz qırmızı ərazilər isə ümumiyyətlə, su şəbəkəsi olmayan və insanların suyu daşımaqla gətirdikləri ərazilərdir.

Bu xəritədən göründüyü kimi, xidmət göstərilən əhali Bakı və Abşeron yarımadasında 91 faiz olduğu halda, normalara cavab verən əhaliyə xidmətimiz 74 faiz səviyyəsindədir. Ərazi olaraq 77 faizi əhatə etdiyi halda, tikinti normalarına cavab verən əhatə dairəmiz, sadəcə, 40 faiz səviyyəsindədir.

Eyni qaydada da Bakı və Abşeron yarımadasında kanalizasiya sistemlərinin xəritəsi göstərilir. Burada vəziyyətimiz, Siz də qeyd etdiyiniz kimi, cənab Prezident, bir az daha fərqlidir. Xidmət göstərilən ərazilər mavi rəngdə, ümumiyyətlə, xidmət göstərilməyən ərazilər qırmızı rəngdədir. Burada, sadəcə, 52 faiz əhaliyə xidmət göstərilir. Ərazi olaraq isə, sadəcə, 39 faiz xidmət göstərə bilirik. Gördüyünüz kimi, bu rəqəmlər Avropa İttifaqında daha yüksəkdir. Bütün bunlar bizim bu proqramın qəbul edilməsini və uzun müddətdir bu işləri həyata keçirərək bütün bu zonaların əhatə edilməsini şərtləndirən əsas amillərdən biridir.

Bununla yanaşı, yağış suları ilə bağlı Sizin diqqətinizə çatdırmaq istədiyimiz vəziyyətlər də var. Bilirsiniz ki, Bakı və Abşeron yarımadasında 300-dən çox göl mövcuddur ki, bunlar da təbii olaraq sutoplayıcı funksiyalara malikdir. Amma 2014-cü illə 2025-ci illər arasında burada bəzən qeyri-qanuni və ya bəzən plansız genişlənmələr nəticəsində bir neçə göl qurudularaq ərazi zəbt olunmuş, tikintilər aparılmışdır. Bu da öz növbəsində intensiv yağışlar yağdığı zaman həmin bölgələrin və bu ərazilərin subasmaya məruz qalmasını şərtləndirir.

Möhtərəm cənab Prezident, Siz də qeyd etdiyiniz kimi, bu illər ərzində dövlət proqramları çərçivəsində bu istiqamətdə bir çox işlər görülmüşdür. Bugünkü vəziyyətimizin qənaətbəxş olmasının da səbəblərindən biri həmin bu proqramların həyata keçirilməsidir. 2004-cü ildə birinci Dövlət Proqramı qəbul edildiyi dövrdə Azərbaycanda içməli su təminatı, sadəcə, 40 faiz, Bakı şəhəri və Abşeron yarımadasında isə 29 faiz səviyyəsində idi. Hazırda içməli su ilə təminat az öncə göstərdiyim kimi, Azərbaycanda 73 faizə, Bakı şəhəri və Abşeron yarımadasında isə 70 faizə çatdırılmışdır. Bu proqram çərçivəsində görülmüş işlərdən təbii ki, əvvəlcə həm "Taxtakörpü", "Ceyranbatan" su anbarları, həm də ultrasüzgəcli sutəmizləyici qurğu – bunlar hamısı həmin proqram çərçivəsində həyata keçirilmiş və bizim su çatışmazlığı vəziyyətindən bugünkü daha yaxşı vəziyyətə gəlməyimizə çox böyük təsiri olmuşdur.

Cənab Prezident, Sizin Sərəncamınızla Azərbaycanın yeni milli su strategiyası qəbul edilmişdir. Bu sənəddə su strategiyası əsas üç istiqamətdə qruplaşdırılmışdır. Birincisi, Siz də qeyd etdiniz ki, əhalinin içməli suya tələbatının tam ödənilməsi üçün yeni su mənbələrinin yaradılması, tələbatına uyğun olaraq içməli suyun əhaliyə fasiləsiz çatdırılması və çox vacib olan su təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirlər nəzərdə tutulmuşdur. Digər istiqamət su itkiləri ilə bağlıdır. Sizin də qeyd etdiyiniz çox vacib məsələ su itkilərinin qarşısının alınmasıdır. Buraya magistral kəmərlərin və ötürücü şəbəkələrin itkilərinin, nəzarətdənkənar istifadənin qarşısının alınması və sayğaclaşdırmanın tam başa çatdırılaraq suyun dəqiq uçotunun aparılması daxildir. Üçüncü istiqamət isə su-kanalizasiya və yağış suyu infrastrukturunun inkişafıdır. Bakı şəhəri və Abşeron yarımadasının kanalizasiya şəbəkəsi ilə tam əhatə edilməsi, yağış suyu kollektorlarının, sutoplayıcı şəbəkənin inkişaf etdirilməsi və çox vacib olan Xəzər dənizinin və göllərin ekoloji mühitinin yaxşılaşdırılması kimi məsələlər bizim milli su strategiyamızda öz əksini tapmışdır.

Bu günə qədər görülmüş və həmin bu strategiyaya uyğun olaraq görülən işlərdən, - Siz də qeyd etdiniz, - mən burada dəniz suyunun duzsuzlaşdırılması ilə içməli suyun istehsalı layihəsini qeyd etmək istərdim. Bu, dövlət-özəl tərəfdaşlıq səviyyəsində bu miqyasda hazırlanan ilk layihədir. Layihənin tenderinin qalibi Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti olmuşdur və dediyim kimi, Azərbaycanda su sahəsində ilk dövlət-özəl tərəfdaşlıq layihəsidir. Azərbaycanda dəniz suyunun duzsuzlaşdırılması ilə içməli su istehsalı ilk dəfə belə bir meqalayihə sayəsində Bakı şəhərində və Abşeron yarımadasında faktiki istifadə olunan suyun 25 faizini təşkil edəcək. Bu da bizim gələcəkdə su təhlükəsizliyimizə çox böyük töhfə verəcək. Bu işlərə artıq başlanılmış, yer seçilmiş və bizim proqnozumuza görə, 2028-ci ilin sonuna qədər bu məsələnin başa çatdırılması nəzərdə tutulub.

Möhtərəm cənab Prezident, digər bir layihə Sizin Sərəncamınızla Bakı şəhərinin və Abşeron yarımadasının ən böyük təmizləyici qurğusu olan Hövsan Aerasiya qurğusunun modernləşdirilməsi, yenidən qurulması və orada dövlət-özəl tərəfdaşlıq potensialının araşdırılması nəzərdə tutulmuşdur. Qeyd edildiyi kimi, bu istiqamətdə texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması üzrə Asiya İnkişaf Bankı ilə çox yaxından işlər görülmüş, artıq texniki-iqtisadi əsaslandırma son mərhələyə çatmış və digər qurumlara da öz rəylərinin verilməsi üçün təqdim olunmuşdur. Bu rəylər əsasında da dövlət-özəl tərəfdaşlığı modellərinin dəqiqləşdirilməsi aparılacaq. Bu dəqiqləşdirmələr bitdikdən sonra həmin işlərin də bu ildən başlayaraq tenderlə həyata keçirilməsi nəzərdə tutulub.

Dövlət Proqramı layihəsinin Bakı şəhəri və Abşeron yarımadası üzrə əsas məqsədləri haqqında Sizə məlumat vermək istərdim. Proqram çərçivəsində bu su mənbələrinin dayanıqlı təmin edilməsi, suyun mənbədən götürülərək emalı, nəql edilməsi, saxlanılması və paylanması prosedurunun optimallaşdırılması nəzərdə tutulur. Əhalinin keyfiyyətli və dayanıqlı su ilə təmin edilməsi, paylayıcı şəbəkələrin itkilərinin minimuma endirilməsi, suyun uçotunun tam təkmilləşdirilməsi və təmin edilməsi, yağış və tullantı suları sistemlərinin yenilənməsi və inkişaf etdirilməsi, alternativ su mənbələrinin istifadəsinin araşdırılması və təmin olunması, Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, kanalizasiya və yağış suları sistemlərinin Bakı Master Planının yenilənərək 2040-cı ilə qədər hazırlanmış planın 2050-ci ilə qədər də inkişaf etdirilməsi bu Dövlət Proqramı çərçivəsində nəzərdə tutulmuşdur.

Cənab Prezident, hazırda Bakıda mövcud olan su sistemləri haqqında da bu xəritədə Sizə məlumat vermək istərdim. Burada gördüyünüz mavi xətlər mövcud olan su xətlərimizdir. Bu mavi işarələr isə mövcud su anbarlarıdır ki, bunlar da suyun paylanmasında tənzimləyici rol oynayır. Fasiləsiz su təminatı ilə bağlı bizim əsas hədəflərimiz 95 faizə çatmaqdır. İçməli su şəbəkəsinin genişləndirilməsi və su itkilərinin Avropa standartlarına uyğunlaşdırılaraq 20 faizə qədər endirilməsi, içməli suda sayğaclaşmanın 100 faizə çatdırılması və çox vacib olan içməli suyun keyfiyyət göstəricisinin təkmilləşdirilməsi əhalimizə sağlam suyun verilməsini təmin etməyimizə imkan yaradacaq. Bu sistem böyüdükcə təbii ki, idarəetmə sistemlərinin müasirləşdirilməsi də çox vacibdir. Cənab Prezident, burada gördüyünüz mavi xətlər var, amma yanında da qırmızı ilə planlaşdırdığımız yeni magistral xətlər nəzərdə tutulub ki, bu magistral xətlər tikildikdən sonra bizim həm əskik olan şəbəkələşmədə, - Siz də qeyd etdiyiniz kimi, Abşeron yarımadasında 64 yaşayış məntəqəmiz, qəsəbəmiz və kəndimiz var, - onların da şəbəkələşməsi həyata keçiriləcək.

Cənab Prezident, burada vacib olan məsələlərdən biri də Bakı şəhərində və Abşeron yarımadasında içməli suya tələbatın, xüsusilə də mənbələrimizin gələcək inkişafının nəzərə alınmasıdır. Gördüyünüz kimi, burada cədvəl göstərilib, Abşeron yarımadasında bizim gündəlik orta hesabla 16 kubmetr istifadəmiz var. Bizim layihə gücümüz 19,1 kubmetrdir. Amma bildiyiniz kimi, burada orta hesabla 16 kubmetr olan rəqəm yay aylarında daha yüksək səviyyələrə qalxır. Pik tələbatımız Bakı və Abşeron yarımadasında 20,8 kubmetr/saniyə göstərir. Amma inkişaf proqnozlarına uyğun olaraq 2040-cı ildə, - bu proqram hazırda 2040-cı ilə qədər nəzərdə tutulub, - bu rəqəmlərin orta hesabla 20,7 litr kubmetr/saniyə, pik vaxtlarda isə, yəni yayın qızmar vaxtlarında və bəzi istiqamətlərdə bölgələrdə suyun gəlişində problemlər olduğu halda bu rəqəmin 26,9 kubmetr olması gözlənilir. Bununla əlaqədar bizim hazırladığımız Dövlət Proqramında, sadəcə, şəbəkələrin və magistralların genişləndirilməsi deyil, su mənbələrinin artırılması nəzərdə tutulmuşdur. Bunlardan biri təbii ki, qeyd etdiyimiz kimi, duzsuzlaşdırma layihəmizdir ki, o, illik 100 milyon kubmetrdən çox içməli su verəcək. Bu da günlük 3,2 kubmetr/saniyə əlavə su deməkdir.

*(ardı 4-cü səhifədə)*

# Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramına həsr olunan müşavirə

*(əvvəli 3-cü səhifədə)*



Bununla yanaşı, Sizin də qeyd etdiniz kimi, beş istiqamətdə - "Bakı-Şollar"-dan gələn iki istiqamətimiz, Kür təmizləyici qurğulardan gələn su mənbəyimiz, Oğuz-Qəbələ su mənbəyimizi də təkmilləşdirərək onlardan da əlavə suyun gətirilməsini nəzərdə tutmuşuq. Planlaşdırmışıq ki, bunun sayəsində biz həmin o pik səviyyəni 2030-cu ildə artıq əldə etmiş olacağıq. Bununla paralel olaraq, şəbəkə genişləndikdən sonra 2040-cı ilə qədər bütün tələbat təmin olunacaq və qarşılanacaq.

Burada dediyimiz kimi, dəniz suyundan 3,2 kubmetr, Ceyranbatan sutəmizləyici qurğular kompleksini yenidən qurmaqla, klassik qurğunu bitirməklə əlavə 3 kubmetr, mövcud su xətlərində daşıyıcı kəmərlərin, qurğuların istismarı sayəsində daha 2 kubmetr su əldə edəcəyik. Çox doğru qeyd etdiyiniz kimi, bizim hazırdakı itkilərimiz bu səviyyədə olmasaydı, indi də suyumuz yetərdi. Amma o zamana qədər biz itkilərimizi 20 faiz endirdikdən sonra bu, əlavə suya ehtiyacımızı qarşılamış olacaq.

Onu da qeyd etməliyəm ki, cənab Prezident, bizim proqramda nəzərdə tutduğumuz mövcud xətlərdəki qurğuların həcminin artırılması ilə yanaşı, orada görüləcək işlər ən azından bu gün verilən suyu təminat altına alacaq. Çünki bilirsiniz, onlar Şollar və Oğuz-Qəbələ artezian sularıdır. Onları da təmir etmək yeraltı ehtiyatlarımıza da təsir göstərir. Kür çayının səviyyəsini də tənzimləyərək, biz "Mingəçevir" Su Anbarını artıq çoxillik tənzimləməyə keçmişik. Kür çayının səviyyəsini də sabit saxlayaraq, həmin yerlərdən gələn suyun dayanıqlı olaraq Bakıya çatdırılmasını nəzərdə tutmuşuq.

İçməli su ilə yanaşı, cənab Prezident, bilirsiniz, əsas məqsədimiz kanalizasiya sistemidir. Burada da məsələ su sistemlərində olduğu kimidir, biz mənbədən başlayaraq şəbəkələrə keçirik. Burada isə tam tərsinə olaraq, ilk növbədə mənsəbləri yaradaraq, yəni suyun haraya axıdılacağını, necə təmizlənəcəyini nəzərə alaraq, ondan sonra şəbəkələrin yaradılması planlaşdırılıb. Bununla əlaqədar Bakı və Abşeron yarımadasında 12 yeni kollektorun tikintisi nəzərdə tutulub ki, cənab Prezident, Sizin Sərəncamınızla onlardan 7-də artıq işə başlanılıb. Burada gördüyünüz mavi xətlər kollektorlarımızdır. Qırmızı xətlərlə artıq birinci mərhələdə tikintisinə başladığımız və 2027-ci ilin sonuna qədər bitirəcəyimiz əsas kollektorlar göstərilib. Ondan sonra - ikinci mərhələdə Abşeronun şərq hissəsində olan bu bölgələrin kanalizasiya sistemlərini təmin etmək üçün əsas magistralların tikintisi nəzərdə tutulmuşdur. Ümumiyyətlə, 346 kilometr uzunluğunda magistral kollektorların tikintisi planlaşdırılıb. Bununla yanaşı, bildiyiniz kimi, şəhərin bütün çirkab və tullantı suları hazırda Hövsan tullantı təmizləyici qurğusuna gəlir. Şəhərin bu yükünü azaltmaq məqsədilə əlavə 9 yeni təmizləyici qurğunun yaradılması nəzərdə tutulmuşdur. Bunlardan biri Ələt tullantı sutəmizləyici qurğusudur ki, bu, Ələt iqtisadi zonasının inkişafını nəzərdə tutur. Sahil təmizləyici qurğusunun, Lökbatan, Müşfiqabad qurğularının tikintisi hazırda davam etdirilir. Sumqayıt şəhərinin tullantı sutəmizləyici qurğusunun həm təkmilləşdirilməsi, həm də həcminin artırılması layihəsi davam etdirilir. Şəhərin içində Böyükşor təmizləyici qurğusu nəzərdə tutulub ki, bu, həm Böyükşor gölünün ekoloji vəziyyətinin tənzimlənməsi, həm də oradakı bütün axıntıların və tullantı sularının şəhərin içərisinə buraxılmadan təmizlənərək təmiz suyun gölə axıdılaraq onun səviyyəsinin saxlanılması nəzərdə tutulur. Yeni Pirallahı təmizləyici qurğusu da nəzərdə tutulub. Pirşağı və Şüvəlan təmizləyici qurğularının modernləşdirilməsi, onların işə salınması və bioloji təmizləmənin də həyata keçirilməsi planlaşdırılır. Bunlar həyata keçirildikdən sonra bu bölgələrdəki şəbəkələr də artıq qoşularaq həmin magistral xətlərlə təmizləyici qurğulara yönləndiriləcək və beləliklə, Bakı-Abşeron yarımadasında Xəzərə ekoloji cəhətdən təmiz su buraxılacaq. Bir çox yerlərdə bu suyun təkrar istifadəsi də nəzərdə tutulub. Bildiyiniz kimi, həm Hövsan təmizləyici qurğularında, həm də digərlərində - Sumqayıt təmizləyici qurğularında da bu suyun texniki və ya suvarma suyu olaraq yenidən istifadəsi nəzərdə tutulub. Beləliklə, kanalizasiya sistemlərini 95 faizə çatdırmağımız nəzərdə tutulur.

Cənab Prezident, hazırda görülən işlər haqqında qısa məlumat vermək istərdim. Bilirsiniz, şəhərin mərkəzindən keçən Sahil kollektoru yenidən qurulur. Zığ-Hövsan kanalizasiyası yenidən qurulur. Dərnəgül, Bakıxanov, Qaraçuxur, Hövsan kanalizasiyası, Pirşağı, Lökbatan, Müşfiqabad və Böyükşor istiqamətlərində işlər 2025-ci ilin ortalarında başlanmışdır. Burada əldə edəcəyimiz ilk nəticə təbii ki, Bakı buxtasının ekoloji mühitinin yaxşılaşdırılması olacaq. Çünki Sahil kollektoru işə düşdükdən sonra Bakı buxtasına axıdılan bütün çirkab su və yağış suları onun vasitəsilə oradan uzaqlaşdırılacaq. Ceyranbatan gölünün ekoloji mühafizə tədbirləri gücləndiriləcək. Çünki Müşfiqabad hövzəsi tikildikdən sonra o ətrafda yaranan bütün tullantı suları artıq Müşfiqabad təmizləyici qurğusuna və oradan da Sumqayıtçaya yönləndiriləcək. Bizim yarımadamızın şimal, şimal-şərq zonasında bütün kəndlərdəki əsas kanalizasiya sistemləri mənsəbləri yaradılaraq oradakı şəbəkələr həmin kollektorlara qoşulacaq.

İkinci mərhələdə isə Hövsan, Binə, Maştağa, Türkan – xəritədə gördüyümüz yaşıl xətlər Şüvəlan hövzəsi, Ələt hövzəsi, Sahil, Pirallahı hövzələri üzrə kanalizasiya kollektorları tikiləcək ki, bu işlər də həyata keçirildikdən sonra, - mən bir-bir vaxtınızı çox alaraq kəndlərin adlarına keçmək istəmirəm, burada yazılıb, - bizim yarımadanın şərq tərəfində qalan bütün kəndlərin kanalizasiya sistemlərinin şəbəkələri onlara qoşularaq təmizləyici qurğulara yönləndiriləcək.

Bununla yanaşı, təbii ki, intensiv yağışlar zamanı şəhərin mərkəzində yaranan problemlərimizdir ki, biz bunları hər dəfə yağışlar yağanda yaşayırıq. Bununla əlaqədar qeyd etdiyimiz Bakı şəhərində 30 küçə üzrə yeni yağış sistemlərinin tikilməsi, ilk növbədə, onların texniki-iqtisadi əsaslandırılması və ondan sonra onların həyata keçirilməsi nəzərdə tutulmuşdur. Cənab Prezident, təbii ki, 2025-ci ilin aprel ayında yağan yağışlardan Sizin də çox yaxşı məlumatınız var, son 60 ildə yağmayan bir yağış yağmışdır. Yəni 100 ildə bir, 1000 ildə bir yağa biləcək yağışları hər hansı bir sistemin qarşılaya biləcək səviyyədə olması imkansızdır. Amma ən azından normalara uyğun və normalardan bir az da artıq gələn yağışları qarşılaya bilmək üçün bu sistemlərin həyata keçirilməsi çox vacibdir və bu küçələrin siyahısı var. Amma bu, təbii ki, proses getdikcə təkmilləşdiriləcək, daha düzgün, daha uyğun olan küçələrdə bu sistemlərin tikilməsi nəzərdə tutulmuşdur. Bu şəkildə bizim şəhərin mərkəzində olan əsas problemlərin aradan qalxması planlaşdırılmışdır.

Cənab Prezident, bütün bu tikinti və layihələndirmə işləri ilə yanaşı, bu sistemlərin düzgün uçotunun aparılması və rəqəmsallaşdırılması da çox vacibdir. Çünki sistemlər genişləndikcə onlara insan sayı ilə nəzarət etmək mümkün olmayacaq. Bunun üçün də bir çox yerlərdə - Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı və yağış suları sistemlərində proqram təminatları, yeni "Skada" sistemləri, "Ayote" (IoT) dediyimiz internet texnologiyalarından istifadə edilərək nəzarət sistemləri qurulacaq ki, bu da uçot sisteminin elektronlaşdırılmasına və təkmilləşdirilməsinə, insan amilinin bu sistemdən mümkün qədər çıxarılmasına yol açacaq. Suyun keyfiyyət göstəriciləri onlayn monitorinq olunacaq və bu şəkildə gündə bir neçə dəfə laboratoriya analizləri almaqla deyil, gördüyümüz hər hansı bir dəyişiklik onlayn şəkildə sistemdə göstərilərək yerində və zamanında müdaxilələr həyata keçiriləcək. Sızmaların və su itkilərinin qarşısının alınması üçün "Ayote" monitorinq sistemləri sayəsində bundan çox tez xəbər tutmağı və onun operativ şəkildə həll edilməsini nəzərdə tuturuq. Təbii ki, bütün bu işlərin görülməsi ilə yanaşı, biz həmin istiqamətdə maddi-texniki bazanın, yəni istismar qurumlarının maddi-texniki bazasını yüksəldərək, onların bu xətalara, bu qəzalara və bu işlərə operativ reaksiya göstərməsini nəzərdə tuturuq.

Bu işlərdən başqa, təbii ki, bilirsiniz, Su Ehtiyatları Agentliyi olaraq bizim suların istifadəsinə və mühafizəsinə nəzarət xidmətimiz də var. Bununla yanaşı, su təsərrüfatı sistemlərində mühafizə zonalarının təhlükəsizliyinin gücləndirilməsi və istismarın təkmilləşdirilməsi çox vacibdir. Bir az əvvəl qeyd etdiyimiz kimi, bir çox yerlərdə mühafizə zonalarında tikilmiş binaların, evlərin həm bizim sistemlərə, həm də o evlərin təhlükəsizliyinə çox böyük təsiri var. Su, yağış və tullantı sistemlərinin mühafizə zonaları üzrə inventarlaşdırmanın aparılması, həmçinin müvafiq qurumlarla bərabər normativ-hüquqi aktların tələblərinə uyğun olaraq mühafizə zonalarının fəaliyyətinə dair tədbirlərin görülməsi zəruridir. Nazirlər Kabinetinə siyahı təqdim edilməklə bir çox yerlərdə məcburi köçürmələr olacaq. Çünki dediyimiz kimi, bəzi magistral kanallara əlçatanlığımız olmadığı üçün bəzi yerlərdə bu köçürmələrə də ehtiyac olacaq. Su təsərrüfatı obyektlərinə qanunsuz müdaxilə hallarının qarşısının alınması ilə əlaqədar Sizin bu yaxınlarda imzaladığınız Sərəncamla bəzi qaydalar artıq qüvvəyə minir. Bununla əlaqədar biz bəzi işləri də bu ayın sonuna qədər Nazirlər Kabinetinə təqdim edəcəyik və bu da bizim işimizin daha da inkişaf etməsinə yol açacaq. Su və su təsərrüfatı obyektlərinin kimyəvi, bioloji, hidroloji və digər çirklənmələrdən mühafizə tədbirlərinin həyata keçirilməsi - bütün bunlar dediyimiz kimi, dövlət proqramı, sadəcə, investisiya ilə əlaqəli tədbirləri nəzərdə tutur. Bu, həm də bizim istismar qurumlarımızın, xidmətlərimizin 10 il boyunca həm öz işlərinin təkmilləşdirilməsinə, həm də gündəlik istismar işlərinin daha da genişləndirilməsinə yol açacaq. Bu tədbirləri nəzarətdə saxlayaraq biz 10 il ərzində bütün bu sistemlərin Avropa standartları səviyyəsinə çatdırılmasını nəzərdə tutmuşuq.

Deyəcəklərim bu qədər, cənab Prezident, əgər icazə versəydiniz, bu proqramın qəbul olunmasını Sizdən xahiş edərdim.

**Prezident İlham Əliyev:** Sağ olun.

*

Sonra müzakirələr davam etdirildi.

***AZƏRTAC***

## "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026–2035-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemləri infrastrukturunun təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

**1** "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026–2035-ci illər üçün Dövlət Proqramı" (bundan sonra – Dövlət Proqramı) təsdiq edilsin *(əlavə olunur)*.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və icrasına nəzarət etsin;

2.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3** Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

**4** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilmə mexanizmlərinə uyğun olaraq, hər il Azərbaycan Respublikası dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması, eləcə də digər mənbələrdən vəsaitlərin cəlb edilməsi istiqamətində müvafiq tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 yanvar 2026-cı il**

## "Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyul tarixli 417 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** "Azərbaycan Respublikası və Latviya Respublikası arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyul tarixli 417 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 7, maddə 593 (Cild I) 1-ci hissəsində "ekologiya və təbii sərvətlər" sözləri "kənd təsərrüfatı" sözləri ilə əvəz edilsin.

**2** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Latviya Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 yanvar 2026-cı il**

## Azərbaycan–Sudan siyasi məsləhətləşməsi



**Yanvarın 12-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Sudanın xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Müaviyə Osman Xalidlə görüşüb.**

Görüş zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, o cümlədən geniş bölgədə cari vəziyyət və təhlükəsizlik məsələləri müzakirə olunub.

Tərəflər Azərbaycan və Sudan arasında ikitərəfli münasibətlərin, həmçinin çoxtərəfli platformalar çərçivəsində əməkdaşlığın inkişafında siyasi dialoqun əhəmiyyətini qeyd ediblər. Xarici İşlər nazirlikləri arasında məsləhətləşmə mexanizminin, habelə qarşılıqlı səfərlərin vacibliyi vurğulanıb. Sudanın COP29-da fəal iştirakı, eləcə də bu il keçiriləcək Ümumdünya Şəhərsalma Forumunda əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Görüşdə energetika, humanitar, təhsil, "ASAN xidmət" və digər sahələrdə əməkdaşlıq məsələləri müzakirə edilib. Azərbaycan tərəfindən sudanlı tələbələrə təhsil təqaüdünün ayrılmasına görə minnətdarlıq ifadə olunub.

*

Həmin gün Azərbaycan və Sudan XİN-ləri arasında siyasi məsləhətləşmə keçirilib. Məsləhətləşmələrə Azərbaycan tərəfindən nazir müavini Yalçın Rəfiyev, Sudan tərəfdən isə Müaviyə Osman Xalid rəhbərlik edib.

***XQ***

# Bakı–İrəvan: şəffaf bazar yaxınlaşan sülhə töhfədir

**Azərbaycan–Ermənistan münasibətlərində müşahidə olunan son proseslər göstərir ki, region tədricən yeni siyasi və iqtisadi reallıqlara uyğunlaşır. Uzun illər qarşıdurma, etimadsızlıq və qapalı kommunikasiya xətləri ilə xarakterizə olunan münasibətlər indi fərqli məzmun kəsb edir. Bu dəyişikliklərin əsas xüsusiyyəti ondan ibarətdir ki, tərəflər arasında təmaslar artıq diplomatik bəyanatlarla məhdudlaşmır, real iqtisadi əməkdaşlıq elementləri ilə müşayiət olunur. Bu baxımdan, Azərbaycanın Ermənistanın yanacaq bazarına daxil olması Cənubi Qafqazda formalaşan yeni mərhələnin aydın göstəricisidir.**

Ötən bazar günü Bakıdan Ermənistana Aİ-92 markalı avtomobil yanacağı yüklənmiş 18 vaqondan ibarət qatarın yola salınması məhz yeni reallığın növbəti təsdiqidir. Bundan əvvəl də iki dəfə neft məhsulları ilə dolu sisternlərin göndərilməsi baş tutub. Yəni proses epizodik deyil, davamlı xarakter daşıyır.

Onu da qeyd edək ki, Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Ermənistan bazarına benzin və dizel yanacağı tədarükündə hər hansı siyasi şərt və ya məcburetmə mexanizmi yoxdur. Əksinə, bu addım regional əməkdaşlığın iqtisadi əsaslarının formalaşmasına xidmət edir və bazar qanunlarına uyğun şəkildə həyata keçirilir. Ermənistanın mövcud yanacaq təminatı isə bu əməkdaşlığı aktuallaşdırır. Çünki ölkənin bu sahədə təminatı, əsasən, Rusiyadan asılıdır. 2024-cü ildə bu ölkədən 489 min ton neft məhsulu idxal edilib ki, bu, ümumi bazarın 61 faizindən çoxunu təşkil edir. Bu qədər böyük pay isə monopol mühit formalaşdırır. Lakin Rusiyanın Ukrayna ilə müharibə şəraitində üzləşdiyi problemlər, bəzi neft emalı zavodlarının sıradan çıxması və sanksiyalar səbəbindən texnoloji avadanlıq təminatında yaranan çətinliklər getdikcə vəziyyəti dəyişir.



Bundan əlavə, Rusiyadan Ermənistana neft məhsullarının əsasən Gürcüstan üzərindən daşınması logistika baxımından da çətinliklər yaradır. Uzun marşrut, yüksək tranzit rüsumları, əlavə nəqliyyat xərcləri yanacağın maya dəyərini artırır. Bu isə Ermənistan bazarında qiymətlərin süni şəkildə bahalaşmasına, əhali və biznes üçün əlavə maliyyə yükünün formalaşmasına səbəb olur. Digər tərəfdən, asılılıq tədarük zəncirində yaranan hər hansı gecikməni və ya siyasi-iqtisadi riski dərhal daxili bazara ötürür. Nəticədə, yanacağın qiymətləri tez dəyişir, bazarda qeyri-sabitlik yaranır və bu, ümumi iqtisadi mühitə mənfi təsir göstərir.

* * *

Xatırladaq ki, Ermənistan yanacaq ehtiyacının müəyyən hissəsini İran, Bolqarıstan, Yunanıstan və Malta kimi ölkələrdən də təmin edir. Lakin bu mənbələrin heç biri uzunmüddətli və etibarlı alternativ deyil. İrandan idxal olunan neft məhsulları keyfiyyət baxımından problemlidir, çünki ölkədəki neft emalı zavodları Avro-5 standartlarına cavab vermir. Üstəlik, İranın özündə yaşanan enerji böhranı və mövsümi tələbat artımı ixrac imkanlarını məhdudlaşdırır. Avropa ölkələrindən idxal isə məsafənin uzaqlığı və mürəkkəb nəqliyyat marşrutları səbəbindən yüksək xərclərlə müşayiət olunur və qiymətlərin enməsinə imkan vermir.

Belə bir mənzərə fonunda Azərbaycanın Ermənistan bazarına daxil olması iqtisadi baxımdan məntiqli və rasional seçim kimi ön plana çıxır. Coğrafi yaxınlıq, mövcud dəmir yolu və logistika infrastrukturu, eləcə də rəqabətqabiliyyətli qiymətlər Ermənistan üçün daha əlverişli şərait yaradır. Bu amil artıq rəsmi İrəvan tərəfindən də açıq şəkildə etiraf olunur. Bildirilir ki, Azərbaycandan idxal olunan yanacaq ölkə iqtisadiyyatına milyonlarla dollar qənaət etmək imkanı verir.

Ermənistanın hakim "Vətəndaş sazişi" partiyasının deputatı Xaçatur Sukiasyanın səsləndirdiyi fikirlər bunu təsdiqləyir. Deputatın sözlərinə görə, Azərbaycandan idxal olunan benzin və digər neft məhsulları Ermənistan iqtisadiyyatı üçün ciddi maliyyə üstünlükləri yaradır və ölkəyə milyonlarla ABŞ dolları həcmində vəsaitə qənaət etmək imkanı verir. Sukiasyan onu da vurğulayıb ki, logistika və nəqliyyat xərclərinin azalması hesabına əldə olunan vəsait Ermənistan iqtisadiyyatının digər sahələrinin inkişafına yönəldilə bilər. Onun fikrincə, enerji daşıyıcılarının daha yaxın mənbələrdən alınması ölkənin iqtisadi dayanıqlığını artırmaqla yanaşı, uzun illər blokada şəraitinin yaratdığı əlavə maliyyə yükünü də azaldır.

Deputat Azərbaycan yanacağının satışından əldə edilən vəsaitlərin silahlanmaya yönəldilməsi ilə bağlı səsləndirilən iddiaları kəskin şəkildə təkzib edib. Bu cür fikirləri "cahil yanaşma" adlandıran Sukiasyan bildirib ki, iqtisadi münasibətlər və silah istehsalı tamamilə fərqli mexanizmlər üzərində qurulub. Onun sözlərinə görə, müasir iqtisadiyyatda ayrı-ayrı ticarət əməliyyatlarını birbaşa hərbi xərclərlə əlaqələndirmək nə maliyyə məntiqinə, nə də real dövlət idarəçiliyi praktikasına uyğundur. Sukiasyan ailəsinə məxsus şirkətin Azərbaycan benzini idxal etməsi və bu yanacağın yanacaqdoldurma məntəqələrində satılması ilə bağlı irəli sürülən ittihamlara da münasibət bildirib. O qeyd edib ki, Ermənistan son 30 il ərzində daim müxtəlif ölkələrdən neft məhsulları idxal edib və bu sahədə alternativlərin olması normal iqtisadi prosesdir.

Ermənistanın hakim siyasi dairələrindən səslənən bu mövqe göstərir ki, Azərbaycan yanacağının idxalı təkcə regional əməkdaşlıq kontekstində deyil, eyni zamanda, Ermənistanın öz daxili iqtisadi maraqları baxımından zəruri addımdır.

**Mövzu ilə bağlı politoloq Cəsarət Hüseynzadə** XQ-yə bildirdi ki, Azərbaycanın Ermənistanın yanacaq bazarındakı payının artması bazar mexanizmlərinin məntiqi nəticəsidir: "Ermənistan öz iqtisadi maraqlarından çıxış edərək daha ucuz, əlçatan və dayanıqlı mənbəyə üstünlük verir. Bu onu göstərir ki, müharibədən sonrakı mərhələdə iqtisadi rasionalizm getdikcə ön plana çıxır. Tarixi təcrübə sübut edir ki, iqtisadi qarşılıqlı asılılıq münaqişə risklərini azaldan əsas amillərdən biridir. Bir-birinin bazarına daxil olan, ticarət əlaqələri formalaşdıran ölkələr üçün gərginliyin dərinləşdirilməsi həm iqtisadi, həm də sosial baxımdan ciddi itkilər deməkdir. Azərbaycanın bu istiqamətdə atdığı addımlar regionda sabitlik, qarşılıqlı fayda və əməkdaşlıq üçün real zəmin yaradır. Azərbaycanın hərbi potensialının gücləndirilməsi ilə bağlı səsləndirilən iddialar da reallıqdan uzaqdır. Bu iddialar daha çox emosional və siyasi manipulyasiya xarakteri daşıyır, real iqtisadi məntiqə söykənmir. Ermənistan bazarına ixrac edilən yanacağın həcmi böyük deyil və hər hansı fundamental dəyişiklik yaratmır".

Politoloq onu da qeyd etdi ki, müasir dövlətlərin hərbi xərcləri və silahlanma proqramları birdəfəlik və ya konkret bir ticarət əməliyyatından əldə olunan gəlirlərlə müəyyən olunmur: "Müdafiə büdcələri uzunmüddətli planlaşdırma, strateji təhlükəsizlik qiymətləndirmələri və dövlətin ümumi maliyyə imkanları əsasında formalaşır. Azərbaycanın müdafiə siyasəti də şəffaf büdcə mexanizmləri çərçivəsində həyata keçirilir və bu sahəyə ayrılan vəsaitlər illər öncədən təsdiqlənmiş proqramlara əsaslanır. Bu mənada, bir neçə min ton benzin satışından əldə olunan gəlirin silahlanmaya yönəldilməsi ilə bağlı iddialar həm iqtisadi, həm də siyasi baxımdan əsassızdır".



Beləliklə, Azərbaycanın Ermənistanın yanacaq bazarında payının formalaşması həm də siyasi reallığın təzahürüdür. Bu proses regionda sülhün möhkəmlənməsi üçün real zəmin yaradır, populist və emosional iddiaların əksinə olaraq, praqmatik əməkdaşlığın alternativsiz olduğunu ortaya qoyur.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

---

# Bakının xəbərdarlığı təsdiqini tapdı

## *ABŞ Federal Prokurorluğu "xarici təsir" agentlərinə qarşı müharibə elan edir*

**Amerika Birləşmiş Ştatlarının daxili təhlükəsizlik doktrinasına yenidən baxılmasını tələb edən və Cənubi Qafqazdakı geosiyasi proseslərə birbaşa təsir imkanına malik olan sensasion hadisələr zənciri Vaşinqtonla Kaliforniya arasında gərginliyi son həddə çatdırıb.**

Donald Tramp komandasının dövlət idarəçiliyində kök salmış korrupsiya elementlərinə, kölgə iqtisadiyyatına və vergi ödəyicilərinin vəsaitlərini talayan etnik cinayətkar qruplaşmalara qarşı başlatdığı barışmaz mübarizə beynəlxalq qalmaqala çevrilməkdədir. Medicaid Xidmətləri Mərkəzlərinin (CMS) rəhbərliyi və Federal Prokurorluğun açıqladığı faktlar Azərbaycanın illərdir vurğuladığı reallığı bir daha təsdiqlədi: erməni diasporu və lobbisinin fəaliyyəti kriminal şəbəkələr, çirkli pulların yuyulması, sistemli fırıldaqçılıq və mütəşəkkil cinayətkarlıqla sıx bağlıdır. İndi həqiqət artıq ABŞ-ın rəsmi qurumlarının dili ilə səsləndirilir.

Kaliforniya ştatında sosial müavinətlərlə bağlı başlanan genişmiqyaslı araşdırma, sadəcə, yerli kriminal hadisə kimi qiymətləndirilə bilməz. Məsələnin mahiyyəti ondan ibarətdir ki, ABŞ federal səhiyyə sistemindən milyardlarla dolların mənimsənilməsi yüksək səviyyədə təşkilatlanmış, iyerarxik struktura malik və xaricdən idarə olunan şəbəkələr tərəfindən həyata keçirilib. Federal təhqiqatçıların üzə çıxardığı faktlar dəhşət doğurur: dövlət xəzinəsindən oğurlanan vəsaitlər nəinki cinayətkar qrupların lüks həyatını təmin edir, həm də ABŞ-ın xarici siyasətinə qanunsuz müdaxilə etmək, xüsusilə Azərbaycana qarşı qərəzli kampaniyaları maliyyələşdirmək üçün istifadə olunur.

Tədqiqatın ilkin mərhələsi 2020-ci ildə nüfuzlu "Los Angeles Times" qəzetinin apardığı jurnalist araşdırmasına istinad edir. Həmin dövrdə Kaliforniya ştatının baş prokuroru Rob Bonta tərəfindən də təsdiqlənən sənədlərə əsasən, ştatda "xəyalət" hospis xidmətləri, yəni evdə qulluq və ölümqabağı tibbi xidmət adı altında fəaliyyət göstərən nəhəng saxtakarlıq imperiyası yaradılıb. Sözügedən şəbəkə vasitəsilə dövlət büdcəsindən milyardlarla dollar silinib, lakin real xidmətlər heç vaxt göstərilməyib. İndi isə Tramp administrasiyası həmin sənədləri yenidən masanın üzərinə qoyaraq cinayətin miqyasının təsəvvür ediləndən qat-qat böyük olduğunu və bunun arxasında konkret etnik mafiya strukturlarının dayandığını bəyan edir.




Medicaid Xidmətləri mərkəzlərinin administratoru, dünyaca məşhur həkim və ictimai xadim Mehmet Özün jurnalistlərə verdiyi açıqlama vəziyyətin absurdluğunu əyani şəkildə nümayiş etdirib. Doktor M.Öz ritorik sualla müraciət edərək bildirib: "Ölkə üzrə evdə tibbi xidmətlə bağlı hesabların 18 faizi Los-Anceles dairəsinin payına düşür. Belə mənzərə necə mümkün ola bilər?". CMS rəhbərinin təqdim etdiyi rəsmi statistikaya görə, təkcə Los-Anceles dairəsində hospis və evdə tibbi xidmətlərə təxminən 3,5 milyard dollar vəsait xərclənir. Əhalinin demoqrafik göstəriciləri, xəstəliklərin yayılma dinamikası və tibbi zərurətlə daban-dabana zidd olan həmin rəqəmlər sistemin daxildən yeyildiyini sübut edir. Mütəxəssislər qeyd edirlər ki, ABŞ-ın digər ştatları ilə müqayisədə Los-Ancelesdəki anomal göstərici məhz mütəşəkkil etnik qruplaşmaların, konkret olaraq erməni kriminal şəbəkələrinin həyata keçirdiyi saxta sənədləşmə əməliyyatlarının nəticəsidir.

Mövcud administrasiyanın korrupsiyaya qarşı mübarizəsi sözlərlə məhdudlaşmır. Vaşinqton Kaliforniya, Nyu-York, Kolorado, İllinoys və Minnesotada uşaq baxımı proqramları üçün ayrılmış 10 milyard dollarlıq federal maliyyəni "genişmiqyaslı fırıldaqçılıq və vəsaitlərin məqsəddən kənar istifadəsi" səbəbindən dondurub. Bu addım mərkəzi hökumətin yerli idarəetməyə etimadının itdiyini göstərir.

* * *

Prosesin Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən məqamı cinayətkar şəbəkənin etnik mənsubiyyətinin açıq, birmənalı və rəsmi şəkildə bəyan edilməsi olub. Ağ Ev adətən "siyasi tolerantlıq" və "multikulturalizm" adı altında cinayətkar qrupların etnik mənşəyini gizlətməyə çalışsa da, Tramp administrasiyasının nümayəndələri bu dəfə tabunu pozaraq hədəfi dəqiq göstəriblər. Doktor Mehmet Öz tibbi xidmət adı altında amerikalıların vergilərini mənimsəyən qüvvələri konkret adlarla sadalayıb: "Qeyd olunan qanunsuz fəaliyyətlərin böyük hissəsində ruslar, erməni dəstələri, mafiya strukturları iştirak edir". Sözügedən bəyanat geosiyasi əhəmiyyətə malik ittiham aktıdır. Bu, onilliklər ərzində Qlendeyl, Burbank, Şimali Hollivud və "Kiçik Ermənistan" kimi tanınan bölgələrdə kök salmış, ABŞ maliyyə sisteminə parazit kimi yapışmış erməni mütəşəkkil cinayətkarlığının dövlət səviyyəsində ifşasıdır. M.Öz xüsusi olaraq vurğulayıb ki, "Prezident amerikalıların xarici təsirə məruz qalmasına yol verməyəcək". Buradakı "xarici təsir" ifadəsi analitik təhlil tələb edir. İfadə sözügedən qruplaşmaların xaricdən idarə olunan, əldə etdikləri vəsaitləri xarici maraqlar, yəni Ermənistan dövlətinin və diasporunun maraqları üçün istifadə edən struktur olduğuna işarədir.

Təhlilçilər və beynəlxalq münasibətlər üzrə ekspertlər üçün sirr deyil ki, ABŞ-da fəaliyyət göstərən erməni lobbisi (Amerika Erməni Milli Komitəsi - ANCA, Amerika Erməni Assambleyası və s.) dünyanın ən bahalı, ən aqressiv və ən genişmiqyaslı lobbiçilik kampaniyalarından birini həyata keçirir. Konqresmenlərin satın alınması, senatorların seçki fondlarına ianələrin köçürülməsi, anti-Azərbaycan qətnamələrinin layihələndirilməsi, media kampaniyalarının maliyyələşdirilməsi yüz milyonlarla dollar vəsait tələb edir. Uzun illər sual olunurdu: iqtisadiyyatı çökən, təbii sərvətləri olmayan Ermənistan və ya rəsmi fəaliyyəti kiçik biznesdən ibarət olan diaspor nümayəndələri qeyd olunan nəhəng vəsaiti haradan, hansı mənbədən əldə edirlər? Mehmet Özun və federal prokurorluğun ifşa etdiyi 3,5 milyard dollarlıq fırıldaqçılıq sxemi sualın cavabını dəqiqliyi ilə verir. Məlum olur ki, ABŞ Konqresində Azərbaycana qarşı sanksiyaları tələb edən, "insan haqları"ndan dəm vuran erməni lobbisinin əsas maliyyə mənbəyi, əslində, elə Amerika xalqının cibindən, xəstə, əlil və yaşlı insanlar üçün ayrılan sosial fondlardan oğurlanan pullardır.

Sözügedən "hospis mafiyası" sxeminin işləmə mexanizmi son dərəcə mürəkkəb və eyni zamanda, primitiv saxtakarlığa əsaslanır. Saxta tibbi şirkətlər yaradılır, heç bir xəstəliyi olmayan və ya hospisə ehtiyacı olmayan şəxslər üçün "ölümcül" diaqnozlar sənədləşdirilir, dövlətdən külli miqdarda sığorta vəsaiti alınır və həmin pullar müxtəlif yollarla nağdlaşdırılaraq yuyulur. Yuyulan "qara pullar" isə daha sonra "ianə", "xeyriyyəçilik" və ya "siyasi dəstək" adı altında konqresmenlərin hesablarına, lobbi təşkilatlarının büdcəsinə və Azərbaycana qarşı informasiya müharibəsinə yönəldilir. Kaliforniya ştatının erməni lobbisinin mərkəzi olması və fırıldaqçılığın məhz həmin regionda tüğyan etməsi təsadüf sayıla bilməz.

Tramp administrasiyasının sərt addımı dolayısı ilə Cənubi Qafqazda ədalətin bərqərar olmasına, beynəlxalq hüququn aliliyinə və Azərbaycanın maraqlarına xidmət edir. ABŞ hüquq-mühafizə orqanlarının erməni cinayətkar şəbəkələrinin maliyyə damarlarını kəsməsi lobbinin maliyyə imkanlarını kəskin şəkildə məhdudlaşdıracaq. "Oğurluq pullar" kəsildikdə Konqresdəki bəzi "dostların" erməni məsələsinə marağının azalacağı, pulla alınan dəstəyin yox olacağı şübhəsizdir. Azərbaycan uzun illər beynəlxalq tərəfdaşlarına, xarici dövlətlərin xüsusi xidmət orqanlarına erməni diasporunun radikal qanadının terrorçuluq, mütəşəkkil cinayətkarlıq və qanunsuz silah ticarəti ilə əlaqəsi barədə dəfələrlə xəbərdarlıq edirdi. Los-Ancelesdəki son araşdırmalar Prezident İlham Əliyevin prinsipial mövqeyinin əsaslı, uzaqgörən və reallığı əks etdirdiyini təsdiqlədi.

Donald Tramp administrasiyasının təşəbbüsü ilə başlayan antikorrupsiya tufanı bütün erməni lobbi şəbəkəsini də silkələyir. Ortaya çıxan 3,5 milyard dollarlıq fakt aysberqin, sadəcə, görünən tərəfidir. Dərinlikdə yatan cinayətlər – insan qaçaqmalçılığı, narkotik ticarəti və digər qanunsuz əməllər də tezliklə üzə çıxacaq. Azərbaycan cəmiyyəti prosesləri diqqətlə izləyir və ABŞ hökumətinin cinayətkarlıqla mübarizə əzmini təqdir edir. Dünya mediasının manşetlərini bəzəyən bu qalmaqal bir daha sübut edir ki, yalan ayaq tutar, amma yeriməz. Erməni diasporunun "məzlum" imici darmadağın oldu, geriyə qalan isə yalnız rəqəmlər, istintaq protokolları və dəmir barmaqlıqlar arxasındakı həyat olacaq. Tarixin ironiyası ondan ibarətdir ki, onları məhv edən Azərbaycan tankı yox, Amerikanın ədalət mühakiməsi və prokurorun imzası oldu. Prosesin gedişatı labüddür və geri dönüşü yoxdur. Amerika təmizlənir və təmizlənmə prosesində Azərbaycanın düşmənləri ən böyük zərbəni alırlar. Bu, strateji qələbənin yeni formasıdır.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

**Əslində, Rusiya İstintaq Komitəsinin rəhbəri Aleksandr Bastrıkinin Azərbaycanın Baş Prokurorluğuna AZAL-ın təyyarəsi ilə bağlı ünvanlandığı məktubundan sonra yaşananların heç biri təəccüb doğurmamalıdır. Təyyarəni vurmaq əmrini verən general-mayor Aleksandr Vasilyeviç Tolopiloya qarşı bütün ittihamların ləğvi də həmçinin.**

# Təyyarə olayı: Rusiya gözləntilərimizi "basdırır"?

## *General-mayor Aleksey Tolopiloya qarşı bütün ittihamlar ləğv edilirsə...*

Qeyd edək ki, A.Tolopilo Rusiya Cənub Hərbi Dairəsinin Hərbi Hava Qüvvələrinin (HHQ) və Hava Hücumundan Müdafiə (HHM) 4-cü qvardiya ordusunun 51-ci Hava Hücumundan Müdafiə diviziyasının komandiri kimi 2024-cü il dekabrın 25-də AZAL-a məxsus EMBRAER 190 təyyarəsinin vurulması əmrini verib. Bunu 51-ci HHM Diviziyasının idarəetmə məntəqəsinin əməliyyat növbətçisi, polkovnik-leytenant Nikolay Nikolayeviç Orlyanskinin dedikləri də təsdiqləyib. N.Orlyanski Tolopilonun əmrini alıb və kapitan Paladiçuka AZAL-ın mülki təyyarəsinə atəş açmaq barədə komanda verib. Hesabatlara görə, raket qurğusunun heyəti Tolopilonun operativ tabeliyində olub və bu, 16 dekabr 2024-cü il tarixli rəsmi raportla təsdiqlənib.



Yayılan məlumatlarda bildirilib ki, bilavasitə iştirakına baxmayaraq, general-mayor A.Tolopilo cinayət məsuliyyətindən yayınıb. General günahı dispetçerlərin üzərinə ataraq, raketlərin "öz-özünü məhv etdiyi" kimi sərsəm iddia səsləndirib, onların təyyarəyə zərər verə bilməyəcəyini deyərək, qəsdən yalan ifadələr verib. Əlbəttə, bu versiya daxili istintaq tərəfindən təkzib edilib. Amma...

O da məlumdur ki, ötən ilin iyulunda A.Tolopilonun vəzifəsi yüksəldilmişdi və bu, onu deməyə əsas verirdi ki, generalın AZAL-a məxsus təyyarənin vurulmasında müqəssir bilinməsi mümkünsüz olacaq. Hazırda ehtimalların özünü doğrultduğunun şahidiyik. Bir məqamı da qeyd edək ki, Tolopilo və ondan əmri qəbul edib döyüş maşınının ekipaj üzvlərinə ötürən polkovnik-leytenant N.Orlyanski ilə yanaşı, bilavasitə buraxılışı həyata keçirən və adını çəkdiyimiz kapitan D.Paladiçuk, həmçinin 51-ci Hava Hücumundan Müdafiə Diviziyasının döyüş idarəetmə qrupunun böyük şturmanı, kapitan Dmitri Pudovkin, Cənub Hərbi Dairəsinin qərargahının operativ növbətçisi, polkovnik-leytenant Vladimir Yanovski, 4-cü Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qüvvələrinin Qvardiya Ordusunun komanda məntəqəsinin operativ növbətçisi, polkovnik Gennadi Yeremenko da faciədə fəal rol oynamalarına baxmayaraq, məsuliyyətə cəlb edilməyiblər.

Bütün bunların fonunda Rusiya İstintaq Komitəsinin rəhbəri Aleksandr Bastrıkinin Azərbaycanın Baş Prokurorluğuna ünvanladığı məktub daha gülməlidir. Məlum olduğu kimi, bir müddət əvvəl "BT News" "Telegram" kanalında məktubun məzmunu olduğu iddia edilən mətn yayılmışdı. Mətndə bildirilirdi ki, AZAL-a məxsus təyyarə duman səbəbindən Rusiya ərazisində eniş edə bilməyib, Qazaxıstana gedib və orada qəzaya uğrayıb. Şübhəsiz, bu yanaşma təyyarə olayı ilə əlaqədar bütün bağlılıqların kökündən, özü də tamamilə inkarı idi. Halbuki gözləntilərimiz belə deyildi. Xüsusən də Rusiya Prezidenti Vladimir Putinin fikirlərindən sonra.

Qeyd edək ki, Prezident Putin ötən ilin oktyabrında Tacikistanın paytaxtı Düşənbədə Prezident İlham Əliyevlə görüşdən sonra nikbin açıqlamalar vermiş, hətta təfərrüatlara vararaq demişdi ki, Azərbaycanın təyyarəsi yerdən açılan atəş nəticəsində vurulub, amma hədəf hava gəmisi deyil, Ukraynaya məxsus PUA-lar olub. Rusiya lideri hətta onu da demişdi ki, hədəf birbaşa təyyarə olsaydı, yəni hava gəmimiz raketin göydəki qalıqları, yaxud qəlpələri ilə deyil, özü ilə üzləşsəydi, əlavə məsafə qət edə bilməz, dərhal məhv olardı. Ən başlıcası isə Putin hadisə ilə bağlı əvvəlki üzrxahlığını yada salmış və əmin etmişdi: "Rusiya bu cür faciəli hallarda kompensasiya təmin etmək üçün lazım olan hər şeyi edəcək və bütün vəzifəli şəxslərin hərəkətləri lazımi şəkildə qiymətləndiriləcək".

Xatırladaq ki, V.Putin 2024-cü il dekabrın 28-də Prezident İlham Əliyevə zəng edərək "Rusiya hava məkanında baş vermiş faciəli insidentə görə" üzr istəmişdi. Bastrıkinin haqqında söz açdığımız məktubunun mətni isə Rusiya liderinin üzrxahlığı ilə də tərs-mütənasibdir. Hər halda, Putin rəhbərlik etdiyi ölkənin səmasından duman olduğuna görə üzr istəməzdi. Hərçənd, hava məkanındakı insidentə görə üzrxahlıq hələ məsuliyyətin etirafı deyildi. Ona görə Kreml rəhbərinin fikri heç o zaman da Azərbaycan tərəfindən məqbul sayılmamışdı. Prezident İlham Əliyev Rusiyadan təyyarə qəzasına görə məsuliyyəti etiraf etməsini istəmiş, ölkə hakimiyyətinin etirafdan yayındığı üzərində dayanmış, qəzanın baş verməsində məsul olan şəxslərin cəzalandırılmasının vacibliyini vurğulamışdı.

Bəli, V.Putinin Tacikistandakı açıqlaması ədalətin bərpa olunacağına ümidlər yaratsa da, A.Bastrıkinin ötən il dekabrın sonundakı məktubu gözləntilərin üzərindən xətt çəkmişdi. Amma bununla belə, Azərbaycan tərəfi nikbinliyini qorumuşdu. Məsələn, ölkəmizin xarici işlər naziri Ceyhun Bayramov demişdi: "Məktubda yumşaq desək, ciddi təəccüb doğuran bəzi məqamlar diqqət çəkirdi. Məqamlardan biri ondan ibarətdir ki, cənab Bastrıkin bu cinayət işinə xitam verilməsi barədə məlumatı bölüşüb. Bu, ciddi suallar yaradır və təəccüb doğurur. Həmin məktuba Azərbaycanın müvafiq qurumu tərəfindən təfsilatlı mövqe ortaya qoyulub və Rusiya tərəfinə çatdırılıb. Güman edirəm ki, bu məsələyə aydınlıq gətiriləcək. Ən azından bizim gözləntimiz iki ölkə lideri arasında aparılan danışıqlara uyğun olaraq bu məsələ ilə bağlı araşdırmanın başa çatdırılması, hüquqi qiymətin verilməsi, kompensasiyaların ödənməsidir".

Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev də ötən il dekabrın 30-da Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzinlə görüşündə Düşənbədə Azərbaycan və Rusiya liderləri arasında əldə edilmiş razılaşmaların mahiyyətini diqqətə çatdırmışdı. Mövcud kontekstdə heç bir prosedur qərarın Rusiya Prezidentinin bəyanatında yer alan təlimatların həyata keçirilməsi zərurətini əvəz və ya ləğv edə bilməyəcəyi barədə bəyanat müsbət qarşılanmışdı.

Sonda qeyd edək ki, general-mayor A.Tolopiloya qarşı bütün ittihamlar ləğv edilirsə, deməli, ölkəmizin gözləntiləri də "basdırılır". Nəzərə alaq ki, təyyarə olayı Azərbaycan–Rusiya münasibətlərində gərginlik yaratmışdı və ölkələr arasındakı soyuqluq hələ də davam edir. Söhbət müstəqillik illərindəki ən yüksək fazalı gərginlikdən və soyuqluqdan gedir. Görünür, Rusiyada kimlərsə mənfi ab-havanın saxlanılmasında maraqlıdır və təəssüf ki, onların mövqeyi rəsmi Moskvanın davranışını formalaşdırır. Başqa cür düşünməyə əsas qalmır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Qulu Məhərrəmliyə "Şirməmməd Hüseynov mükafatı" təqdim edildi

**Dünən Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində tanınmış alim və pedaqoq, multimedia və elektron kommunikasiyası kafedrasının müdiri, professor Qulu Məhərrəmliyə "Şirməmməd Hüseynov mükafatı" təqdim olundu.**



Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü Elşad Eyvazlı bildirdi ki, bu nüfuzli media mükafatı 5 il öncə təsis olunub. "Şirməmməd Hüseynov mükafatı"nın əsasnaməsində nəzərdə tutulan prosedur qaydalarına uyğun olaraq, komissiya üzvləri arasında aparılan geniş müzakirələrdən sonra builki qalib professor Qulu Məhərrəmli olub. Qulu müəllim jurnalist, yazıçı, alim kimi hər zaman örnək olub, daim milliliyi təbliğ edib.

BDU jurnalistika fakültəsinin dekanı Vüqar Zifəroğlu, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, "Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov, Real TV-nin rəhbəri Mirşahin Ağayev, BDU-nun milli mətbuat tarixi kafedrasının müdiri Cahangir Məmmədli, Əməkdar rəssam, Azərbaycan Prezidentinin fərdi təqaüdçüsü Rais Rəsulzadə, müharibə veteranı, rəssam Tərlan Eyvazov, Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı, Əməkdar jurnalist Etibar Babayev və "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı Qulu Məhərəmlini Şirməmməd Hüseynovun istedadlı yetirməsi, dostu və davamçısı kimi səciyyələndirdilər və belə nüfuzlu mükafata tam layiq olduğunu söylədilər.

Sonra "Şirməmməd Hüseynov mükafatı" Qulu Məhərrəmliyə təqdim olundu. Media professoru belə şərəfli mükafatı almağın onun üçün sevindirici olduğunu bildirdi və Şirməmməd Hüseynovun dövlətə və xalqa təmənnasız xidmət nümunəsi olduğunu vurğuladı. O, unudulmaz müəlliminin "İşıq düşməyən yerdə zəlzələ və faciələr olur" fikrini xatırladaraq cəmiyyətdə hər zaman işığın olmasını arzuladı.

Şirməmməd Hüseynovun həyat yoldaşı Ülkər Hüseynova ustad qələm sahibinin xatirəsinin əziz tutulmasına görə razılığını bildirdi, onun davamçılarına xalqımıza və dövlətçiliyimizə xidmət işində uğurlar arzuladı.

Xatırladaq ki, "Şirməmməd Hüseynov mükafatı"nın qalibi 2020-ci ildə diplomat, araşdırmaçı, diaspor fəalı Ramiz Abutalıbov, 2021-ci ildə Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, 2022-ci ildə diplomat-ədəbiyyatşünas Vilayət Quliyev, 2023-cü ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin nəvəsi, Əməkdar rəssam, Azərbaycan Prezidentinin fərdi təqaüdçüsü Rəis Rəsulzadə, 2024-cü ildə isə Milli Məclisin sədr müavini Rafael Hüseynov olub.

***Tahir AYDINOĞLU***
***XQ***

# Bitməyən "Mercosur sınağı"

## *Avropada bazar dəyərləri kağız üzərindəmi qalır?*

**Yəqin məşhur ingilis yazıçısı Corc Oruellin "Heyvanıstan" əsəri ilə bir çoxları tanışdır. Əsər zahirən sadə alleqoriya üzərində qurulsa da, əslində, siyasi sistemlərin daxildən necə aşındığını göstərir. Hamı üçün azadlıq və bərabərlik vədi ilə başlayan quruluş zamanla qaydaları öz maraqlarına uyğun yozan və bu yozumu "təhlükəsizlik", "zərurət" və "inkişaf" adı altında legitimləşdirən dar bir çevrənin nəzarətinə keçir. Maraqlısı odur ki, qaydalar olduğu kimi qalır, sadəcə, məzmun dəyişdirilir. Bir vaxtlar hamını qorumaq üçün yazılan prinsiplər yavaş-yavaş yalnız bir qrupu qoruyan mexanizmə çevrilir. Mercosur razılaşması ətrafında Avropada yaşananlar da Oruellin əsərindəki paradoksu xatırladır. "Azad ticarət", "ümumi bazar", "qarşılıqlı fayda" kimi anlayışlar fermerlər üçün sabitlik və qorunma vəd etməli olduğu halda, qeyri-bərabər rəqabət yaradır.**




Bu gün Avropada, xüsusilə Fransada kənd təsərrüfatı böhranı açıq siyasi qarşıdurma səviyyəsinə yüksəlib. Bordo ətrafında yanacaq anbarlarının tutulması, Havr limanına gedən yolların bağlanması, cənub-qərb bölgələrində magistralların iflic vəziyyətinə düşməsi bunu təsdiqləyir. "France 24" saytının yaydığı məlumata əsasən, Paris küçələrində baş verənlər qitə miqyasında siyasi məna qazanıb. Mercosur razılaşması kağız üzərində "azad ticarət" adlansa da, Fransa üçün milli istehsalın, kənd təsərrüfatı suverenliyinin və Avropa standartlarının açıq şəkildə sınağa çəkilməsi kimi qiymətləndirilir. Görünür, Avropa öz daxili balansını qlobal bazar naminə qurban verməyə hazırdır. İlk növbədə, vurğulayaq ki, kənd təsərrüfatı Fransanın regional sabitliyinin və siyasi ənənələrinin ayrılmaz hissəsidir. Məhz bu səbəbdən fermerlərin aksiyaları birbaşa siyasi siqnal kimi dəyərləndirilir. Mercosur sazişi isə bu həssas balansı pozan xarici amil kimi qəbul olunur. Fermerlər hesab edirlər ki, onilliklər ərzində qurulan ciddi ekoloji və sanitariya standartları eyni bazarda fərqli qaydalarla istehsal olunan məhsullar qarşısında müdafiəsiz qalacaq.

Yaranmış narahatlığı yalnız Fransaya aid etmək də düzgün olmaz. Avropa miqyasında baş verən etirazlara nəzər yetirdikdə, görürük ki, Mercosur razılaşması kənd təsərrüfatı sektorunda, faktiki olaraq ümumi narazılıqla qarşılanır. İrlandiyada traktorların Athlone küçələrinə axışması, "Stop EU–Mercosur" şüarları, Avropa İttifaqı bayrağı üzərində "Satışı dayandırın!" ifadəsinin yer alması fermerlərin etirazını həm iqtisadi, həm də siyasi səviyyəyə daşıyır. İrlandiyalı fermerlər açıq şəkildə bildirirlər ki, Avropa İttifaqında istehsal olunan mal əti ciddi izlənmə və sertifikatlaşdırma mexanizmlərinə tabedir, halbuki Cənubi Amerika ölkələrində bu proseslər eyni səviyyədə deyil. Fərq isə qiymət üzərindən rəqabəti qeyri-bərabər edir.

Yeri gəlmişkən, Mercosur sazişi 25 ildən artıqdır müzakirə olunur və rəsmi Brüssel bu razılaşmanı strateji iqtisadi fürsət kimi təqdim edir. Saziş Aİ-yə üzv 27 ölkə ilə Braziliya, Argentina, Paraqvay və Uruqvayı birləşdirən, dünyanın ən iri azad ticarət zonalarından birini yaratmağı hədəfləyir. Avropa sənaye sektoru üçün tariflərin azaldılması, yeni bazarlara çıxış və ixrac imkanlarının genişlənməsi biznes dairələri tərəfindən əsas üstünlük kimi vurğulanır. Lakin optimist yanaşmalar kənd təsərrüfatı sektorunda ciddi şübhələrlə qarşılanır. Avropalı fermerlər hesab edirlər ki, razılaşma, faktiki olaraq sənaye maraqları naminə kənd təsərrüfatını risk altına qoyur.

Müzakirələrin mərkəzində dayanan əsas məsələ standartlardır. Avropa İttifaqı özünü yüksək ekoloji və sosial normalara əsaslanan model kimi təqdim edir. Mercosur ölkələrində isə kənd təsərrüfatı istehsalında istifadə olunan pestisidlər, aqrotexniki standartlar, heyvandarlıq metodları və meşə siyasəti Avropa qaydaları ilə ziddiyyət təşkil edir. Fermerlər hesab edirlər ki, əgər eyni bazarda fərqli ekoloji və sanitariya tələblərinə icazə verilirsə, bu zaman Avropa daxilində tətbiq olunan sərt qaydaların mənası itir. Məhz bu səbəbdən İrlandiya, Fransa, Polşa, Macarıstan və Avstriya razılaşmaya qarşı açıq mövqe sərgiləyirlər. Bir məqamı da vurğulayaq ki, həmin ölkələrdə kənd təsərrüfatı siyasi çəkiyə malikdir. Xüsusilə Fransada fermer etirazları tarixən hökumətlərin qərarlarına birbaşa təsir göstərib. Ona görə də Paris üçün Mercosur sazişi Brüssel səviyyəsində texniki qərar olmaqdan çıxaraq daxili siyasi sabitlik məsələsinə çevrilir. Razılaşmanın taleyi yaxın aylarda Avropa Parlamentində həll olunacaq. Lakin bu mərhələdə səsvermə koalisiyalarının davranışları əvvəlki dövrlərlə müqayisədə daha dəyişkən və proqnozlaşdırılması çətindir. Populist qüvvələrin güclənməsi, kənd təsərrüfatı mövzusunun seçici davranışına birbaşa təsiri və milli maraqların ön plana çıxması prosesi daha da mürəkkəbləşdirir. Fermer birliklərinin avroparlamentarilərə açıq çağırışları da göstərir ki, bu dəfə kənd təsərrüfatı lobbiləri daha koordinasiyalı və siyasi baxımdan daha hazırlıqlıdır.

Beləliklə, Mercosur razılaşması ətrafında yaranan gərginlik Avropa İttifaqının indiyədək üzləşdiyi klassik ticarət mübahisələrindən fərqlənir. Çünki məsələ Avropanın özünü necə tanıdığından, hansı dəyərləri qorumağa hazır olduğundan xəbər verəcək. Fransa küçələrində başlayan etirazlar, əslində, Brüsselə ünvanlanan bir sualdır: Avropa öz daxili sosial müqaviləsini qlobal rəqabət naminə nə qədər zəiflətməyə razıdır? Uzun illərdir Avropa İttifaqı öz iqtisadi modelini "keyfiyyət, təhlükəsizlik və məsuliyyət" anlayışları üzərində qurduğunu iddia edir. Sözügedən model məhsulun necə və hansı şərtlərlə istehsal olunması ilə ölçülür. Mercosur razılaşması isə bu yanaşmanı, faktiki olaraq, ikiqat standart dilemma qarşısında qoyur. Əgər Avropa fermerindən yüksək ekoloji, sosial və sanitariya öhdəlikləri tələb olunursa və eyni bazara bu tələblərə cavab verməyən məhsullar buraxılırsa, o zaman Avropa modelinin daxildən çat verdiyi bir daha öz təsdiqini tapır.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Züriyyə QARAYEVA, politoloq**

Fransalı fermerlərin MERCOSUR razılaşmasına qarşı etirazları bir neçə strateji narazılığın nəticəsidir. Onlar hesab edirlər ki, Cənubi Amerika ölkələrindən ucuz kənd təsərrüfatı məhsullarının Avropa bazarına daxil olması həm qiymət balansını pozacaq, həm də yerli istehsalçıları ciddi rəqabət təzyiqi altında qoyacaq. Fransada kənd təsərrüfatı həm iqtisadi, həm də sosial baxımdan ən həssas sektor olduğuna görə fermerlər hər yeni ticarət sazişini öz mövcudluqlarına təhdid kimi görürlər. Bu səbəbdən ölkənin iki əsas yolunda baryerlər qurmaq planı həm hökumətə təzyiq, həm də ictimaiyyətə mesaj xarakteri daşıyır: "Əgər bizim səsimizi eşitmirsinizsə, ölkənin nəbzini tutan yolları bağlayarıq".

Etirazlara İtaliya, Polşa və İrlandiya fermerlərinin də dəstək verməsi məsələni təkcə Fransanın daxili problemi olmaqdan çıxarır və Avropa İttifaqında ümumi narazılığın artdığını göstərir. Həmin ölkələrin fermerləri də oxşar səbəblərə – ucuz idxal məhsullarının rəqabət üstünlüyü, ekoloji və sanitar standartların uyğunsuzluğu və Aİ-nin aqrar siyasətindəki qeyri-müəyyənliklərə görə narahatdırlar. Bu, həm də onu göstərir ki, MERCOSUR razılaşması ətrafında mübahisələr həm də strateji məsələdir. Eyni zamanda, Aİ daxilində kənd təsərrüfatının gələcəyi, daxili bazarın qorunması və qlobal rəqabət şərtlərinə uyğunlaşma kimi fundamental suallar ortaya çıxır. Bu mütəşəkkil etirazlar razılaşmanın gələcək taleyinə ciddi təsir göstərə bilər.

# Azərbaycanın dövlət – din siyasətində yeni mərhələ

**Azərbaycan Prezidentinin 7 yanvar tarixində imzaladığı "Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında" Sərəncam dövlət–din münasibətlərinin institusional inkişafında növbəti strateji mərhələ kimi qiymətləndirilə bilər. Sənəd mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi, dinlərarası həmrəyliyin gücləndirilməsi, dini maarifləndirmənin müasir tələblərə uyğun qurulması və mənəvi-əxlaqi dəyərlərin sistemli şəkildə təşviqi kimi prioritetləri dövlət siyasətinin mərkəzinə gətirir.**



Belə bir yanaşma sosial-mədəni siyasətin elementi, milli təhlükəsizlik, ideoloji sabitlik və ictimai inteqrasiyanın mühüm mexanizmidir. Müasir geosiyasi qeyri-sabitlik, radikal ideoloji axınların transsərhəd xarakter alması və informasiya manipulyasiyaları fonunda dövlətin dini sahəni strateji idarəetmə predmetinə çevirməsi rasional siyasi qərar kimi çıxış edir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən dövlət dünyəvi xarakter daşıyır və din dövlətdən ayrıdır. Klassik hüquqi interpretasiyada bu prinsip dövlətin dini proseslərə müdaxilə etməməsi, bütün konfessiyalara bərabər münasibət göstərməsi və dini azadlıqların təmin olunması kimi başa düşülür. Lakin müasir politoloji yanaşmalarda sekulyarizm artıq funksional idarəetmə mexanizmi kimi təhlil edilir. Xüsusilə çoxkonfessiyalı və geosiyasi risklərə açıq olan cəmiyyətlərdə dövlətin dini sferaya passiv münasibəti institusional boşluqlar yarada və qeyri-dövlət aktorlarının təsir imkanlarını genişləndirə bilər.

Məhz bu baxımdan Azərbaycan modeli sekulyarizmin klassik liberal interpretasiyasından fərqlənərək, "aktiv tənzimləyici sekulyarizm" anlayışına yaxınlaşır. Dövlət dini institutların hüquqi legitimliyini, maliyyə dayanıqlılığını və ictimai məsuliyyətini təmin edən əsas aktor rolunu oynayır. Azərbaycanda bu yanaşma dinin ictimai həyatdan sıxışdırılması deyil, onun institusional çərçivədə nəzarətli inteqrasiyası məqsədini daşıyır. Deməli, dövlət dini sahədə ideoloji neytrallığı qoruyaraq, eyni zamanda, sosial stabilliyi təmin edən mexanizmlər formalaşdırır.

Prezidentin 7 yanvar tarixli Sərəncamında dini qurumlara maliyyə dəstəyinin institusionallaşdırılması məhz bu funksional reinterpretasiyanın praktik təzahürüdür. Burada dövlət dini sahəyə sabitlik yaradan tərəfdaş kimi daxil olur. Maliyyə mexanizmlərinin mərkəzləşdirilmiş və şəffaf şəkildə təşkili dini qurumların fəaliyyətini formal spontanlıqdan çıxararaq idarə olunan institusional müstəviyə keçirir. Bütün bunlar dini fəaliyyətin qeyri-rəsmi şəbəkələr, xarici donor strukturları və ideoloji asılılıqlar üzərində qurulmasının qarşısını alır.

Politoloji aspektdən bu transformasiya liberal sekulyarizmdən idarəedici sekulyarizmə keçid kimi xarakterizə edilə bilər. Liberal sekulyar modeldə dövlətin əsas funksiyası dini azadlıqları qorumaq və müdaxilədən çəkinməkdirsə, idarəedici sekulyar modeldə dövlət dini sferanın struktur təhlükəsizliyini, sosial məsuliyyətini və ideoloji balansını təmin edir. Xüsusilə postsovet məkanında zəif institusional ənənələr və xarici ideoloji təsirlərin aktivliyi fonunda bu model daha funksional və real təhlükəsizlik ehtiyaclarına uyğun hesab olunur.

Azərbaycan təcrübəsi göstərir ki, dini sahənin tamamilə özünütənzimləməyə buraxılması uzunmüddətli perspektivdə radikallaşma, fraqmentasiya və sosial etimadın aşınması risklərini artıra bilər. Dövlət tərəfindən maliyyələşdirilən və institusional çərçivəyə daxil olan dini qurumlar isə daha çox hesabatlılıq, hüquqi məsuliyyət və ictimai legitimlik prinsipləri əsasında fəaliyyət göstərirlər. Bunlar dini institutların siyasi manipulyasiya alətinə çevrilməsi ehtimalını əhəmiyyətli dərəcədə azaldır.

Maliyyə dəstəyi mexanizmi, eyni zamanda, xarici təsir kanallarının neytrallaşdırılması funksiyasını da daşıyır. Transmilli dini şəbəkələr, qeyri-rəsmi fondlar və ideoloji mərkəzlər vasitəsilə aparılan təsirlər bir çox regionlarda daxili sabitliyə təhlükə yaradan faktor kimi çıxış edir. Dövlətin maliyyə resursları hesabına daxili dini institutların gücləndirilməsi bu asılılıq zəncirini qırır və milli ideoloji suverenliyin qorunmasına xidmət edir.

Bundan əlavə, dövlətin maliyyə və normativ dəstəyi dini resursların destruktiv ideoloji kanallara yönəlməsinin qarşısını alan preventiv mexanizm rolunu oynayır. Radikal diskursların sosial bazası adətən institusional boşluqlar, iqtisadi zəiflik və ideoloji savadsızlıq üzərində formalaşır. Dövlət tərəfindən dəstəklənən dini strukturlar isə maarifləndirici, inteqrativ və sabitləşdirici funksiyalar yerinə yetirərək bu boşluqları doldurur.

Azərbaycanda multikonfessional harmoniyanın qorunması dövlət ideologiyasının fundamental dayaqlarından biri kimi çıxış edir. Tarixi olaraq müxtəlif dini icmaların yanaşı və qarşılıqlı hörmət şəraitində yaşadığı Azərbaycan cəmiyyəti bu modeli məqsədyönlü dövlət siyasətinin məhsulu kimi formalaşdırmışdır. Prezidentin 7 yanvar tarixli Sərəncamında dinlərarası həmrəyliyin inkişafının prioritet kimi müəyyən edilməsi bu siyasətin institusional davamlılığını təmin edən mühüm mexanizmdir.

Dinlərarası harmoniya humanitar kateqoriyadan daha çox daxili siyasi sabitliyin struktur elementi kimi qiymətləndirilməlidir. Müasir dövlətlərdə etno-dini identikliklər siyasi mobilizasiya alətinə çevrilə bilər və zəif institusional nəzarət şəraitində sosial parçalanma riskini artırır. Xüsusilə regional münaqişələrin, məzhəb qarşıdurmalarının və ideoloji radikallaşmanın intensivləşdiyi beynəlxalq mühitdə dini identikliklərin idarə olunmaması təhlükəsizlik dilemması yarada bilər.

Sərəncam çərçivəsində dini qurumlara maliyyə və institusional dəstəyin artırılması konfessiyalararası dialoqu davamlı sosial mexanizmə çevirir. Dövlətin moderator funksiyası dini icmalar arasında kommunikasiya kanallarını gücləndirir, qarşılıqlı etimadı artırır və potensial konfliktlərin erkən mərhələdə neytrallaşdırılmasına imkan yaradır.

Regional və qlobal kontekstdə etno-dini qarşıdurmaların artması fonunda Azərbaycan təcrübəsi "preventiv tolerantlıq siyasəti" kimi fərqlənir. Burada tolerantlıq passiv dövlət tərəfindən planlı şəkildə təşviq edilən, maliyyə və normativ mexanizmlərlə dəstəklənən aktiv siyasət modelidir. Dini icmaların institusional legitimliyi və sosial inteqrasiyası radikallaşma risklərini minimuma endirir, marjinallaşmış qrupların yaranmasının qarşısını alır və sosial fraqmentasiya ehtimalını zəiflədir. Konfessional müxtəlifliyin dövlətçilik ideologiyası ilə ziddiyyət təşkil etməməsi, əksinə, onun tərkib hissəsinə çevrilməsi vətəndaş loyallığını gücləndirir və siyasi legitimliyi artırır.

Beynəlxalq ölçüdə isə bu model Azərbaycanın xarici siyasət diskursunda mühüm yumşaq güc alətinə çevrilir. Multikulturalizm və dini tolerantlıq praktiki dövlət siyasəti səviyyəsində təqdim olunduqda ölkənin beynəlxalq reputasiya kapitalını artırır, diplomatik etibarlılığını gücləndirir və beynəlxalq platformalarda normativ üstünlük yaradır. Azərbaycan bu siyasət vasitəsilə sivilizasiyalararası dialoqun təşviqçisi kimi mövqelənir. Mədəni diplomatiya kontekstində dini harmoniyanın institusionallaşdırılması beynəlxalq konfranslar, humanitar təşəbbüslər və akademik platformalar üzərindən ölkənin normativ təsir imkanlarını genişləndirir.

Sərəncamın mühüm komponentlərindən biri dini maarifləndirmənin müasir tələblərə uyğun təşkili məsələsidir. Müasir informasiya mühitində ideoloji təhlükə ənənəvi fiziki təhlükəsizlik riskləri qədər təsirlidir. Dini savadsızlıq, yanlış interpretasiyalar və sosial şəbəkə manipulyasiyaları radikallaşma üçün münbit zəmin yaradır. Dövlətin maliyyə dəstəyi ilə qurulan maarifləndirmə proqramları bu risklərin preventiv idarə olunmasına xidmət edir. Burada dövlət-din əməkdaşlığı maarifçilik,



akademik ekspertiza və ictimai kommunikasiya platformalarının inkişafı ilə sistemli xarakter alır.

Qloballaşma və rəqəmsal transformasiya dövründə cəmiyyətlərdə dəyər deformasiyası və sosial atomlaşma tendensiyası müşahidə olunur. Sərəncamda mənəvi-əxlaqi dəyərlərin təbliğinin gücləndirilməsi dövlətin sosial kapitalı qoruma strategiyasının tərkib hissəsi kimi çıxış edir. Dövlət dəstəyi bu institutların sosial missiyasını gücləndirir və ictimai konsolidasiyaya töhfə verir.

Nəticədə, Azərbaycan modeli sübut edir ki, dünyəvilik və dövlət himayəsi bir-birinə zidd anlayışlar deyil, düzgün siyasi dizayn şəraitində qarşılıqlı tamamlayıcı mexanizmlərdir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# "Somalilənd"in tanınması separatizmə xidmət edir

## *Azərbaycan bu ölkənin suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədlərini dəstəkləyir*

**Ötən ilin sonlarından etibarən Somalinin şimal-qərb bölgəsində birtərəfli qaydada müstəqilliyini elan etmiş "Somalilənd" adı altında fəaliyyət göstərən separatçı qurumun tanınması məsələsi beynəlxalq gündəmin əsas mövzularından birinə çevrilib. Dekabrın 26-da İsrail hökumətinin gözlənilmədən "Somalilənd"i müstəqil dövlət kimi tanıdığını açıqlaması bu prosesə yeni impuls verdi. İsrail "Somalilənd"i rəsmi tanıyan ilk ölkə oldu. Bu, xüsusilə Afrika və İslam dünyasında ciddi etiraza səbəb oldu.**

Azərbaycan dərhal prinsipial mövqeyini ortaya qoyaraq Somalinin suverenliyinə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə birmənalı dəstəyini ifadə etdi, separatçı qurumun birtərəfli tanınmasını qınadı. Ötən il dekabrın 29-da Xarici İşlər Nazirliyi tərəfindən yayılan rəsmi bəyanatda bildirildi ki, "Somalilənd" adlı bölgənin tanınması beynəlxalq hüququn norma və prinsiplərinə, eləcə də BMT Nizamnaməsinə ziddir. Somali Federativ Hökuməti Azərbaycanın nümayiş etdirdiyi bu mövqeyi yüksək qiymətləndirdi və ölkəmizin Somalinin suverenliyinə verdiyi dəstəyə görə rəsmi minnətdarlığını ifadə etdi.

Bu mövqe iki gün əvvəl bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırıldı. Yanvarın 11-də Səudiyyə Ərəbistanının Ciddə şəhərində İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının "Somalilənd" məsələsinə dair fövqəladə iclasında iştirak edən Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev çıxışında Azərbaycanın Somali Federativ Respublikasının suverenliyinə, milli birliyinə və ərazi bütövlüyünə tam dəstəyini bəyan etdi. O, Azərbaycanın İƏT-in Somali üzrə Təmas Qrupunun fəal üzvü kimi bu məsələdə beynəlxalq ictimaiyyətin kollektiv səylərini dəstəkləməyə hazır olduğunu vurğuladı. Azərbaycan rəsmisi beynəlxalq hüququn prinsiplərinə sadiqlik nümayiş etdirərək Afrika Buynuzu regionunda sülh və sabitliyin təmin olunması üçün bütün ölkələri beynəlxalq hüquq çərçivəsində məsuliyyətlə davranmağa çağırdı. Fövqəladə iclasın sonunda üzv dövlətlər yekdilliklə Somalinin ərazi bütövlüyünə dəstək ifadə edən qətnamə qəbul etdilər.



*

Nəzərə çatdıraq ki, son illər Azərbaycan və Somali arasında rəsmi təmaslar artıb, qarşılıqlı səfərlər və anlaşmalar ikitərəfli əlaqələrin inkişafına təkan verib. 2024-cü il iyulun 26-da Somalinin xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Əhməd Moallim Fiqi Bakıya rəsmi səfər etdi. Birgə mətbuat konfransında nazir Ceyhun Bayramov Somalinin hər zaman Azərbaycanın ərazi bütövlüyü və suverenliyini dəstəklədiyini vurğuladı. Öz növbəsində, Əhməd Moallim Fiqi Azərbaycanın "Somalilənd" regionu ilə bağlı qətiyyətli mövqeyini Somali ilə həmrəylik kimi qiymətləndirdi. 2025-ci il fevralın 12-də Somali Federativ Respublikasının Prezidenti Həsən Şeyx Mahmudun ilk dəfə Azərbaycana rəsmi səfəri baş tutdu. Onun Prezident İlham Əliyevlə görüşünün nəticəsi olaraq iki ölkə arasında müxtəlif sahələrə aid mühüm sənədlər imzalandı.

Azərbaycan Somalini özünün Afrika qapısı kimi görərək bu ölkə ilə iqtisadi-ticari əlaqələri də genişləndirməyi planlaşdırır. Artan siyasi etimad fonunda Azərbaycan Somalinin infrastruktur, liman təsərrüfatı, logistika və kənd təsərrüfatı sahələrinə investisiya qoymaq imkanlarını araşdırdığını bəyan edib. 2025-ci ildə imzalanan sənədlərin sırasında müdafiə sahəsində əməkdaşlığın gücləndirilməsi də öz əksini tapıb. Bütün bunlar göstərir ki, Azərbaycan və Somali bir-birinin milli maraqlarına hörmət və dəstək əsasında çoxşaxəli tərəfdaşlıq qurmaqdadırlar. Azərbaycan Somali hökumətini beynəlxalq müstəvidə dəstəkləməklə yanaşı, praktik sahələrdə real layihələrlə bu dostluğu möhkəmləndirir.

*

Həmçinin Azərbaycan parlamentinin nümayəndə heyəti beynəlxalq tədbirlərdə (məsələn, 2017-ci ildə Parlamentlərarası İttifaqın sessiyasında) bütün regional münaqişələrin, o cümlədən Somalinin "Somalilənd" məsələsinin də dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsipi əsasında həll olunmasının vacibliyini bəyan edib. Azərbaycan parlamentariləri öz çıxışlarında dünyada separatizmin təhlükəli presedentlər yaradacağına diqqət çəkib və Somalinin bölünməzliyi prinsipinə sadiq qaldığını göstərib.

**Mövzu ilə bağlı XQ-yə danışan Milli Məclisin deputatı, politoloq Rasim Musabəyovun** fikrincə, Azərbaycan tərəfinin mövqeyi Şimali Kipr və Kosovo məsələlərində olduğu kimi, bu mövzuda da qəti və dəyişməzdir: "Xüsusi vurğulamaq lazımdır ki, ərazi bütövlüyü məsələsi Azərbaycan üçün prinsipial və dəyişməz siyasi xətt statusu daşıyır. Bu yanaşma, konkret olaraq, Somali konteksti ilə məhdudlaşmır. Rəsmi Bakı eyni prinsipə Şimali Kipr məsələsində də sadiq qalır. Məlum olduğu kimi, Azərbaycan Şimali Kipr Türk Respublikasını dövlət kimi tanımır. Humanitar və sosial müstəvidə müəyyən əlaqələr saxlanılır, yardım göstərilir. Lakin bu münasibətlər heç vaxt rəsmi tanınma müstəvisinə keçirilməyib.

Bu mövqe ondan irəli gəlir ki, Azərbaycan beynəlxalq hüququn fundamental prinsiplərini selektiv yanaşma predmetinə çevirmir. Məsələn, Kosovo məsələsində də oxşar mövqe nümayiş etdirilib. Kosovonu bu gün yüzə yaxın müsəlman və Avropa ölkəsi tanımasına baxmayaraq, Azərbaycan həmin qərara qoşulmayıb. Bu isə Bakının suverenlik və ərazi bütövlüyü prinsipinə münasibətdə vahid və dəyişməz siyasi xətt yürütdüyünü göstərir".

Politoloqun sözlərinə görə, Qarabağ məsələsində 30 il ərzində yürüdülən beynəlxalq siyasi davranış modeli açıq şəkildə sübut etdi ki, rəsmi Bakı heç bir vahid ərazinin fraqmentlər üzrə parçalanmasını dəstəkləmir: "Somalinin uzun müddətdir mərkəzləşdirilmiş dövlət mexanizmlərinin zəifləməsi fonunda parçalanma riskləri ilə üzləşməsi məlum reallıqdır. Lakin hansısa bölgələrin mərhələli şəkildə tanınması yolu ilə bu parçalanmanın legitimləşdirilməsi Azərbaycan üçün qəbuledilməzdir. Rəsmi Bakı bu xarakterli presedentlərin beynəlxalq sistem üçün təhlükəli nəticələr doğuracağını hesab edir və bu mövqeyini prinsipial şəkildə ortaya qoyur. Bu məsələdə Azərbaycan Türkiyə ilə eyni siyasi xətt üzərindən həmrəy mövqe nümayiş etdirir".

R.Musabəyov son olaraq Azərbaycanın Somali ərazisinə sülhməramlı qüvvə göndərməsi ilə bağlı səsləndirilən iddialara münasibət bildirdi: "Hazırda bu istiqamət-



də hər hansı təşəbbüs gündəlikdə yoxdur. Rəsmi Bakının belə bir planı mövcud deyil. Bu səbəbdən dövriyyəyə buraxılan iddialar real əsaslara söykənmir və daha çox spekulyativ xarakter daşıyır".

Bəli, Azərbaycanın "Somalilənd" məsələsi ilə bağlı mövqeyi aydın və dəyişməzdir: Rəsmi Bakı Somalinin suverenliyini və ərazi bütövlüyünü beynəlxalq hüququn fundamental prinsipi kimi müdafiə edir. Bu mövqeyini həm ikitərəfli münasibətlərdə, həm də BMT, İƏT və Qoşulmama Hərəkatı kimi beynəlxalq təşkilatlarda ardıcıl şəkildə göstərir. Separatçılıqdan əziyyət çəkmiş iki ölkə bir-birinin ərazi bütövlüyünə hörməti xarici siyasətlərinin təməl prinsipi kimi görür.

***Tacir SADIQOV***
***XQ***

# Prezident İlham Əliyev: strateji müdriklik və liderlik məharətinin sintezi



## IV MƏQALƏ

### Strateji maraqlar

Xarici siyasətin bütün istiqamətlərində nailiyyətlərin əldə olunmasının həm də strateji maraqlara xidmət etdiyinə şübhə yoxdur. Lakin onlar strateji maraqları tam əhatə etmir. Prezident İlham Əliyev müsahibəsində kompleks halda həyata keçirilən proqramları bir-biri ilə sıx bağlılıqla təqdim etməklə faktiki bu tezisi irəli sürmüşdür. Müsahibədə toxunulan məsələlərə baxanda, burada iqtisadi, sosial, hərbi, müdafiə, ekoloji, enerji, informasiya, təhlükəsizlik, nəqliyyat və mədəniyyət kimi sahələrin qarşılıqlı əlaqədə təqdimatını görürük.

Bütün bu faktorların təməlində isə müstəqil Azərbaycan Respublikasının həyata keçirdiyi sistemli siyasət və onun strateji aspektinin dayandığını dövlət başçısı müxtəlif kontekstlərdə ifadə etmişdir. Müsahibədən bir nümunədə bunu görmək mümkündür.

Prezident İlham Əliyev keçmiş Qarabağ münaqişəsinin həllinin beynəlxalq miqyasda aparılan siyasət kontekstində izah edərkən mühüm bir məqamı aydın ifadə etmişdir. Ölkə rəhbəri demişdir: “Beləliklə, “yerdəki reallıqlar” məsələsi ortaya qoyulmuşdu. Mən də dedim: yaxşı, onda biz bu reallıqları dəyişəcəyik. Biz bunu etdik və bu gün bütün dünya bunu tanıyır...”.

Özlüyündə bu, asan başa gələn məsələ deyildi. Çünki dünyanın böyük dövlətlərinin öz şəxsi maraqlarına üstünlük verməsi bütövlükdə mənzərəni çox mürəkkəbləşdirmişdi və ciddi ziddiyyətlər ortada idi. Bu prosesin gözlənilməz tərəflərini də dövlət başçısı vurğulamışdır.

Ölkə rəhbəri xüsusi qeyd etmişdir ki: “Eyni zamanda, beynəlxalq münasibətlər son dərəcə gözlənilməz şəkildə inkişaf edir. Beynəlxalq hüquq faktiki olaraq işləməsə də, beynəlxalq arenadakı əsas oyunçular, - ən azı zahirən, - beynəlxalq hüquqa sadiq olduqlarını nümayiş etdirməyə çalışırdılar və qeyri-qanuni addımlar atarkən həmişə terminologiya ilə manipulyasiya etməyə can atırdılar, öz müqəddəratını təyinetmə anlayışından istifadə edilirdi, lakin bu prinsipin dövlətlərin ərazi bütövlüyünə xələl gətirməməli olduğu isə ya nəzərə alınmır, ya da bilərəkdən gözardı edilirdi”.

Burada çox məharətlə XX əsrin son onilliyindən XXI əsrin ilk onilliklərinə qədər dünya siyasətinin “pərdəarxası gerçəklikləri” dəqiq ifadə edilmişdir. Azərbaycan məhz bu cür mürəkkəb bir vəziyyətdə “yerdəki reallıqları” dəyişməyi qərara almışdır. Prinsipcə, bu böyük vəzifənin öhdəsindən gəlmək üçün ölkənin strateji maraqlarını gözləmək şərti ilə mürəkkəb kombinasiyalı siyasət həyata keçirmək lazım idi. Bu siyasət həm də sistemli və ən müasir liderlik kriteriyalarına uyğun olmalı idi.

Bunlarla yanaşı, böyük dövlətlərin fəaliyyətindəki müxtəlif terminoloji və konkret feili bəhanələri də neytrallaşdırmaq lazım idi. Məsələn, həm rəsmi İrəvan, həm də onun havadarları uzun müddət BMT-nin Nizamnaməsindəki “öz müqəddəratını təyinetmə” ifadəsindən manipulyativ istifadə etmişlər.

Buna işarə edərək, müsahibəsində Prezident İlham Əliyev vurğulayır: “...hər hansı ərazi iddiası üçün “öz müqəddəratını təyinetmə” bəhanəsi Azərbaycan üçün çox yaxşı tanışdır. Biz haqlı olduğumuzu dünyaya izah etməyə çalışarkən, “öz müqəddəratını təyinetmə prinsipi dövlətin ərazi bütövlüyünə qarşı qoyula bilməz və təcavüzkar separatizm qınanmalıdır” deyərkən, yenə qəti səssizlik, laqeydlik və bəlkə də bir qədər də təkəbbürlə üzləşirdik, ta ki biz torpaqlarda vuruşub düşməni məğlub edənə qədər. Ondan sonra vəziyyət dəyişdi”.

Deməli, Azərbaycan lideri eyni zamanda 3 istiqamətdə uğurlu olmalı idi: Birincisi, “öz müqəddəratını təyinetmə” prinsipindən bəhanə kimi istifadənin qarşısı alınmalı idi. İkincisi, siyasi-diplomatik yolla qərəzli adamları inandırmalı idi ki, “öz müqəddəratını təyinetmə prinsipi dövlətin ərazi bütövlüyünə qarşı qoyula bilməz” və “təcavüzkar separatizm qınanmalıdır”. Üçüncüsü, bu cür haqlı, ədalətli və aktiv siyasi fəaliyyətə həmin dairələrin “qəti səssizlik, laqeydlik və bəlkə də bir qədər də təkəbbürlə” reaksiya verməsinin əmələ gətirdiyi psixoloji diskomfortu daxilən yenmək lazım idi.

Sonuncu məqam hər bir insan üçün asan məsələ deyildir. Haqlı və ədalətli olduğun halda özünü ağıllı və hətta müdrik sayan siyasətçilərin spekulyativ davranmasını elə “həzm etmək” lazım idi ki, təmkinini, uzaqgörənliyini və qələbə əzmini itirməyəsən. Bu məqamda Azərbaycan Prezidenti İlham Əliyevin zəkasının strateji müdrikliyi ilə liderlik məharətinin intellektual və emosional tərəflərinin vəhdəti parladı!

Azərbaycan lideri nəinki bu cür ədalətsiz və haqsız münasibətin psixoloji çətinliklərini aşdı, hətta bir şəxsiyyət kimi daha yüksəkliklərə çatdı! Bunu artıq “yerdəki reallıq”ları “yerdəki praktiki siyasi-diplomatik və hərbi addımlar” vasitəsilə kökündən dəyişmək gerçəkliyi sübut edir. Bu tezisi dövlət başçısı belə ifadə etmişdir: “biz torpaqlarda vuruşub düşməni məğlub edəndən...sonra vəziyyət dəyişdi”.

Burada müasir dövrdə liderliyin strateji müdriklik aspekti ilə məharətli praktiki fəaliyyətin sintezi məsələsinin vacib cəhətinin münasibətləri məsələsinə gəlib çıxırıq.

### Siyasi reallıq və uğurlu liderlik

Siyasətdə, əlbəttə, müdriklik, fəzilətlilik, hüquq, ədalət və humanizm mühüm dəyərlərdir. Bəşər tarixində bu əlamətlərin liderlərin fəaliyyətində əsas yeri tutmasına yüksək qiymət verilmişdir. Ancaq müasir tarixi mərhələdə, çox təəssüf ki, real siyasi vəziyyət xeyli fərqli mənzərə yaratmışdır.

Bir sıra dünya liderləri, o cümlədən Azərbaycan Prezidenti də indi beynəlxalq miqyasda əsas güc faktoruna üstünlük verildiyini haqlı olaraq vurğulayırlar. “Güclü olan haqlıdır” prinsipi, təəssüf ki, beynəlxalq hüquq normaları və vurğuladığımız fəzilətli davranış nümunələrindən xeyli üstün sayılır.

Bütün gəlişigözəl ibarələrə rəğmən, real siyasi meydanda gücün diktəsini görürük. Hazırda dünyanın müxtəlif regionlarında baş verən siyasi və geosiyasi proseslər bu qənaət üçün kifayət qədər fakt verə bilər.

Belə bir şəraitdə Azərbaycan ranqında olan dövlətlər üçün uğurlu müstəqil siyasəti hansı kriteriyalarla müəyyən etmək olar? Bizcə, burada başqa kriteriyalarla yanaşı, liderin konkret real situasiyada və ya vəziyyətdə əldə etdiyi praktiki nəticələrin milli və dövləti maraqlara uyğunluq dərəcəsi ayrıca yer tutmalıdır.

Bu prizmada Prezident İlham Əliyevin 2003-cü ildən başlayan dövlət başçısı və lider kimi fəaliyyətinin konkret nəticələri uğurlu olmanın nümunələri kimi qiymətləndirilməlidir. Həmin kontekstdə dövlət başçısının Vətən müharibəsində Zəfər qazanması və ondan sonrakı mərhələdə siyasi diplomatiya, dövlət quruculuğu və sülhyaratma sferalarında əldə etdiyi nailiyyətlər real siyasətdə uğurlu olmağın gözəl nümunələri kimi qəbul edilməlidir.

Belə bir yanaşmanın fonunda Azərbaycan liderinin “biz torpaqlarda vuruşub düşməni məğlub edəndən... sonra vəziyyət dəyişdi” tezisinin konseptual və praktiki nəticəverici aspektlərinin sintezində strateji müdrikliklə realpolitikanın dərin vəhdətini ifadə etdiyi qənaətinə gəlirik. Həmin məqam çox mühümdür, çünki regional və qlobal miqyaslarda Azərbaycan Prezidentinin davamlı olaraq nəzəri, siyasi və diplomatik terminlərlə ifadə etdiyi fikirlərinin ədalətliliyi və hüquqiliyini hər kəs qəbul edirdi. Bütövlükdə, geosiyasi vəziyyət belə dəyişdi.

İndi faktiki olaraq Azərbaycan lideri daha geniş miqyasda siyasi-diplomatik mübarizəsini aparır. Bu mərhələdə də həm maraqlı, həm də ziddiyyətli məqamların bir-biri ilə çulğalaşdığını görürük. Dövlət başçısının müsahibədə yer almış aşağıdakı fikrinin fonunda həmin xüsusiyyətləri duymaq olur.

Prezident İlham Əliyev demişdir: “Yaxın Şərqdə hansısa fəaliyyətlərdə mümkün iştiraka gəldikdə, ABŞ-ın BMT-dəki səfirliyinin Azərbaycanın razılıq verməsi ilə bağlı bəyanatı bizi təəccübləndirdi. Biz razılıq verməmişik və diplomatik kanallarla Amerika administrasiyasına çatdırdıq ki, bu cür yalan bəyanatlar qəbuledilməzdir, onlar yanlış mənzərə yaradır. Ola bilər ki, belə bir cəhd olub, kimi isə bu prosesə cəlb etmək üçün Azərbaycanın razılıq verdiyini deyiblər. İstisna etmirəm ki, əgər belə olubsa, bu, ümumiyyətlə heç bir vəchlə qəbul edilə bilməz. Biz 20 sualdan ibarət müraciət tərtib etdik və onu Amerika tərəfinə çatdırdıq. Bu məsələlərə aydınlıq gətirilməyincə, Azərbaycanın hər hansı missiyada heç bir iştirakı nəzərdə tutulmur”.

Məsələ Fələstin-İsrail qarşıdurması fonunda baş verən siyasi, diplomatik, hərbi və geosiyasi kontekstlə əlaqəlidir. Bir sıra dairələr Azərbaycanın bu məsələdə iştirak edib-etməməsinə spekulyativ məzmun verməyə çalışmaqdadırlar. O cümlədən, Azərbaycanın mövqeyinə İsrail-ABŞ-Türkiyə münasibətləri kontekstində süni məzmun və ya yön vermək cəhdləri aydın hiss edilir. Hətta ABŞ-ın yüksək rəsmi şəxsinin özündən nələrisə uydurması kimi hala rast gəlinirsə, deməli, müəyyən dairələr yeni səviyyədə ölkəmizə qarşı spekulyativ və manipulyativ fəaliyyət göstərməkdədirlər.

Bütün bunlara görə, Azərbaycan Prezidentinin aydın, açıq və qətiyyətli mövqeyi müasir liderliyin güclü nümunələrindən biridir. İlham Əliyev ən güclü dövlətin rəsmi şəxslərinin belə Azərbaycana qarşı siyasi-diplomatik və informativ manipulyasiyalar etməyə haqqı olmadığını birmənalı ifadə etmişdir. Çünki Azərbaycan tam müstəqil siyasət yeridir və Fələstin istiqaməti də istisna deyildir.

Bakı heç bir başqa dövlətin deyil, yalnız Azərbaycanın milli maraqlarına uyğun addımlar atır və atmaqda davam edəcəkdir. Buna görədir ki, Prezident İlham Əliyev bu məsələ ilə bağlı fikirlərini belə yekunlaşdırır: “Beləliklə, sağ olun ki, siz bu sualı verdiniz, çünki xarici mətbuatda bu mövzuda çoxlu sayda şayiələr dolaşır. Xüsusilə Amerika diplomatiyasının yüksək rütbəli məmurunun bu cür məsuliyyətsiz və yalan bəyanatlar verdiyi vaxt. Bu, həm də mənə imkan verdi ki, istər bizim, istərsə də beynəlxalq auditoriyanın diqqətinə bu məsələ ilə bağlı bizim mövqeyimizi çatdırım”.

### Güclü potensial: sərbəst enerji gücü

Ölkə rəhbəri müsahibəsində Azərbaycanın dövlət olaraq yüksək potensiala malik olduğunu müxtəlif kontekstlərdə dəqiq ifadə etmişdir. Yəni Azərbaycanın müstəqil siyasət yeritməsi üçün siyasi müdrik lideri olması ilə yanaşı, təbii-coğrafi və enerji imkanları da özyetərlidir. Hətta yaxın ətrafda bu aspektdə Azərbaycanla müqayisə oluna biləcək başqa dövlət yoxdur. Prezident İlham Əliyevin aşağıdakı fikrində bu məqam dəqiq ifadə olunmuşdur. Dövlət başçısı demişdir: “Yenə də nə Cənubi Qafqazda, nə Orta Asiyada, nə yaxın qonşuluqda bizim qədər sərbəst enerji gücü ola biləcək ikinci ölkə yoxdur. Çünki bəzi ölkələr elektrikə çevirmək üçün xaricdən təbii qaz alır, bəzi ölkələr xaricdən elektrik enerjisi alır, çünki özləri üçün çatmır. Biz isə həm enerji satırıq, həm ixrac edirik - həm qaz, həm neft, həm neft məhsulları, həm neft-kimya məhsulları, həm də əsas xammal olan təbii qaz gübrələri. Yəni bizdə bütün sikl tam formalaşıb: həm daxili istehlak, həm ixrac”.

Əslində, bu tezisləri ilə İlham Əliyev yeni bir politoloji terminin tədqiqi məsələsini aktuallaşdırmışdır. Həmin termin “sərbəst enerji gücü”dür. Sərbəst enerji gücünün siyasi sferaya nəzəri proyeksiyası və onun müstəqil siyasətə praktiki tətbiqi Prezident İlham Əliyevin yuxarıdakı fikirləri işığında çox mühüm məqam kimi görünür.

Beləliklə, Azərbaycan lideri bir müsahibədə faktiki olaraq yüksək konseptual səviyyədə və nəzəri ilə praktiki-tətbiqi aspektlərin sintezində çox maraqlı, aktual tezislərini sistemli şəkildə təqdim etmişdir. Bu, yüksək liderlik qabiliyyətinə sahib şəxsiyyətin başqa məqamlarla yanaşı, ölkə ziyalıları qarşısında vacib elmi-tədqiqat vəzifələrini də qoyması deməkdir.

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

**Beynəlxalq münasibətlər sistemində son illərdə müşahidə olunan gərginliklər qlobal təhlükəsizlik arxitekturasını ciddi sınaq qarşısında qoyub. Bu prosesin ən açıq təzahürlərindən biri dünyanın aparıcı dövlətləri arasında silahlanma yarışının yenidən sürətlənməsidir. Regional münaqişələr, böyük güclər arasındakı rəqabət və etimadsızlıq mühiti hərbi xərclərin artırılmasını stimullaşdırır.**

# Avropa silahlanır, Azərbaycanın sülhə töhfələri artır

## *Müdafiə büdcəmiz postmüharibə dövründə sabitliyi qorumağa xidmət edir*

Açıqlanan statistik məlumatlar bir çox ölkələrin sosial-iqtisadi prioritetlərdən daha çox müdafiə xərclərinin artırılmasına üstünlük verdiklərini göstərir. Nəticədə qlobal miqyasda silahlanma təkcə təhlükəsizlik məsələsi deyil, həm də beynəlxalq siyasətin əsas istiqamətlərindən birinə çevrilir. Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun (SIPRI) 2020–2024-cü illərdə qlobal silah ticarətinin vəziyyətinə dair dərc etdiyi hesabat dünyada silahlanma yarışının geniş vüsət aldığının göstəricisi hesab oluna bilər. Hesabatda qeyd edilir ki, bu illər ərzində Avropanın hərbi idxalı 2015–2019-cu illərlə müqayisədə 155 faiz artıb.



SIPRI bildirir ki, ABŞ-nin qlobal silah ixracındakı payı 43 faizə yüksəlib, Rusiyanın ixracı isə 64 faiz azalıb. Hərbi təyinatlı məhsulların ümumi həcmi isə 2015–2019 və 2010–2014-cü illərdə olduğu kimi qalsa da, 2005–2009-cu illərlə müqayisədə 18 faiz yüksək olub. Bundan əlavə, 2020–2024-cü illər üzrə dünyanın ilk 10 silah ixracatçısının siyahısı 2015-2019-cu illərdə olduğu kimi qalıb. Bu siyahıda ilk beşlikdə ABŞ, Fransa, Rusiya, Çin və Almaniya qərarlaşıb. Siyahıda qlobal payı 7,8 faiz olan Rusiya Fransadan (9,6 faiz) sonra üçüncü yerə yüksəlib. Ən böyük silah ixracatçıları arasında olan Çin 2020–2024-cü illərdə 5,9 faiz qlobal həcm payı ilə dördüncü yerdədir. Hesabat müəllifləri qeyd ediblər ki, Çinin öz məhsullarını tanıtmaq səylərinə baxmayaraq, bir çox iri idxalçılar siyasi səbəblərdən onları almaqdan imtina ediblər. İtaliya isə 4,8 faizlə onuncu yerdən altıncı pilləyə irəliləyib.

Məşhur tədqiqat mərkəzinin hesabatı göstərir ki, dünyada silahlanma prosesi artıq ayrı-ayrı regionlarla məhdudlaşmır və qlobal xarakter alır. Xüsusilə Avropada hərbi idxalın kəskin şəkildə – 155 faiz artması təhlükəsizlik narahatlıqlarının nə qədər dərinləşdiyini açıq şəkildə ortaya qoyur. Bu artım əsasən Ukrayna müharibəsi, Rusiya ilə Qərb arasında qarşıdurma və NATO ölkələrinin müdafiə xərclərini artırmaq qərarları ilə bağlıdır. Hesabatda ABŞ-ın qlobal silah ixracında payının 43 faizə çatması Vaşinqtonun bu sahədə mövqeyini daha da gücləndirdiyini göstərir. ABŞ təkcə hərbi güc deyil, eyni zamanda silah ticarəti vasitəsilə siyasi təsir imkanlarını da genişləndirir. Bunun fonunda Rusiyanın ixracının 64 faiz azalması diqqət çəkir. Sanksiyalar, istehsal və logistika problemləri, eləcə də müharibənin yaratdığı risklər Moskvanın silah bazarındakı mövqeyini ciddi şəkildə zəiflədib.

* * *

Bu fonda ölkəmizin müdafiə və milli təhlükəsizlik xərclərini artırması qanunauyğun və təbii sayılmalıdır. Məlumdur ki, bu sahəyə 2026-cı ilin dövlət büdcəsi xərclərinin 21 faizi həcmində və ya 8 milyard 714,8 milyon manat məbləğində vəsait ayrılması nəzərdə tutulur. Bu da 2025-ci illə müqayisədə 4 faiz və ya 319 milyon manat çoxdur. Ancaq Azərbaycanın hərbi və milli təhlükəsizlik xərclərini artırması qətiyyən hansısa yeni hərbi kampaniyaya hazırlıqla bağlı deyil. Azərbaycan Prezidenti çıxışlarında bir neçə dəfə bildirib ki, bizim üçün münaqişə və müharibə səhifələri qapanıb. Ölkəmiz hazırda sülh quruculuğu yolunda inamla addımlayır. Dövlətimizin başçısı 2025-ci il dekabrın 31-də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bu barədə dedi: “Biz yeni müharibəyə hazırlaşmırıq. Bizim üçün müharibələr arxada qaldı. Ancaq bugünkü dünyada hər bir ölkə ilk növbədə, öz təhlükəsizliyi haqqında ciddi düşünməlidir. Bugünkü dünyada beynəlxalq hüquq normaları işləmir, “Kim güclüdür, o da haqlıdır” prinsipi əsas prinsip kimi bir çox ölkələr tərəfindən qəbul edilib. Bütün dünyada genişmiqyaslı silahlanma prosesi gedir. Belə olan halda, biz hər an öz ərazi bütövlüyümüzü, suverenliyimizi, öz seçimimizi layiqincə müdafiə etmək üçün hazır olmalıyıq...”.

Prezident İlham Əliyev bir neçə gün sonra – 2026-cı il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində bu istiqamətdə fikirlərini daha geniş açıqladı: “Birinci dəfə deyil ki, mən bu Zirvə görüşlərində (Türk Dövlətləri Təşkilatının zirvə görüşləri nəzərdə tutulur–S.H.) bu məsələyə toxunuram. Çünki bilirəm və görürəm, dünyadakı proseslər o istiqamətdə gedir ki, hər bir ölkə, ilk növbədə öz hərbi potensialını gücləndirməlidir, təhlükəsizliyini gücləndirməlidir. Hətta Yeni il bayramı ilə əlaqədar Azərbaycan xalqına təbrikimdə də demişdim, bugünkü dünya belədir: kim güclüdür, o da haqlıdır... Həm də ki, öz təhlilimi apararaq görürəm ki, bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs gərək unutsun. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var”.

Beləliklə, bir daha aydın olur ki, qlobal miqyasda silahlanma yarışının sürətləndiyi bir dövrdə Azərbaycanın müdafiə və milli təhlükəsizlik xərclərini artırması tam məntiqli və əsaslandırılmış addımdır. 2026-cı ilin dövlət büdcəsində bu sahəyə ayrılan vəsaitin artırılması ölkənin mövcud və potensial riskləri real qiymətləndirdiyini göstərir. Bu artım hansısa hərbi kampaniya niyyəti ilə deyil, dəyişən beynəlxalq mühitdə dövlətin təhlükəsizliyini təmin etmək məqsədi daşıyır.

Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycan üçün müharibə mərhələsi artıq geridə qalıb və ölkə sülh quruculuğu yolunu seçib. Lakin bugünkü beynəlxalq münasibətlər sistemində hüquq normalarının zəifləməsi, güc faktorunun ön plana çıxması hər bir dövləti öz müdafiə imkanlarını gücləndirməyə vadar edir. Dünyanın müxtəlif bölgələrində baş verən münaqişələr bu reallığı hər gün təsdiqləyir. Bu baxımdan Azərbaycanın hərbi potensialını artırması preventiv xarakter daşıyır və ölkənin suverenliyinin, ərazi bütövlüyünün qorunmasına xidmət edir. Dövlətimizin başçısının qeyd etdiyi kimi, müasir dünyada təhlükəsizlik təkcə silahlanma deyil, həm də əməkdaşlıq, müttəfiqlik və qarşılıqlı dəstək üzərində qurulur. Azərbaycan da məhz bu balansı qorumağa çalışır. Nəticə etibarilə, müdafiə xərclərinin artırılması yeni müharibəyə hazırlıq yox, sülhü qorumaq üçün güclü olmaq strategiyasının tərkib hissəsidir.

*Səxavət HƏMİD*
*XQ*

### *Ekspert rəyi*



**Şair RAMALDANOV,**
**ehtiyatda olan polkovnik**

Avropa ölkələrinin son illər silahlanmanı sürətlə artırması qlobal təhlükəsizlik mühitinin nə qədər kövrək hala gəldiyini açıq şəkildə göstərir. Ukrayna müharibəsi, Rusiya–Qərb qarşıdurması və NATO çərçivəsində qəbul edilən yeni öhdəliklər Avropa dövlətlərini müdafiə xərclərini kəskin şəkildə yüksəltməyə məcbur edib. Bir çox ölkə üçün silahlanma artıq seçim deyil, dəyişən təhlükəsizlik risklərinə verilən cavabdır. Bu mənzərədə Azərbaycanın müdafiə və milli təhlükəsizlik xərclərini artırması da eyni qlobal reallıqlardan irəli gəlir. Lakin prinsipial fərq ondan ibarətdir ki, Azərbaycan bu addımı yeni hərbi qarşıdurma niyyəti ilə deyil, əldə edilmiş sülhün qorunması məqsədilə atır. Rəsmi Bakının dəfələrlə bəyan etdiyi kimi, ölkəmiz üçün müharibə mərhələsi başa çatıb və əsas hədəf uzunmüddətli sabitliyin təmin olunmasıdır. Bəli, güclü müdafiə potensialı məhz sülh siyasətinin əsas dayaqlarından biridir. Beynəlxalq hüququn zəiflədiyi, güc amilinin ön plana çıxdığı indiki şəraitdə Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü etibarlı şəkildə qorumağa çalışır. Bu baxımdan, hərbi xərclərin artırılması regional gərginliyi artıran yox, mümkün risklərin qarşısını alan, sülhə və sabitliyə xidmət edən qabaqlayıcı addım kimi dəyərləndirilməlidir.

# Azərbaycan dövlətinin ana dili dərsləri və Milli Akademiyanın növbəti vəzifələri

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 yanvar tarixində yerli televiziya kanallarına verdiyi müsahibə ölkəmizdə geniş əks-səda doğurmuşdur. Müsahibədə müstəqil dövlətimizin beynəlxalq və regional miqyasda tutduğu mövqenin, apardığı məqsədyönlü siyasətin, qazandığı nailiyyətlərin real və geniş mənzərəsi canlandırılmışdır. Dövlətimizin rəhbərinin müsahibəsi müstəqil və müasir Azərbaycanın dünya miqyasındakı yerinin və mövqeyinin, ölkə başçımızın siyasi iradəsinin və strategiyasının dolğun və məzmunlu ponoramıdır.**



*İsa HƏBİBBƏYLİ*
*AMEA-nın prezidenti, akademik*

Müsahibədən görünür ki, Prezident İlham Əliyevin gündəliyində sülh və təhlükəsizlik məsələləri xüsusi yer tutmuşdur. Cənab Prezident haqlı olaraq "Azərbaycanın döyüş meydanında əldə etdiyi parlaq qələbəyə Vaşinqtonda siyasi müstəvidə, ... dünyanın bir nömrəli ofisində siyasi möhür vurulmasını, Sülh müqaviləsinin müddəalarının paraflanmasını" müstəqillik tariximizdə yaddaqalan hadisələrdən biri, bəlkə də birincisi" hesab etmişdir. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə strateji tərəfdaşlıq xartiyasının hazırlanması üçün işçi qrupunun yaradılması, Zəngəzur dəhlizinin açılmasına real təminat alınmasına dair razılaşmaların əldə olunması da 2025-ci ilin ölkəmiz üçün əhəmiyyətli bir mərhələ olduğunu göstərir.

"Biz güclü olmalıyıq" tezisi cənab Prezidentin yerli televiziya kanallarına verdiyi müsahibənin ana xətlərini müəyyən edir. Bu baxımdan Prezident İlham Əliyevin müsahibəsindəki Çin Xalq Respublikası ilə Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması, D-8 Təşkilatının, Mərkəzi Asiya Məşvərət Şurasının tamhüquqlu üzvü seçilməyimiz, Xəzər dənizinin dibi ilə fiber-optik kabelin çəkilməsinə dair Azərbaycan-Qazaxıstan və Özbəkistan arasında müqavilə imzalanması, Xankəndidə EKO-nun və Qəbələdə Türk Dövlətləri Təşkilatının Zirvə Görüşünün təşkil edilməsi 2025-ci ilin siyasi gündəminin əsas səhifələrini təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti 2025-ci ilə yekun vurarkən daim xüsusi olaraq vurğuladığı "kim güclüdür o da haqlıdır" gerçəkliyindən çıxış edərək, siyasi prosesləri təhlil edib dəyərləndirmişdir. Bu məqamda müsahibədə səsləndirilən dünya ölkələri ilə iqtisadi əməkdaşlıq, Türk Dövlətləri Təşkilatı ölkələri ilə hərbi əməkdaşlığın genişləndirilməsi, Kibertəhlükəsizlik sahəsindəki yeni imkanlarımız ötən ilin böyük nailiyyətlərdir.

Ölkəmizin daxilində gedən proseslərin Azərbaycan cəmiyyətinə çatdırılması da cənab Prezidentin müsahibəsində xüsusi yer tutur. Bakı şəhərinin əhatə etdiyi ərazidə 2 500 kilometrlik yol çəkilməsi, yaxın illərdə 10 metrostansiyasının tikiləcəyi, Qarabağda və Şərqi Zəngəzurda uğurla həyata keçirilmiş sosial-iqtisadi layihələr, Zəngəzur dəhlizi sahəsində atılmış addımlar, Naxçıvanın Baş planının icra edilməsinə başlanılması və sair bu ilin də yüksək səviyyədə ölkəmizin inkişafına mühüm töhfələr verəcəyini proqnozlaşdırmağa imkan yaradır.

Qalib ölkənin qalib lideri olan Prezident İlham Əliyev islahatçı dövlət rəhbəridir. İlk dəfə Qarabağ bölgəsində tətbiq edilən xüsusi nümayəndəlik və Naxçıvan Muxtar Respublikasında tətbiq edilən səlahiyyətli nümayəndəlik institutları Prezident İlham Əliyevin Azərbaycanda dövlət idarəçiliyinə gətirdiyi yeniliklərdir. Azərbaycanın televiziya kanallarına verilmiş müsahibədə dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində irəli sürülən müddəalar yaxın gələcəkdə struktur islahatlarına dair yeni yanaşmaların baş verəcəyinin anonsu ola bilər.

Prezident İlham Əliyev müsahibəsində müasir cəmiyyətin inkişafındakı xüsusi rolunu və mühüm əhəmiyyətini nəzərə almaqla, dünya nizamı və ölkə reallıqları ilə birlikdə elm və təhsil məsələlərini bir daha ictimaiyyətin diqqət mərkəzinə çəkmişdir. Cənab Prezidentin Azərbaycan cəmiyyətinə ünvanladığı aşağıdakı mətləblər elm və təhsil vasitəsilə yeni inkişafa nail olmağın siyasi düsturudur: «Mən, bunu dəfələrlə demişəm, bir daha deyirəm, … inkişaf etmiş ölkələrin inkişafı ancaq zəka, ağıl, təhsil, elmlə bağlıdır, neftlə, qazla yox. Baxın, neftlə, qazla zəngin olan ölkələrin və inkişaf etmiş ölkələrin vəziyyətinə… Onların texnologiyaları haradan gəlir? Onların özləri onları idarə edir? Yox, o beyin mərkəzlərindən, texnoloji mərkəzlərdən gəlir. O da nəyə bağlıdır? Təhsilə, elmə. Ona görə də biz bu istiqamətdə fəal işləməliyik… Bütün bu amillər bir məqsəd güdür ki, cəmiyyət savadlı və bilikli olsun. Ancaq o halda biz uzunmüddətli inkişafa nail ola bilərik".

Bu baxımdan yanaşdıqda son vaxtlarda Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin xətti ilə tabeliklərində olan elmi-tədqiqat institutlarında optimallaşdırma üzrə aparılan islahatların yeni tarixi şəraitdə elmin və təhsilin inkişafını təmin edə biləcək mühüm addımlar kimi qiymətləndirilə bilər. Eyni zamanda da Elm tarixi və Qafqazşünaslıq institutlarının fəaliyyətinə xitam verilməsi, ayrı-ayrı elmi-tədqiqat institutlarında lazımsız şöbələrin bağlanılması, müəyyən ixtisarların aparılması yeni tarixi dövrün çağırışlarına xidmət edən yeni struktur vahidlərinin yaradılması da Elm və Təhsil Nazirliyində aparılan islahatlarla bir-birini tamamlayan proseslərdir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müstəqil dövlətçilik və Azərbaycançılıq təlimində ana dili – dövlət dili məsələsi həmişə xüsusi aktuallığa və əhəmiyyətə malik olmuşdur. Daha doğrusu, ana dili – dövlət dili siyasəti ölkəmizin azərbaycançılıq siyasətinin aparıcı istiqamətlərindən biridir. Hələ 2015-ci ildə Milli Elmlər Akademiyasının 70 illik yubileyində Prezident İlham Əliyev çıxış edərkən Azərbaycan dilinin saflığının qorunması və xarici kəlmələrdən yersiz istifadə edilməsinin qarşısının alınması haqqında problemlərin olmasına dair mülahizələrini geniş ictimaiyyətə çatdıraraq demişdi: "Bizim bütün fəaliyyətimizin əsasında Azərbaycan dili dayanır... Bu gün bəzi hallarda görəndə ki, dilimizə xaricdən müdaxilələr edilir və bəzi hallarda bu müdaxilələr Azərbaycanda da dəstək qazanır, bu məni doğurdanda çox narahat edir... Əlbəttə, bizim vətəndaşlar, xüsusilə gənc nəsil nə qədər dil bilsələr o qədər yaxşıdır. Ancaq ilk növbədə öz ana dilini bilməlidirlər. Digər tərəfdən imkan verməməlidirlər ki, ana dilimizə yad kəlmələr daxil olsun. Bəzi ictimai xadimlərin hökumət üzvlərinin çıxışlarında, bəzi televiziya verilişlərində, Milli Məclisdə eşidirəm ki, kənar kəlmələrdən istifadə olunur. Buna ehtiyac yoxdur".

Milli Elmlər Akademiyasının 80 illik yubileyində də Prezident İlham Əliyev Azərbaycan dilinin saflığının, xarici təsirlərdən qorunub saxlanılması və daxili imkanlar hesabına zənginləşdirilməsinin dövlət siyasətinin əsas müddəalarından biri olduğunu bəyan etmiş, yad kəlmələrdən yersiz ifadəni sərt şəkildə "təxribat" adlandırmışdır. Dövlət rəhbərimizin yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə Azərbaycan dilinin qorunub inkişaf etdirilməsi məsələsini yenidən gündəmə gətirməsi bu faktorun ölkənin və xalqın taleyində və təkamülündə nə qədər məsuliyyətli rol oynadığını bir daha nümayiş etdirir. Cənab Prezidentin həmin müsahibəsindəki Azərbaycan dili mövzusu Milli Elmlər Akademiyasının 80 illik yubileyində bu istiqamətdə irəli sürdüyü mülahizələrin daha da genişləndirilmiş, "çərçivələri daha da açılmış" və əsaslandırılmış davamıdır. Dil məsələlərinə ardıcıl münasibəti İlham Əliyevin müstəqil dövlətçilik və mili kimliklə bağlı olan Azərbaycan dili siyasətinin davamlı və dönməz olduğunu göstərir. Azərbaycan dilinə haqlı olaraq "dövlətin əsas atributlarından biri" kimi xüsusi əhəmiyyət verən Prezident İlham Əliyevin Azərbaycan dilinin statusuna, qüdrətinə, zənginliyinə və ahəngdarlığına verdiyi yüksək qiymət ana dilimizi nə üçün qoruyub saxlamağın ən mükəmməl cavabıdır: "Dil dövlətin əsas atributlarından biridir, bəlkə də birincisidir, təbii ki, bayraqla, gerblə, himnlə birlikdə... Dil o amildir ki, milləti millət edir... Bizim dilimiz böyük xalqın dilidir, bunu heç vaxt unutmamalıyıq və bizim dilimiz heç bir millətin kölgəsində ola bilməz".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev geniş mənada dünya azərbaycanlılarının milli kimlik möhürü və pasportu olan ana dilimizin – dövlət dilimizin qorunub saxlanılmasını hər bir Azərbaycan vətəndaşının, yazıçı və şairlərin, jurnalistlərin, ziyalıların, alimlərin məsuliyyətli və şərəfli borcu hesab edir. Prezident İlham Əliyev dili qorumağın ana vətəni, doğma torpağı, mənsub olduğu xalqı qoruyub saxlamağın ən mühüm vəzifələrindən biri olduğunu bəyan edir. Bu sahədə hər hansı bir məsuliyyətsizliyin törədə biləcəyi fəlakətin mahiyyətini açıb göstərməklə dərindən əsaslandırılmış şəkildə nəzərə çatdırır: "Əgər biz müstəmləkəçilik illərində dilimizi qoruyub saxlaya bilmişiksə və bizim əcdadlarımız onu bizə əmanət veriblərsə, necə ola bilər ki, biz bu gün bu dilimizi qorumayaq. Bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr – onlar dilimizi zənginləşdirmiş və o kəlmələri istifadə edənləri daha ağıllı etmir... Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş... Dil əldən gedəndən sonra, yaxud da ki, pozulandan sonra, ya da başqa dilə tamam uyğunlaşandan sonra, onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmizdə necə deyərlər, böyük fəlakətlə üzləşə bilər. Ona görə də dilimizi qorumaq hər birimizin vəzifəsidir. Bunu mən əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət dilimiz haqqında böyük həyəcanla meydana qoyduğu aydın mövqe xalqımızın böyük mütəfəkkirlərinin bir neçə əsr ərzində uğrunda mübarizə apardıqları ana dili mücadiləsinin yeni tarixi dövrdəki daha aydın və qətiyyətli nümunəsidir. Azərbaycanın yazıçı və şairlərinin ana dili uğrunda ədəbiyyat və mətbuat cəbhəsində apardıqları mübarizəni Prezident İlham Əliyev dövlət səviyyəsinə qaldırmışdır.

Ana dilinin qorunub saxlanılması, mövqeyinin möhkəmləndirilməsi, daxili imkanlar hesabına zənginləşdirilməsi yollarının və vasitələrinin elmi cəhətdən müəyyən edilməsi, xalqımıza çatdırılması Azərbaycan Milli Elmlər Akademiyasının, xüsusən də humanitar və ictimai elmlər üzrə elmi-tədqiqat institutları əməkdaşlarının müqəddəs borcu və vəzifəsidir. Azərbaycan dilinin qrammatik əsaslarının elmi şəkildə tədqiq edilib öyrənilməsi, yeni nəsillərə mənimsədilməsi son yüz illiyin ən mühüm nailliyyətlərindən biridir. Bununla belə, humanitaryönlü tədqiqatlarda, dilçilik araşdırmalarında elmi-nəzəri yanaşmalarla bərabər, ana dilinin müqəddəs sərvət kimi qorunub saxlanılması, zənginləşdirilməsi, yan təsirlərdən mühafizə olunması və daxili imkanlar hesabına inkişaf etdirilməsi üsullarının, vasitələrinin müəyyən edilib xalqa çatdırılması, lazım gələrsə, vətəndaş narahatlığını ifadə edən həyəcan təbilinin çalınması daha ayıq-sayıq olmaq sahəsində elmi müəssisələrin, alimlərin üzərinə daha məsuliyyətli vəzifələr düşür. Azərbaycan elmi ana dilinə – dövlət dilinə münasibətdə alim zəhmətkeşliyi ilə bərabər, vətəndaş narahatlığını da ifadə etməyə borcludur. Çünki ana dili – ana Vətən və Ana torpaq deməkdir. Elm, təhsil və ədəbiyyat sahəsindəki xüsusi əhəmiyyətini nəzərə almaqla AMEA Azərbaycan Yazıçılar Birliyi ilə də Azərbaycan dili müzakirələri keçirməyi planlaşdırır. Alimlərimiz xaricdə Azərbaycan dili proqramlarında da yaxından iştirak etməlidirlər. AMEA Nəsimi adına Dilçilik İnstitutunda professor Mayıl Əsgərovun hazırladığı "Salam, Azərbaycan dili" proqramı və çap etdirdiyi eyniadlı dərs vəsaitləri bu cəhətdən faydalı ola biləcək hazır materiallardır.



Azərbaycan dilinin saflığının qorunması istiqamətində AMEA-da atılmış addımlar haqqında da bəzi məlumatları diqqətinizə çatdırmaq istəyirəm. Bu baxımdan, ilk növbədə, lüğətçilik haqqında bir neçə söz demək lazımdır. Bu sahədə Akademiyada davamlı və dayanıqlı ənənə vardır və həmin ənənə bu gün də davam etməkdədir.

Son illərdə ulu öndər Heydər Əliyevin siyasi irsinin leksik tərkibinə dair çap edilmiş izahlı lüğəti yüksək qiymətə layiqdir. Azərbaycan Dilinin ikicildlik Frazeoloji lüğəti də çoxillik böyük zəhmətin nəticəsində meydana çıxmış mühüm xidmətdir. Hazırda Dilçilik İnstitutunda yeni Orfoqrafiya lüğəti tamamlanmaq üzrədir. Orfoepiya lüğəti üzərində isə iş davam etdirilir. Azərbaycan dilinin izahlı lüğətinə də ciddi ehtiyac vardır.

Məlum olduğu kimi, düzgün yazı və normal tələffüz nitq mədəniyyəti məsələsini ön mövqeyə çıxarır. Bunu nəzərə alaraq, AMEA Nəsimi adına Dilçilik İnstitutundakı "Müasir Azərbaycan dili" şöbəsinin bazasında "Müasir Azərbaycan dili və nitq mədəniyyəti" şöbəsinin yaradılmasını təklif edirik. Bu, hazırda müzakirə edilən ədəbi dil normalarına əməl edilməsi sahəsindəki mövcud başlıqların aradan qaldırılmasına elmi-əməliköməyin ifadəsi ola bilər. Fikrimcə, əvvəllər ali məktəblərin filologiya fakültələrində tədris edilən "Nitq mədəniyyəti" fənninin bərpa edilməsi də faydalı olar.

Hazırda terminoloji lüğətlərin rəqəmsallaşdırılması, Milli Terminologiya Korpusunun yaradılması, geniş istifadə üçün onlayn lüğətlərin yaradılması zərurəti meydana çıxmışdır. Dilçi alimlərimiz bu məsələlər ətrafında düşünüb-daşınmalı, əməli addımlar atmalıdırlar.

Fikrimcə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin nəzdindəki Terminologiya Komissiyasının tərkibinə də yenidən baxılması və fəaliyyətinin canlandırılmasının da zamanı çatmışdır.

Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanalları qarşısında "Sizin üçün torpaq nədir" sualına cavab verərkən torpaq haqqında dediyi çoxmənalı ürək sözləri ölkə rəhbərimizin müstəqil dövlətçilik və azərbaycançılıq baxışlarının obrazlı və ümumiləşdirilmiş ifadəsindən ibarətdir: "Bilirsiniz, bizim hamımız üçün torpaq anlayışı, ilk növbədə, itirilmiş torpaqlarla bağlı idi... Vətən müharibəsi dövründə torpaq mənim üçün hər azad edilmiş kəndin timsalında, necə deyərlər, ortalığa çıxırdı və hər bir şəhidin şəhid olduğu yer torpaq idi mənim üçün... Hər dəfə bayrağımız bir kəndə, bir şəhərə sancılanda mənim üçün Azərbaycan məhz o torpaq idi. Nə deyim, noyabrın 8-dən sonra nəzarətdə olmayan torpaq mənim üçün Azərbaycan idi. O torpağı qaytarmaq necə?.. Amma mənim üçün torpaq o, vaxt o idi, Azərbaycan o idi. Azərbaycan o idi, Xankəndi idi, Xocalı idi, o da artıq azad olundu.

İndi necə deyərlər, torpaq deyəndə, sözün düzü, mən daha çox torpağın keyfiyyətinə baxıram, harada daha münbit torpaq var, harada yaxşı əkin aparmaq olar. Qarabağa gedəndə baxıram, görürəm, orada qara torpaqdır. Deyirəm, nə gözəl məhsuldar torpaqdır. Artıq o torpaq anlayışı, yəni o zədəli, yaralı torpaq anlayışı yoxdur... Çünki artıq sülh dövrüdür, quruculuq dövrüdür. Biz bu dövrü yaşayırıq... Hər an torpağımızı müdafiə etmək üçün güclü olmalıyıq, hazır olmalıyıq, və əminəm ki, bundan sonra heç vaxt bir qarış torpağımız heç kəsin tapdağı altına düşməyəcək. Bunun üçün güc var, xalqın birliyi var, güclü Azərbaycan dövləti var".

Bu müdrik və dərinmənalı sözlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizin televiziya kanallarına verdiyi müsahibənin möhtəşəm və ümumiləşdirilmiş yekunudur. Bu, ana torpaq haqqında dövlət başçısı səviyyəsində verilmiş vətənpərvərlik dərsləridir. Bu qısa və lakin çox mənalı fikirlər – Ana torpaq haqqında manifestdir. Prezident İlham Əliyevin torpaq sevgisi və torpağı qorumaq andı hər bir Azərbaycan vətəndaşı üçün nümunədir. Ana dilini qorumaq və inkişaf etdirmək də Ana torpaq fəlsəfəsinin üzvü tərkib hissəsidir.

Bu gün Azərbaycan elmi və Milli Elmlər Akademiyasının alimləri Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə elmi fikrin daha da inkişaf etdirilməsi, elmin ölkəmizin inkişafına daha çox xidmət etməsi, milli-mənəvi dəyərlərin dərindən mənimsənilməsi, yeni elmi nəsillərin hazırlanması yollarında dönmədən çalışaraq, özlərinin məsuliyyətli tədqiqatçılıq vəzifələrini və vətəndaşlıq borclarını yerinə yetirmək üçün səfərbərdirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi AMEA-nın kollektivi adından əmin etmək istəyirəm ki, dövlət başçımızın AMEA-nın 80 illik yubileyindəki nitqində və Azərbaycanın yerli televiziya kanallarına verdiyi müsahibədə səsləndirilən fikirlər, qarşıya qoyulmuş vəzifələr, irəli sürülmüş çağırışlar alimlərimiz, elmi-tədqiqat müəssisələrimiz tərəfindən dönmədən həyata keçiriləcəkdir. Ana dilini qoruyub inkişaf etdirmək hər bir vətəndaşın işi olsa da, hamıdan çox Azərbaycan alimlərinin borcu və vəzifəsidir.

# Sülh və rifah: yeni iqtisadi inkişaf mərhələsi



*(əvvəli 1-ci səhifədə)*

Mövcud strateji yanaşma öz institusional köklərini Ulu öndər Heydər Əliyevin formalaşdırdığı dövlətçilik modelindən götürür. Həmin modeldə siyasi-iqtisadi sabitlik, güclü dövlət institutları və idarəetmə iqtisadi inkişafın ilkin və dəyişməz şərti kimi qəbul edilirdi. Bu yanaşma sabitliyi inkişafın başlanğıc nöqtəsi kimi dəyərləndirən dövlətçilik fəlsəfəsinə əsaslanırdı.

Bu kontekstdə Prezident İlham Əliyevin 5 yanvar 2026-cı il tarixli müsahibəsində səsləndirdiyi fikirlər postmünaqişə dövrünün artıq yalnız bərpa və təhlükəsizlik mərhələsi ilə məhdudlaşmadığını, suverenliyin iqtisadi və sosial rifaha çevrildiyi yeni inkişaf mərhələsi kimi dərk edildiyini göstərir. Yeni mərhələdə dövlət ərazi bütövlüyünü qoruyan və sülh şəraitində milli iqtisadi potensialı sistemli şəkildə rifaha transformasiya edən inkişafyönlü aktor kimi çıxış edir.

## Sülh və sabitlik: iqtisadi inkişafın ilkin şərti

Müasir qlobal iqtisadiyyatda inkişaf artıq yalnız təbii resursların mövcudluğu və bazarın ölçüsü ilə izah edilmir. Həlledici amil iqtisadi sistemin hansı dərəcədə sabit qaydalar üzərində qurulması, necə idarə edilməsi və iqtisadi subyektlərin gələcəyi nə qədər proqnozlaşdıra bilməsidir. Məhz bu çərçivədə Azərbaycanda formalaşmış sosial-iqtisadi sabitlik ölkənin beynəlxalq risk qavrayışını əhəmiyyətli dərəcədə yaxşılaşdırmış, maliyyələşmə imkanlarını genişləndirmiş və iqtisadi qərarların zaman üfüqünü uzatmışdır. Sabitlik burada abstrakt anlayış deyil, ölçüləbilən iqtisadi üstünlük kimi çıxış edir.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ərazi bütövlüyünün bərpası nəticəsində təmin olunan suverenlik sülh mühitini formalaşdırmış, sülh isə sosial-iqtisadi sabitliyin möhkəmlənməsi üçün etibarlı zəmin yaratmışdır. Bu dönüş nöqtəsindən sonra iqtisadiyyat ehtiyatlı, qısamüddətli uyğunlaşma mərhələsindən çıxaraq daha sistemli və planlaşdırılan qərarlar mərhələsinə keçmişdir. Sabitliyin dərinləşməsi riskləri zəiflətmiş, iqtisadi subyektlərin davranış məntiqini dəyişmiş, planlaşdırma üfüqünü genişləndirmiş və investisiya qərarlarının uzunmüddətli gözləntilər üzərində qurulmasına imkan vermişdir. Nəticədə iqtisadi artım keyfiyyət və dayanıqlıq baxımından da yeni mərhələyə yüksəlmişdir.

İqtisadi sabitliyin real dəyəri onun mövcud olmadığı halların yaratdığı itkilərin üzərindən daha aydın görünür. Beynəlxalq təcrübə göstərir ki, milli valyutanın qeyri-sabit olduğu və inflyasiyanın yüksək səviyyədə qaldığı ölkələrdə iqtisadiyyat artsa belə, o, adətən zəif, sosial baxımdan kövrək və fiskal baxımdan dayanıqsız olur. Argentina nümunəsində uzunmüddətli yüksək inflyasiya real gəlirlərin aşınmasına, daxili tələbin daralmasına və fiskal böhranların xroniki xarakter almasına səbəb olmuşdur. Türkiyədə isə son illərdə məzənnə dəyişkənliyi və inflyasiya təzyiqləri investisiya davranışını qısamüddətli və müdafiə xarakterli etmiş, istehsal və texnoloji sahələrdə uzunmüddətli sərmayələrin payını məhdudlaşdırmışdır. Bu nümunələr açıq şəkildə göstərir ki, həlledici olan artımın özü deyil, onu daşıyan makroiqtisadi çərçivənin keyfiyyətidir.

Azərbaycan kontekstində isə fərqli və daha ehtiyatlı makroiqtisadi yanaşma formalaşmışdır. Milli valyutanın dəyərinin qorunması və inflyasiyanın idarəolunan səviyyədə saxlanılması iqtisadiyyat üçün etibarlı nominal lövbər rolunu oynayır. Bu lövbər qiymət gözləntilərini sabitləşdirir, idxal qiymətlərində kəskin dalğalanmaların qarşısını alır və istehlak bazarında qiymət spirallarının yaranma riskini azaldır. Nəticədə, əhalinin real gəlirləri qorunur, daxili tələb süni şəkildə sıxılmır və iqtisadi artımın əsas dayaqları zəifləmədən saxlanılır.

Bu yanaşma Şərqi Avropa ölkələrinin uğurlu təcrübəsi ilə də uzlaşır. Polşa və Çexiya kimi ölkələr inflyasiyanı nəzarətdə saxlayaraq və məzənnə sabitliyini qoruyaraq istehsal və ixracyönümlü artımı təmin etmiş, sənaye və texnoloji sahələrdə dərinləşməyə nail olmuşlar. Bu ölkələrdə makroiqtisadi sabitlik iqtisadi qərarların zaman üfüqünü uzatmış və iqtisadiyyatın keyfiyyətcə yenilənməsinə imkan vermişdir. Azərbaycan da oxşar məntiq üzrə, lakin öz resurs və institusional xüsusiyyətlərinə uyğun şəkildə sabitliyi iqtisadi inkişafın ilkin və dəyişməz şərti kimi istifadə edir.

Bu baxımdan, Azərbaycanın timsalında sabitliyin əhəmiyyətini 3 əsas iqtisadi sütun üzərində izah etmək mümkündür.

Birincisi, fiskal siyasətdə kontr-tsiklik mexanizmlərin gücləndirilməsidir. Neft qiymətlərinin kəskin dalğalanması fonunda formalaşdırılmış valyuta ehtiyatları "fiskal bufer" rolunu oynayaraq qlobal böhranlar zamanı dövlətin sosial öhdəliklərini yerinə yetirməsinə və infrastruktur layihələrini fasiləsiz maliyyələşdirməsinə imkan verir. Sabitlik burada iqtisadiyyatın uzunmüddətli və balanslı inkişaf modelinə keçidini təmin edən əsas mexanizm kimi çıxış edir.

İkincisi, manatın sabitliyi və inflyasiya ilə mübarizədir. Kiçik və açıq iqtisadiyyat olan Azərbaycan üçün idxal olunan inflyasiyanın qarşısının alınmasında məzənnə sabitliyi həlledici əhəmiyyət daşıyır. Mərkəzi Bankın pul siyasəti qiymətlərin ümumi səviyyəsini tənzimləməklə həm sahibkarlar üçün iqtisadi vəziyyətin aydın olmasını təmin edir, həm də əhalinin real gəlirlərinin inflyasiya nəticəsində aşınmasının qarşısını alır.

Üçüncüsü, qeyri-neft sektorunun rəqabət qabiliyyətinin artırılmasıdır. Sabit makroiqtisadi mühit ölkənin beynəlxalq reytinqlərdə ölkənin mövqeyini gücləndirir və birbaşa xarici investisiyaların qeyri-neft sahələrinə yönəlməsini stimullaşdırır. Prezidentin qeyd etdiyi kimi: "Ölkəmizdə gözəl investisiya iqlimi vardır. Biz ölkəmizə 300 milyard dollardan çox xarici sərmayə cəlb edə bilmişik. Bu gün ölkəmizin maliyyə vəziyyəti çox müsbətdir". Xüsusilə işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və "yaşıl enerji"yə keçid strategiyası şəraitində bu sabitlik iqtisadiyyat üçün zəruri olan etibarlı güvən mühitini formalaşdırır.

Nəticə etibarilə, Azərbaycan timsalında məzənnə sabitliyi və inflyasiyanın idarəolunan səviyyədə saxlanılması iqtisadi artımın təsadüfi konyunktura deyil, məhsuldarlıq və keyfiyyət əsaslı mexanizmlər üzərindən formalaşmasına imkan verir. Bu çərçivə qorunduqca, iqtisadiyyat daha balanslı və uzunmüddətli inkişaf trayektoriyası üzrə irəliləyir.

## Son 10 il: sabitliyin iqtisadi nəticələri

Formalaşmış makroiqtisadi mühit fonunda son 10 il Azərbaycan iqtisadiyyatında yenilənmə və davamlı artıma keçid mərhələsi olmuşdur. İqtisadiyyatda risk mühitinin yumşalması sosial-iqtisadi siyasətin diqqətini uzunmüddətli inkişaf hədəflərinə yönəltmiş, iqtisadi qərarların məntiqini dəyişmişdir: iqtisadi siyasət alətləri daha çox ölkədə iqtisadiyyatın potensialını genişləndirən istiqamətlərə fokuslanmışdır.

Nəticədə şaxələnmə, texnoloji yenilənmə və dayanıqlı inkişaf prinsipləri əsasında keyfiyyət dəyişikliyi sürətlənmişdir. Fiskal və monetar siyasət arasında koordinasiyanın güclənməsi, institusional islahatların ardıcıllığı və risklərin idarə olunması mexanizmlərinin təkmilləşdirilməsi iqtisadiyyatın daha stabil xarakter almasına şərait yaratmışdır. Bu mərhələdə milli iqtisadiyyatda artıq mövcud potensialın istifadəsi ilə yanaşı, yeni dəyər zəncirlərinin formalaşdırılması təmin olunmağa başlamışdır.

Ötən 10 ildə milli iqtisadiyyat ümumilikdə 16 faizə yaxın artmış, artımın əsas mənbəyi qeyri-neft sektorunun genişlənməsi olmuşdur: neft-qaz sektorunun azalmasına baxmayaraq, qeyri-neft sektoru 36% artmışdır. Artımın əsas hissəsi qlobal qeyri-müəyyənliyin kəskinləşdiyi son beş ildə formalaşmış, qeyri-neft sektorunda orta illik artım 6 faiz təşkil etmişdir. Bu dinamika iqtisadiyyatın sağlamlaşdığını, gəlir və məşğulluq kanalları vasitəsilə sosial-iqtisadi sabitliyi dəstəklədiyini göstərir.

Beləliklə, son onillikdə əldə olunan nəticələr sabitliyin iqtisadiyyatda aktiv transformasiyaedici amil kimi fəaliyyət göstərdiyini və artım mənbələrinin daha dayanıqlı əsaslar üzərində formalaşdığını təsdiqləyir. Bu əsasda ölkədə ötən illərdə müşahidə edilən mühüm dəyişikliklər kimi aşağıdakıları göstərmək olar:

1. Şaxələnmə qeyri-neft sektorunun dayaq xəttinə çevrilmişdir. Qeyri-neft sektorunun iqtisadiyyatda payının 71 faizi üstələməsi artım mənbələrinin tək bir sektorla məhdudlaşmaması, daxili istehsal və xidmət sahələrinin iqtisadi dinamikanın əsas dayaqlarına çevrilməsi deməkdir. Qeyri-neft sektorunun genişlənməsi həm məşğulluq, həm də vergi bazası baxımından dayanıqlığı gücləndirmişdir. Xidmət sahələrinin yüksək paya malik olması iqtisadiyyatın müasirləşməsini və bazar mexanizmlərinin dərinləşməsini nümayiş etdirir: tikinti, nəqliyyat, ticarət, ictimai iaşə və turizmdə artan fəallıq sosial ötürücülüyü gücləndirmiş, yeni məşğulluq imkanları yaratmışdır. Özəl sektorun 85 faizlik paya çatması sahibkarlığın rolunun artdığını və rəqabət mühitinin genişləndiyini təsdiqləyir. Qeyri-neft ixracının 2,8 dəfə artması isə şaxələnmənin xarici ölçüdə də keyfiyyət dəyişikliyi yaratdığını göstərir: ixracın coğrafiyası və məhsul strukturu genişləndikcə valyuta gəlirləri daha sabit xarakter alır, qlobal qiymət dəyişkənliyinin yaradacağı risklər azalır və mənfi təsirlərə qarşı ümumi makroiqtisadi dayanıqlıq möhkəmlənir.

2. Makroiqtisadi sabitlik mənfi təsirlərə qarşı çevik və davamlı sistemə çevrilmişdir. Uzun illər makroiqtisadi sabitliyin qorunması Azərbaycanın xarici iqtisadi şoklara qarşı davamlı sistem formalaşdırmasına imkan vermişdir. Neft qiyməti şokları və pandemiya kimi qlobal sınaqlar ölkədə makroiqtisadi sabitliyə fundamental təsir göstərə bilməmişdir. Strateji valyuta ehtiyatlarının 85 milyard ABŞ dollarını ötması və xarici borcun ÜDM-ə nisbətinin 6,5 faizə enməsi, habelə xarici valyuta ehtiyalarının idxalı dəfələrlə üstələməsi iqtisadiyyatda dayanıqlığın əsas göstəriciləridir. Bu çərçivə beynəlxalq maliyyə bazarlarında da müsbət qiymətləndirilmiş, kredit reytinqində yaxşılaşma makroiqtisadi sabitliyin beynəlxalq təsdiqinə çevrilmişdir. Prezidentin vurğuladığı kimi: "Bu gün Azərbaycanın kredit reytinqi yüksəlir. Bu, aparılan düşünülmüş iqtisadi siyasətin, fiskal intizamın və makroiqtisadi sabitliyin nəticəsidir." Reytinq dinamikası iqtisadiyyatın maliyyələşməsi xərclərini azaldır, uzunmüddətli borclanma imkanlarını genişləndirir və investisiya üfüqünü uzadır.

3. İnklüzivlik güclənmiş, iqtisadi artım sosial sabitliyə ötürülmüşdür. İqtisadi artım sosial göstəricilərə ötürülmüşdür ki, bu da məşğulluğun və gəlirlərin davamlı artımını təmin etmiş, iqtisadiyyatda böyümənin inklüziv xarakterini gücləndirmişdir. Qeyri-neft sektorunda yaradılan əlavə dəyərin mühüm hissəsinin xidmət sahələrində formalaşması bu sektoru həm artımın, həm sosial sabitliyin əsas daşıyıcısına çevirmişdir. Turizm, ictimai iaşə və nəqliyyat sahələrində genişlənmə məşğulluğu artırmış, muzdla işləyənlərin mühüm hissəsinin xidmət sektorunda cəmlənməsi artımın daha geniş əhali təbəqəsinə ötürülməsinə xidmət etmişdir. Orta aylıq əmək haqqı 2016-cı ildən 2,2 dəfə artaraq 499,8 manatdan 1 090 manata, orta pensiya isə 3 dəfə artaraq 177,6 manatdan 540 manata yüksəlmişdir. Gəlirlərin sabit artımı daxili tələbi gücləndirmiş, onun dayanıqlı olması isə xarici mənfi iqtisadi təsirlərin ötürülmə kanallarını zəiflətmişdir.

4. Texnoloji transformasiya başlamış və dəyər zəncirini genişləndirmişdir. Son illərdə texnoloji modernləşmə və rəqəmsal transformasiya iqtisadi artımın keyfiyyət göstəricilərini yüksəltmişdir. Ölkədə 9 sənaye parkı və 4 sənaye məhəlləsinin fəaliyyəti, qeyri-neft sənayesində istehsalın təxminən 1/5-nin yüksək və orta-yüksək texnoloji sahələrdə cəmlənməsi texnoloji dərinləşməni göstərir. 2016-cı ildən informasiya və rabitə sektorunda əlavə dəyərin 2 dəfədən çox artması transformasiyanın real nəticələr verdiyini təsdiqləyir. Sabit makroiqtisadi mühit investisiyaların daha çox texnoloji, innovativ və orta-yüksək dəyərli sahələrə yönəlməsini sürətləndirmiş, məhsul və xidmət istehsalı potensialının yüksəlməsini dəstəkləmişdir.

5. Postmünaqişə dövrü quruculuğu məqsədə çevrilmişdir. Postmünaqişə mərhələsində Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 22 milyard manatdan çox vəsait xərclənmişdir. Burada həyata keçirilən layihələr bərpanı iqtisadi potensialı genişləndirən kapital qoyuluşu kimi formalaşdırmışdır. Yeni yol və nəqliyyat infrastrukturu, enerji və kommunal şəbəkələr, sənaye və kənd təsərrüfatı zonaları bu ərazilərin iqtisadi dövriyyəyə inteqrasiyasını sürətləndirmişdir. Xüsusilə logistika və istehsal imkanlarının yaradılması regional iqtisadi fəallığın artmasına zəmin formalaşdırır.

Azərbaycan modelində fərqləndirici cəhət ondan ibarətdir ki, bərpa həm də ümumi iqtisadiyyatda struktur dəyişkliyin aləti olaraq nəzərdə tutulur. İnfrastruktur layihələri həm fiziki bərpa funksiyasını daşıyır, həm də gələcək istehsal və ticarət imkanlarını genişləndirən iqtisadi potensialın formalaşmasına xidmət edir. Qarabağ və Şərqi Zəngəzurun "sıfırdan qurulması" konsepsiyası bu yanaşmanın praktiki ifadəsidir: məqsəd köhnə təcrübələri təkrarlamadan daha məhsuldar və müasir regional iqtisadi sistem yaratmaqdır.

## Struktur dayaqlar: qeyri-neft sektoru, ixrac və tranzit

Prezident İlham Əliyevin müsahibələrdə səsləndirdiyi fikirlər göstərir ki, Azərbaycanın iqtisadi modeli üç əsas dayaq üzərində formalaşır: qeyri-neft sahələrin genişlənməsi, ixracın şaxələndirilməsi və tranzit imkanlarının kapitallaşdırılması. Bu üç istiqamət birlikdə iqtisadi artımın mənbə bazasını genişləndirir, artımı daha balanslı edir və iqtisadiyyatı xarici təsirlərə qarşı daha dayanıqlı hala gətirir.

Bu modeldə qeyri-neft sektoru mərkəzi rol oynayır. Qeyri-neft sahələrin genişlənməsi iqtisadi artımı daxili istehsal, xidmətlər və insan kapitalı üzərində qurur. Xüsusilə sənaye, aqrar emal, nəqliyyat, turizm, ticarət və xidmət sahələrinin inkişafı iqtisadiyyatın daxili dövriyyəsini gücləndirir, məşğulluq imkanlarını artırır və vergi bazasını genişləndirir. Qeyri-neft sektorunun artan payı iqtisadi artımın daha inklüziv xarakter almasına, gəlirlərin daha geniş əhali təbəqələrinə ötürülməsinə və sosial sabitliyin möhkəmlənməsinə xidmət edir. Bu sektor eyni zamanda iqtisadiyyatın şoklara həssaslığını azaldan əsas amortizator funksiyasını yerinə yetirir.

İxracın şaxələndirilməsi modelin xarici ölçüsünü tamamlayır. Enerji ixracı strateji əhəmiyyətini saxlayır, lakin qlobal enerji transformasiyası şəraitində daha müasir və dayanıqlı mənbələr üzərində qurulur. Bununla yanaşı, qeyri-neft ixracının artması qlobal qiymət dəyişkənliyinin daxili iqtisadiyyata ötürülməsini zəiflədir və tədiyə balansının keyfiyyətini yüksəldir. Burada əsas məsələ ixracın tərkibidir: emal və xidmət komponentlərinin artması valyuta gəlirlərini daha sabit edir, daxili dəyər zəncirlərini dərinləşdirir və istehsalın texnoloji səviyyəsini yüksəldir.

Tranzit imkanlarının genişlənməsi isə iqtisadi modelin məkan ölçüsünü formalaşdırır. Tranzit axınları ətrafında logistika, anbar, sığorta, maliyyə, emal və xidmət sahələrinin inkişafı əlavə dəyəri artırır və iqtisadi fəaliyyətin miqyasını genişləndirir. İqtisadi coğrafiya nəzəriyyəsinə görə, tranzit və ticarət xərclərinin azalması bazar ölçüsünü böyüdür, miqyas effektləri yaradır və iqtisadiyyatın potensial istehsal səviyyəsini yüksəldir. Bu baxımdan tranzit imkanlarının səmərəli idarə olunması investisiya qərarlarının zaman üfüqünü uzadır və istehsalın daha iri və səmərəli miqyasda planlaşdırılmasını stimullaşdırır.

Beləliklə, qeyri-neft sektorunun güclənməsi daxili istehsal və məşğulluq bazasını genişləndirir, ixracın strukturunun yaxşılaşması valyuta gəlirlərinin sabitliyini artırır, tranzit imkanlarının inkişafı isə iqtisadiyyatın məkan ölçüsünü böyüdərək miqyas effektləri yaradır. Bu üç istiqamətin sinerjisi Azərbaycanın yeni mərhələdə daha dayanıqlı, balanslı və uzunmüddətli iqtisadi inkişaf modelinə keçidini təmin edir.

## 2026-cı ilin büdcəsində sabitlik və inkişaf çərçivəsi

İqtisadiyyatın tərkib baxımından müasirləşməsi 2026-cı il üzrə fiskal siyasətdə də əksini tapir. Qəbul edilmiş dövlət büdcəsi Azərbaycanın yeni mərhələdə seçdiyi iqtisadi kursun fiskal müstəvidə ardıcıl və ehtiyatlı şəkildə dəstəkləndiyini göstərir. Büdcə gəlirlərinin 38,6 milyard manat, xərclərin isə 41,7 milyard manat səviyyəsində müəyyən edilməsi fiskal siyasətin mahiyyət etibarilə inkişafyönümlü, eyni zamanda, makroiqtisadi riskləri nəzərə alan balanslaşdırılmış xarakter daşıdığını təsdiqləyir. Burada əsas məqam təkcə xərclərin həcmi deyil, həmin xərclərin hansı iqtisadi məntiq üzərində qurulmasıdır.

Büdcə kəsirinin idarəolunan səviyyədə saxlanılması qısamüddətli fiskal genişlənmədən daha çox orta və uzunmüddətli makroiqtisadi dayanıqlığın qorunmasına üstünlük verildiyini göstərir. Bir tərəfdən, iqtisadi artımın dəstəklənməsi üçün zəruri fiskal impuls təmin olunur, digər tərəfdən isə dövlət borcunun və fiskal risklərin nəzarətsiz şəkildə artmasının qarşısı alınır. Bu yanaşma göstərir ki, 2026-cı il büdcəsi qısamüddətli genişlənməni deyil, orta və uzunmüddətli makroiqtisadi dayanıqlığı hədəfləyir. Başqa sözlə, fiskal siyasət artımı "borc hesabına sürətləndirmək" yox, mövcud fiskal imkanlar çərçivəsində keyfiyyətli artım yaratmaq məqsədi güdür.

Büdcə xərcinə nəzər yetirdikdə inkişaf prioritetlərinin aydın şəkildə seçildiyi görünür. Müdafiə və milli təhlükəsizlik xərclərinin artırılması təhlükəsizliyin iqtisadi inkişaf üçün ilkin və dəyişməz şərt kimi qorunduğunu göstərir. Postmünaqişə mərhələsində bu yanaşma xüsusi əhəmiyyət daşıyır: təhlükəsizlik yalnız siyasi sabitlik faktoru deyil, eyni zamanda investisiya qərarlarının, istehsal planlarının və uzunmüddətli iqtisadi layihələrin mümkünlüyünü təmin edən əsas iqtisadi şərtdir. Təhlükəsizlik xərcləri bu baxımdan iqtisadi fəaliyyət üçün baza xərci funksiyasını daşıyır.

Eyni zamanda, büdcədə insan kapitalına yönəlmiş xərclərin artması 2026-cı il fiskal siyasətinin strateji məzmununu daha da gücləndirir. Təhsil, səhiyyə və sosial müdafiə sahələrinə ayrılan vəsaitlərin artırılması göstərir ki, iqtisadi artım yalnız fiziki kapital və infrastruktur üzərindən deyil, əmək məhsuldarlığının yüksəldilməsi və insan potensialının gücləndirilməsi üzərindən də təmin edilməlidir. Makroiqtisadi baxımdan bu yanaşma xüsusilə əhəmiyyətlidir, çünki uzunmüddətli artım tempini müəyyən edən əsas amillərdən biri məhz insan kapitalının keyfiyyətidir. Təhsilə və səhiyyəyə qoyulan vəsaitlər qısa müddətdə xərc kimi görünsə də, uzun müddətdə iqtisadiyyatın potensialını artıran investisiyalardır.

Sosial müdafiə xərclərinin genişlənməsi isə fiskal siyasətin inklüziv xarakterini nümayiş etdirir. Sosial xərclər bu kontekstdə yalnız sosial ədalət məqsədi daşımır, onlar eyni zamanda daxili tələbin sabit saxlanılması, gəlir bərabərsizliyinin məhdudlaşdırılması və iqtisadi artımın sosial dayanıqlığının təmin edilməsi funksiyasını yerinə yetirir. Bu, postmünaqişə mərhələsində iqtisadi sabitliyin möhkəmləndirilməsi baxımından mühüm amildir.

2026-cı il büdcəsinin mühüm istiqamətlərindən biri də işğaldan azad edilmiş ərazilərin bərpasına və inkişafına 3,5 milyard manat vəsaitin ayrılmasıdır. Bu xərc maddəsi təkcə sosial və humanitar məqsədlərlə izah olunmur. Əksinə, bu vəsaitlər yeni iqtisadi məkanın formalaşmasına, istehsal və xidmət potensialının genişlənməsinə və regional iqtisadi inteqrasiyanın güclənməsinə yönəlmişdir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələr gələcək artımın əsasını qoyan kapital qoyuluşları kimi çıxış edir. Bu ərazilərin iqtisadi dövriyyəyə inteqrasiyası bazar ölçüsünü genişləndirir, logistika xərclərini azaldır və iqtisadiyyatın ümumi məhsuldarlıq səviyyəsinə müsbət təsir göstərir.

*Beləliklə, Azərbaycanın son onillikdə əldə etdiyi əsas iqtisadi üstünlük ayrı-ayrı makroiqtisadi göstəricilərin yaxşılaşması ilə məhdudlaşmır. Bu üstünlük iqtisadi sistemin işləmə məntiqinin dəyişməsi ilə xarakterizə olunur. İqtisadiyyatda qeyri-müəyyənliyin azalması onu məhsuldarlıq əsaslı mexanizmlərə yönəltmişdir. Nəticədə, iqtisadi siyasətin ötürücülük qabiliyyəti artmış, artımın keyfiyyəti və dayanıqlığı möhkəmlənmişdir.*

*Qarşıdakı mərhələdə mövcud sabitlik mühitinin qorunması, onun dərinləşdirilməsi və institusional üstünlüyə çevrilməsi hədəflənir. Bu, texnoloji transformasiyanın sürətləndirilməsini və qeyri-neft sektorunda məhsuldarlığı artıran islahatların davam etdirilməsini tələb edir. Yeni mərhələdə Azərbaycan üçün iqtisadi uğurun açarı sabitliyin özü və onun yaratdığı imkanların kapitallaşdırılmasıdır. Belə yanaşma qorunduğu təqdirdə milli iqtisadiyyatın daha yüksək məhsuldarlıq, daha geniş dəyər zənciri və daha dayanıqlı artım trayektoriyası üzrə inkişaf etmək potensialı genişlənəcəkdir.*

***Şaiq ADIGÖZƏLOV,***
***iqtisad üzrə fəlsəfə doktoru***

# Azərbaycanın “yaşıl” agentliklə qlobal tərəfdaşlığı genişlənir

**Qlobal iqlim çağırışları və enerji təhlükəsizliyi ilə bağlı risklərin artdığı bir dövrdə bərpaolunan enerji zəruri inkişaf istiqaməti hesab olunur. Bu kontekstdə Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin (IRENA) 16-cı Assambleyasının keçirilməsi dünya dövlətlərinin enerji keçidinə verdiyi strateji əhəmiyyəti bir daha nümayiş etdirir.**




“İnsanlığı gücləndirmək: bərpaolunan enerji ilə paylaşılan rifah” şüarı altında təşkil olunan tədbirdə yüksək səviyyəli rəsmilər, enerji siyasətini formalaşdıran qərarvericilər və beynəlxalq ekspertlər bir araya gəlib. Azərbaycan da bu mühüm platformada fəal iştirak edən ölkələr sırasındadır. Azərbaycan Energetika Nazirliyi yanında Bərpaolunan Enerji Mənbələri Dövlət Agentliyinin direktor müavini Rəna Hümbətovanın Assambleyada iştirakı ölkəmizin qlobal enerji gündəliyinə verdiyi töhfənin göstəricisidir.

Sessiyalar çərçivəsində bərpaolunan enerjiyə keçidin sürətləndirilməsi, iqtisadi inklüzivlik, sosial bərabərlik və insan rifahının təmin edilməsi kimi məsələlər müzakirə olunur. Eyni zamanda, “yaşıl” agentliyin “BƏƏ Konsensusu üzrə hədəflərin yerinə yetirilməsi” adlı ikinci hesabatının təqdimatı enerji sektorunda real irəliləyişlərin monitorinqi baxımından xüsusi əhəmiyyət daşıyır.

Azərbaycanın IRENA ilə əməkdaşlığı uzunmüddətli və institusional xarakter daşıyır. Ölkəmiz 2009-cu ildən Agentliyin üzvüdür və 2014-cü ildə Milli Məclisin qərarı ilə IRENA-nın nizamnaməsini ratifikasiya etməklə tamhüquqlu üzv statusu qazanıb. Daha sonra, 2023–2024-cü illər üzrə IRENA Şurasına üzv seçilməsi Azərbaycanın bu təşkilat daxilində artan nüfuzunun və etimadının göstəricisi kimi qiymətləndirilir. Bu üzvlük ölkəyə qlobal enerji siyasətinin formalaşdırılmasında daha aktiv rol oynamaq imkanı yaradır.

Azərbaycanın bərpaolunan enerji strategiyası milli inkişaf prioritetlərinin ayrılmaz hissəsidir. Son illərdə ölkə iqtisadiyyatının şaxələndirilməsi, enerji balansında “yaşıl enerji”nin payının artırılması və karbon emissiyalarının azaldılması istiqamətində ardıcıl addımlar atılır. Xəzər dənizi hövzəsində külək enerjisi, Qarabağ və Şərqi Zəngəzurda Günəş enerjisi potensialı Azərbaycanın bu sahədə geniş imkanlara malik olduğunu göstərir.

Bu istiqamətdə atılan konkret addımlardan biri 8 yanvar tarixində Prezident İlham Əliyevin tədbirdə çıxış etdiyi, “Gülüstan” sarayında keçirilən “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının rəsmi açılışıdır. Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti tərəfindən inşa edilən və 240 MVt gücə malik olan bu stansiya Azərbaycanın enerji tarixində mühüm mərhələ hesab olunur. Layihə illik minlərlə ton karbon emissiyasının qarşısının alınmasına, enerji təhlükəsizliyinin gücləndirilməsinə və “yaşıl enerji” ixracı potensialının formalaşmasına töhfə verir.

IRENA platformasında müzakirə olunan mövzular — kənd təsərrüfatı və qida sistemlərində bərpaolunan enerjinin tətbiqi, geotermal enerjinin inkişafı, enerji keçidinin maliyyə səmərəliliyi və kritik materiallar — Azərbaycanın enerji gündəliyi ilə üst-üstə düşür. Ölkə rəhbərliyi bu sahələri prioritet istiqamət kimi müəyyənləşdirərək beynəlxalq tərəfdaşlarla birgə layihələrin icrasına xüsusi önəm verir.

Azərbaycanın beynəlxalq qurumla əməkdaşlığı bilik və texnologiya mübadiləsi baxımından da mühüm əhəmiyyət kəsb edir. Agentliyin analitik hesabatları, texniki dəstəyi və qlobal təcrübəsi ölkəmizin bərpaolunan enerji layihələrinin daha səmərəli planlaşdırılmasına şərait yaradır. Bu əməkdaşlıq, eyni zamanda, Azərbaycanın Avropa və Asiya arasında “yaşıl enerji körpüsü” rolunu gücləndirir.

Nəticə etibarilə, Azərbaycan–IRENA münasibətləri qlobal enerji keçidinin real nümunəsinə çevrilir. Ölkəmizin təbii potensialı, siyasi iradəsi və beynəlxalq əməkdaşlığa açıq mövqeyi bərpaolunan enerji sahəsində dayanıqlı inkişaf üçün möhkəm zəmin formalaşdırır. Bu proses həm milli maraqlara, həm də qlobal iqlim məqsədlərinə xidmət edir.

Qeyd edək ki, Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində keçirilən Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin 16-cı Assambleyası çərçivəsində assambleyanın 17-ci sessiyasına prezident və dörd vitse-prezidentliyinə dair namizəd ölkələr təqdim edilib.

Coğrafi təmsilçilik və rotasiya qaydasına uyğun olaraq, assambleyanın 17-ci sessiyasına sədrlik üçün Asiya və Sakit okean regional qrupu üzrə Koreya Respublikasının namizədliyi təsdiqlənib. Assambleyanın vitse-prezidentləri isə digər dörd regional qrupun hər birindən üzv olmaqla formalaşdırılır. Vitse-prezidentlər vəzifəsinə Avropa və digərləri regional qrupundan Azərbaycanın, Afrika regional qrupundan Komor adalarının, Asiya və Sakit Okean regional qrupundan Tonqa Krallığının, Latın Amerikası və Karib dənizi regional qrupundan Qrenadanın namizədliyi təqdim edilib.

*Nurlan ABDALOV*
*XQ*

**Azərbaycan Qiymətləndiricilər Palatasının (AQP) illik ümumi hesabat yığıncağı keçirilib. Tədbirdə Palata rəhbərliyi, üzvlər, qiymətləndirici təşkilatların nümayəndələri və müvafiq qurumların təmsilçiləri iştirak ediblər.**

# Qiymətləndiricilər Palatası hesabat verib



Yığıncaqda **Azərbaycan Qiymətləndiricilər Palatasının sədri Nüsrət İbrahimov** hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, hesabat dövrü Palatanın institusional möhkəmlənməsi, normativ bazasının təkmilləşdirilməsi və beynəlxalq inteqrasiyanın dərinləşdirilməsi baxımından mühüm mərhələ olub. “Qiymətləndiricinin elektron portalı”nın istifadəyə verilməsini palatanın fəaliyyətində strateji əhəmiyyət daşıyan yenilik kimi dəyərləndirən N.İbrahimov bildirib ki, bu platforma qiymətləndirmə fəaliyyətində şəffaflığın artırılması, əməliyyat proseslərinin sürətləndirilməsi və məlumatların vahid, standartlaşdırılmış mühitdə idarə olunmasına xidmət edir. Vurğulanıb ki, portal, eyni zamanda, dövlət informasiya sistemləri ilə qarşılıqlı inteqrasiyanın gücləndirilməsi və gələcəkdə avtomatlaşdırılmış qiymətləndirmə modelinin tətbiqi üçün mühüm texnoloji baza rolunu oynayır.

Palata sədri diqqətə çatdırıb ki, hazırda Palatada 175 fərdi qiymətləndirici qeydiyyatdan keçib və onların 125-i qiymətləndirici təşkilatlarda fəaliyyət göstərir. Bu göstəricilər ölkədə qiymətləndirmə bazarının institusional inkişafının və Palatanın sahə üzrə aparıcı platforma kimi mövqeyinin gücləndiyini nümayiş etdirir. N.İbrahimov AQP-nin Beynəlxalq Qiymətləndirmə Standartlarına (IVS-2025) uğurla inteqrasiya olunduğunu qeyd edərək, bu istiqamətdə həyata keçirilən tədbirlərin qiymətləndirmə fəaliyyətinin keyfiyyətinin yüksəldilməsinə və beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına xidmət etdiyini bildirib.

Məruzəçi ötən il Palata rəhbərliyinin xarici səfərləri, eləcə də Bakıda keçirilən beynəlxalq tədbirlər çərçivəsində qurulan əməkdaşlıq əlaqələrinin əhəmiyyətini vurğulayıb. Beynəlxalq inteqrasiyanın əsas istiqamətlərindən biri kimi normativ və metodoloji bazanın beynəlxalq tələblərə uyğunlaşdırılması sahəsində əldə olunan nəticələr xüsusi qeyd edilib.

Palata üzvlərinin çıxışları və müzakirələrindən sonra Azərbaycan Qiymətləndiricilər Palatasının 2026-cı il üçün fəaliyyət planı və büdcə layihəsi səsə qoyularaq təsdiq edilib. Yığıncaq qarşıdakı dövrdə qiymətləndirmə sahəsində institusional inkişafın davam etdirilməsi və beynəlxalq standartlara uyğun fəaliyyətin gücləndirilməsi ilə bağlı qərarlarla başa çatıb.

*XQ*

# Sabirabad su filtrləri xarici bazarlarda

## *Ölkəmizdə istehsal olunan belə məhsullara dünyada tələbat çoxalır*

**Sabirabad Sənaye Məhəlləsində “Fırtına Su Sistemləri” Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) su filtrlərinin istehsalı müəssisəsindəyik, istehsal sahəsində gərgin iş gedir. Hər bir əməkdaş diqqətini məhsulun dəqiq və keyfiyyətli olmasına yönəldib. Hazırlanan məhsullar zəncirvari şəkildə bir-birinə ötürülür. Sonda isə bütün detallar cəmləşərək qablaşdırılır və qutuya suyu təmizləmək üçün istifadə olunan iplərdən hazırlanan ehtiyat hissələri qoyulur.**

Müştərinin istəyinə əsasən 5, 6 və 7 tipli filtr istehsal olunmaqla qablaşdırılır. Şirkətin əsas işi mayelərin təmizlənməsi və filtrilizasiya olunmasıdır.

Qeyd olundu ki, müəssisədə istehsal Çin texnologiyası əsasında həyata keçirilir. İnvestisiya tam şəxsi vəsait hesabına təmin olunub:

– Hazırda 23 işçimiz var, gələcəkdə onların sayı 50 nəfərə qədər artacaq. Çünki istehsal etdiyimiz məhsullar keyfiyyəti ilə alıcıların böyük rəğbətini qazandığından məhsullarımıza yerli və xarici bazarda da tələbat artır. İstehsal etdiyimiz məhsullar daxili bazarla yanaşı, ölkə xaricində də rəqabətli məhsul kimi satılır. Qeyd edək ki, 150 min məhsulumuz Özbəkistan, Qazağıstan və Türkiyə bazarlarında satılıb. Gələcəkdə digər xarici ölkələrə də satışı nəzərdə tutulur.




MMC 2024-cü ildə Sabirabad Sənaye Məhəlləsinin rezidenti kimi qeydiyyata alınıb. Layihə dəyəri təxminən 1,2 milyon manat olan müəssisədə Çin texnologiyası əsasında mayenin süzülməsi və təmizlənməsi üçün avadanlıqlar istehsal edilir. Burada istehsal edilən cihaz və ehtiyat hissələri daxili bazara çıxarılmaqla yanaşı, hazırda Qazaxıstan, Özbəkistan və Türkiyəyə də ixrac edilir və beynəlxalq bazarda ona olan tələbat yüksəlir.

**Cəmiyyətin baş ustası İbrahim Kərəmov** bildirdi ki, 2024-cü il oktyabr ayının 10-dan fəaliyyət göstərən müəssisədə su filtrləri istehsal edilir.

Azərbaycanda buraxılan bu markalı su filtrləri keyfiyyəti ilə seçildiyindən və diqqəti cəlb etdiyindən ona beynəlxalq bazarda da tələbat durmadan artır. Çünki əksər xarici ölkələrdə təmiz suya ehtiyac çoxalır.

*Mikayıl NƏRİMANOĞLU,*
*XQ-nin bölgə müxbiri*

# TAP kəmərinin ötürmə gücü 1,2 milyard kubmetr artıb

## *Bugünədək isə Avropaya 54 milyard kubmetr “mavi yanacaq” ixrac edilib*

**Trans-Adriatik Qaz Kəmərinin (TAP) ötürücülük gücünün genişləndirilməsi üçün 2025-ci il bazar sınağının qeyri-məcburi fazasının yenidən nəzərdən keçirilməsi dövrü yanvarın 16-dək açıqdır. Bu barədə “Trans Adriatik Pipeline” (“TAP AG”) konsorsiumu məlumat verib.**



Bildirilib ki, bu müddət ərzində bütün maraqlı tərəflər 2025-ci ilin iyul–sentyabr aylarında tələblə bağlı qəbul edilmiş qeyri-məcburi müraciətləri yenidən nəzərdən keçirə bilərlər. “Həmin dövrdə yeni iştirakçılara da tələbin qiymətləndirilməsi hesabatının hazırlanması zamanı nəzərə alınmaq üçün bazar sınağı çərçivəsində qeyri-məcburi müraciətlər təqdim etməyə imkan yaradılıb. Sonda 3 qaz nəqli sisteminin operatoru tərəfindən birgə dərc ediləcək”.

“TAP AG” qeyd edib ki, əgər tələbin qiymətləndirilməsi hesabatının hazırlanmasında bazar testinin məcburi fazasına keçidin məqsədəuyğunluğu təsdiq olunarsa, bu zaman qaz kəmərinin növbəti genişləndirilmə mərhələsinə bir şərtlə başlanılacaq ki, ötürmə gücü üçün yetərli sayda məcburi uzunmüddətli müraciət təqdim edilsin. Bazar sınağı çərçivəsində daxil olan məcmu məcburi müraciətlər isə yekun investisiya qərarı qəbul edilməzdən əvvəl mütləq şəkildə iqtisadi məqsədəuyğunluq testindən keçəcək.

Konsorsiumdan onu da bildiriblər ki, yanvarın 1-dən kəmərin ötürmə gücü əlavə olaraq ildə 1,2 milyard kubmetr genişləndirilib, bu da Xəzər qazının Avropaya nəqlinə başlanmasından 5 il sonra baş verib. Qurumun qiymətləndirmələrinə görə, bu, TAP-ın etibarlılığını və Avropaya qaz tədarükünün şaxələndirilməsində əhəmiyyətli rolunu bir daha təsdiq edir.

2024-cü ilin yanvarında başlayan genişləndirmə işləri vaxtından əvvəl və təsdiqlənmiş büdcə çərçivəsində, cari qaz təchizatında fasilə olmadan və bütün təhlükəsizlik tələblərinə riayət olunmaqla başa çatdırılıb. Genişləndirmə çərçivəsində yeni kompressor aqreqatları quraşdırılıb, eləcə də Kipoi kompressor stansiyasında mövcud infrastruktur modernləşdirilib. Bu isə layihənin yüksək səviyyədə planlaşdırılmasını və əməliyyat dayanıqlığını nümayiş etdirir.

Yeri gəlmişkən, TAP-ın Yunanıstandakı sistemlərarası birləşmələri, eləcə də qaz kəmərinin İtaliyada quruya çıxış nöqtəsi yükgöndərənlər üçün digər Avropa bazarlarına geniş giriş imkanları təmin edir.

Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP Azərbaycan qazının Xəzər regionundan Avropaya nəqli üçün nəzərdə tutulub. Uzunluğu 878 kilometr olan və 2020-ci il noyabrın 15-də kommersiya istismarına verilmiş qaz kəməri Yunanıstan, Albaniya, Adriatik dənizi və İtaliyadan keçir. Bu günədək Trans-Adriatik Qaz Kəməri vasitəsilə Avropaya 54 milyard kubmetrdən çox Azərbaycan qazı tədarük edilib.

Xatırladaq ki, ölkəmiz 2020-ci il dekabrın 31-də Avropaya qaz ixracına başlayıb. Azərbaycan və Avropa İttifaqı arasında əldə olunmuş razılaşmalara əsasən, 2027-ci ilə qədər Azərbaycan qazının Avropaya tədarük həcmi ildə, ən azı, 20 milyard kubmetrə çatmalıdır.

*XQ*

I Türkoloji Qurultay – 100

# 100 il əvvəldən gələn səslər

## Ən maraqlı məruzələrin icmalı və şərhi

*(əvvəli qəzetimizin 7 və 9 yanvar 2026-cı il tarixli saylarında)*

**Aşmarin türkologiyanın inkişaf tarixini izah edərkən onu Avropa dilçilik ənənəsi ilə sıx şəkildə əlaqələndirir və xüsusilə XIX əsrin ikinci yarısını dönüş nöqtəsi kimi göstərir. Bu dövrə qədər türk dillərinin tədqiqi sistemsiz, çox zaman da yanlış metodlarla aparılırdı. Əsas istiqamət yalnız Osmanlı türkcəsi üzərində qurulduğundan, geniş Türk dünyasının dili sanki arxa plana atılmışdı. Aşmarinin vurğuladığı əsas yanlışlardan biri Avropa qrammatika normalarının türk dillərinə mexaniki şəkildə tətbiqi idi. Səslərin fonetik təsvirindəki qeyri-dəqiqlik və dil hadisələrinin öz daxili qanunauyğunluğu nəzərə alınmadan izahı həmin dövrün elmi səviyyəsini məhdudlaşdırırdı.**

Betlinqin "Yakut dili qrammatikası" bu mənzərəni dəyişən ilk addım oldu. Aşmarin bu əsəri "elmi türkologiyanın başlanğıcı" kimi səciyyələndirir. Betlinqin əsas yeniliyi türk dillərinin fonetik quruluşunu real müşahidə əsasında təsviri, Avropa dillərinin qəliblərini tətbiq etməməsi idi. Bu, gələcək tədqiqatların istiqamətini müəyyənləşdirdi. Ardınca Kazanda yazılan "Altay dillərinin qrammatikası", Bobrovnikovun monqol və kalmık dilləri ilə bağlı işi, Radlovun monumental fəaliyyətləri bu yeni metodun sistemləşməsinə səbəb oldu.

Aşmarin Radlovu türk dillərinin canlı mənbədən öyrənilməsini təmin edən ən böyük simalardan biri kimi təqdim edir: onun Sibir, Volqaboyu, Krım, Orta Asiya ekspedisiyaları türklərin dialekt mənzərəsini ilk dəfə real şəkildə xəritələndirmişdi. Radlovun topladığı folklor nümunələri, epiqrafik tapıntılar, qədim mətnlərin nəşri, geniş lüğətlər təkcə dilçiliyə yox, bütöv türk mədəniyyətşünaslığına əsas yaradırdı.

Aşmarin, həmçinin Malovun "Altun Yaruk" və "Kutadqu bilik" üzərindəki çalışmalarını vurğulayaraq bu cür mətn nəşrlərinin türk filologiyasını nə qədər irəli apardığını qeyd edir. Tomsenin 1893-cü ildə Orxon-Yenisey yazılarını oxuması isə türkologiya elmini tamamilə yeni mərhələyə çıxardı. Aşmarinin fikrincə, bu kəşf təkcə qədim dilin deyil, qədim türk dövlətçiliyinin, mədəniyyətinin, ideologiyasının anlaşılması üçün qapı açdı və Radlovun həmin yazıların şərhində fəal iştirakı bu sahənin elmi əsasını möhkəmləndirdi.

Aşmarin daha sonra türkologiyanın öz dövrünədək çatdığı nəticələri dərin ümumiləşdirmə ilə göstərir və bütün çatışmazlıqların mahiyyətini bir problemə - türk dialektlərinin elmi təhlilinin hələ də sistemsiz qalmasına bağlayır. Azərbaycan dilinin sintaksisindən tutmuş yakut fonetikasına qədər, türkmən lüğətçiliyindən Qafqaz türklərinin dialektologiyasına qədər bütün sahələrdə fraqmentlik və natamamlıq müşahidə olunur. O, sintaktik hadisələrin yalnız məntiqi izahlarla məhdudlaşdırılmasını əsas metodoloji yanlışlıq kimi göstərir, çünki türk cümlə quruluşunda psixoloji, kommunikativ amillər xüsusi rol oynayır. Bu təklif öz dövrü üçün çox yeni idi.

Aşmarinin ən maraqlı ideyalarından biri təqlidi sözlərlə bağlıdır. O bu sözləri "prototürk düşüncəsinin arxaik izləri" adlandırır. Onun fikrincə, bu sözlər dilin o qədim qatına işarə edir ki, orada sözlər semantik konvensiya vasitəsi deyil, birbaşa duyğunun və hissin səsi idi. Bu yanaşma həm dil tarixi, həm də etnopsixologiya baxımından fövqəladə dəyər daşıyır. Çünki o, dilin yalnız "nə deməkdir?" yox, "necə yaranmışdır?" sualını da açır. Aşmarinə görə, türk dillərindəki bu arxaik qatın öyrənilməsi bütöv etnosun ibtidai dünyagörüşünü yenidən qurmağa imkan verə bilər.

Aşmarin dilin hər sözünü qədim həyat tərzinin bir fraqmenti kimi şərh edir: unudulmuş adətlərin izi, mifoloji təfəkkürün kölgəsi, ibtidai melodiyaların qalıqları burada yaşayır. Onun üçün türkologiya yalnız qrammatika deyil, həm də psixologiya, mədəniyyət, tarix və qədim düşüncə sisteminin bərpa edilməsidir.

**Tarixçi-türkoloq Aleksey Makaroviç Sabaşkin** geniş məruzə ilə çıxış etməsə də, fikirlərini bölüşür. İradını bildirir ki, çıxış edən məruzəçilər dağlıq Altay xalqlarının öz qrammatikasının olduğunu qeyd etdilər. Bu faktı danmaq olmaz, Aşmarin bu qrammatikanın ümumiyyətlə xalqımız üçün yararlı olduğunu, tələblərə cavab verdiyini bildirdi, universallığından danışdı. Şübhəsiz ki, universaldırsa, bütün tələblərə cavab verməlidir. İştirakçıların çoxuna məlumdur ki, kiçik xalqlar və tayfaların öz ədəbiyyatları olmayıb və onlar şifahi ədəbiyyat nümunələrini kitab şəklində qeydə almayıblar, lakin dini ədəbiyyat vardı.

O qeyd edir ki, akademik Radlovun qrammatikasında Altay qrammatikasının əsas xüsusiyyətinə görə bütün feillər cümlə sonunda gəlir. Əgər tamamlıq tabeli cümlə olarsa, feili 20-30 söz sonra qoymalıyıq. Nəticədə, tam mənasızlıq yaranar və cümlənin linqvistik mənası itər. Bu mənada, mən yeni cərəyanın tərəfdarıyam. Demək istəyirəm ki, cümlənin formasından asılı olmayaraq, feili həmişə axırda yerləşdirmək lazım deyil. Əgər müəllif feili asılı cümlədən, yaxud tamamlıqdan əvvəl yerləşdirmək istəyirsə, mane olmaq lazım deyil. Sabaşkin daha sonra Altay qrammatikasının yaranması haqqında fikrini belə ifadə edir: "Altay qrammatikasını tərtib edən akademik Radlov və İlyinski belə bir metoddan istifadə etmişlər: onlar ruhanilərin yanına gedir, danışıqlarını dinləyir, məntiqi olaraq fikirlərini necə ifadə etdiklərinə dair sorğu-sual edirdilər. Lakin dilin bütün incəliklərinə varmaq üçün bu dilləri bilmək lazım idi. Aydındır ki, bu zaman bəzi səhvlərə yol verilmişdir və onlar elmi nəticələr əldə edə bilməmişlər".

* * *

Sabaşkin türkologiyada "Altay qrammatikası" ətrafında gedən mübahisələrin, daha dəqiq desək, qrammatik norma pobleminin ətrafında məruzə edir. O, əvvəlcə Aşmarinin fikrinə istinad edərək Altay xalqlarının qrammatik sisteminin mövcudluğunu təsdiqləsə də, onun "ümumxalq baxımdan yararlı və universal" olmasının şübhə doğurduğunu bildirir: "Yerinə yetirilməsi mümkün olan qrammatika real danışıq dilindənmi çıxmalıdır, yoxsa qrammatik normalar elmi şəkildə kənardanmı tərtib olunmalıdır?" – Bu, əslində XIX–XX əsr dilçilik müzakirələrində ən kritik suallardan biridir.

Sabaşkin Altay qrammatikasının əsas prinsipi kimi göstərilən "feilin cümlə sonunda gəlməsi" qaydasını mexaniki və ifrat şəkildə tətbiq edən metodologiyanı tənqid edir. Onun fikrincə, sintaktik qaydanın bu qədər sərt və zəruri şəkildə tətbiqi təbii danışığa ziddir. Dilin öz daxili ritmi, semantik vurğusu, məna axını var – əgər feil süni şəkildə 20–30 söz sonrasında gəlirsə, cümlənin strukturu dağılır, mənanın lokal mərkəzləri dəyişir və nəticədə, "linqvistik məna itir". Bu etiraz yalnız sintaksis məsələsi deyil, dilin məntiqi ilə təbii şifahi axın arasındakı ziddiyyətə işarədir.

Daha sonra Sabaşkin "yeni cərəyan" adlandırdığı yanaşmanı müdafiə edir: qrammatika preskriptiv deyil, deskriptiv olmalıdır, yəni dilin canlı istifadəsini əks etdirməli, danışanın təbii intonasiyasına, vurğu dinamikasına mane olmamalıdır. O qeyd edir ki, müəllif feili tamamlıqdan əvvəl işlətmək istəyirsə, qrammatika buna mane olmamalıdır. Bu, türkologiyada çox erkən dövrdə "sərt qayda – real dil istifadəsi" paradoksunun açıq şəkildə dilə gətirilməsidir.

Sabaşkin məruzəsində Radlov və İlyinskinin Altay qrammatikasını necə tərtib etdiklərinə də münasibət bildirir. Bu prosesin elmi baxımdan məhdudiyyətlərini izah edir: "Onlar ruhaniləri dinləyərək, yəni dini mətn daşıyıcılarını əsas mənbə kimi götürərək qrammatika yazıblar. Nəticə etibarilə, iki mühüm problem ortaya çıxır:

1. Ruhanilərin dili ümumxalq dili deyil. Onların nitqi ritual, dini və arxaik mətn ənənəsinə bağlıdır. Belə bir mənbədən alınan sintaksis xalq danışığını təmsil etmir.

2. Tədqiqatçıların dili bilmədən yalnız dinləmə və məntiqi təhlil yolu ilə qrammatika tərtib etmək cəhdləri yanlış nəticələrin mümkünlüyünü qaçılmaz edir: Radlov və İlyinski incəliklərə bələd olmadıqları üçün elmi nəticələr çıxarmaqda çətinlik çəkiblər. Bu, həm də o dövrün türkologiyasının elmi metod problemini göstərir: böyük adların belə işləri çox zaman qeyri-sabit empirik bazaya söykənirdi.

Məruzənin alt qatında belə bir qənaət aydın şəkildə görünür: Altay qrammatikasının "universallığı" iddiası elmi deyil, konstruktiv layihədir və real dil faktları ilə sərhədi tez-tez aşır. Sabaşkin həm sintaktik prinsipin həddindən artıq idealizə edilməsini, həm də qrammatika tərtibi prosesinin empirik zəifliyini göstərərək türkologiyanın bu sahədə daha ciddi, daha geniş materiala əsaslanan təkmilləşməyə ehtiyacı olduğunu vurğulayır.

**Malov** "Qədim türk dillərinin öyrənilməsi" mövzusunda etdiyi məruzədə İran əsilli soqdilərin türklərə təsirindən, təkcə uyğur əlifbası deyil, runik yazılarının da e. I əsrinə aid edilən qədim soqdi əlifbasına əsaslandığı barədə məlumat verir. O qeyd edir ki, runik yazıları ilə yazılmış abidələr I Pyotrdan əvvəlki dövrdə Yenisey çayı hövzəsindən bizə məlumdur. 1889-cu ildə bu abidələrə Kül-Tigin abidəsi də əlavə olundu. 1893-cü ilədək bu abidələr haqqında səthi məlumat vardı, biz bu abidələrin kimə məxsus olduğunu, hansı dildə yazıldığını və məzmunu bilmirdik. Yalnız 1893-cü ildə Tomsenin kəşfi sayəsində bu abidələrin türklərə aidliyi və mətnlərinin oxunaqlılığı məlum oldu.

Orxon daş abidələri həcminə görə nəhəngdir və üzərində 5000-ə qədər runik işarə var. Yazılı türk abidələrindən başqa Çin Türküstanında arxeoloji qazıntılar zamanı 102 səhifədən ibarət kağız abidə




tapılmışdır. Düzdür, Yenisey abidələri, qədim qırğızların dili indiyədək özündə bir çox aşkar edilməmiş, müəmmalı məqamları saxlayır; bu, yazının tam formalaşmaması ilə izah oluna bilər. Bu abidələr Orxon-Selenq abidələrindən 2-3 əsr əvvələ aid edilir. Runik yazı sistemi ilə yanaşı, türklər arasında digər yazı sistemi – uyğur yazısı da mövcud olmuşdur. Uyğur yazılı abidələri sayca runik yazılı abidələrindən olduqca çoxdur; buddizm mədəniyyəti, xristian, manixey yazılı abidələri var, lakin bunlardan da əvvəl uyğur-müsəlman yazısı olmuşdur. Ən geniş yayılmış yazılı abidə "Altun yaruk" və "Abidarma kuş" adlı əlyazmanı Şteyn gətirmişdir, əlyazma Ross tərəfindən araşdırılır. Mövcud olan digər mətn yazılarının adlarını sadalamağa ehtiyac yoxdur.

Malov qeyd edir ki, uyğur abidələri müxtəlif əsrlərə və mədəniyyətlərə – son abidələr XVIII əsrə (1702), ən qədim abidələr VII – VIII – IX əsrlərə aiddir. Bu abidələr Çin Türküstanının müxtəlif bölgələrində, Bağdadda, Heratda, Kaşğarda tapılmışdır. Bütün bunlar uyğur dilinin öyrənilməsinin çətinliyinə işarə edir. Malovun qənaətinə görə, uyğur yazılı ədəbi dili VIII və X əsrlər arasında formalaşmış və 1702-ci ilə qədər süni şəkildə qorunub saxlanılmışdır. Bu, əsasən, tərcümə dili idi. Canlı, həqiqi uyğur dilini təsəvvür etmək çətindir.

Müasir uyğur dili – sarı uyğurların dili də, şübhəsiz ki, çox qədimdir, lakin yazılı ədəbi uyğur dili ilə üst-üstə düşmür. Samoyloviçin təsnifatı ilə tanış olanlar üçün bir nümunə göstərək: bu, "z" dialekt qrupuna, ədəbi uyğur dili "d" (adak) dialekt qrupuna aiddir. Odur ki, dil məsələsi burada Çin, Tibet, Hind və digər dillərdən tərcümə, kitab və sünilik ilə mürəkkəbləşir.

Malov deyir: "Mən müsəlman xarakterli uyğur yazısını ayrı qeyd edirəm. Burada iştirak edənlərin çoxuna "Kutadqu bilik" əsəri yaxşı məlumdur. Bu kitabın 3 əlyazması var: biri Vyanada Saray kitabxanasında, ikincisi Qahirədə, üçüncüsü isə Fərqanədə tapılmışdır. Digər mühüm kitab Mahmud Kaşğarinin tez-tez adını çəkdiyimiz "Divanü lügat-it-türk" əsəridir. Bu kitabın nəşri üçün İstanbul türkoloqlarına minnətdar olmalıyıq.

O, tarixi uyğur və Orxon dilləri ilə yanaşı, müxtəlif dövrlərə və türk tayfalarına aid başqa abidələrin də mövcud olduğu barədə məlumat verir. Məsələn, müasir xristian-türk əhalisinin, hazırda poloves (kuman) dili. Osmanlı və Səlcuq dillərinə də maraq artmaqdadır. Yaxın zamanlarda "Səlcuq şeirləri" adlanan yeni mətnlər də ortaya çıxmışdır.

* * *

Malov qədim türk dillərinin araşdırılmasında yazı sistemlərinin mənşəyinə və coğrafiyasına xüsusi önəm verir. Məruzəsinin əsas xətti budur: türk dillərinin tarixi yalnız Orxon abidələri ilə məhdudlaşmır; çoxqatlı və müxtəlif mənbəli yazı ənənəsi mövcuddur. Məruzənin bu müstəvidə təhlili Malovu qurultayda "tarixi-linqvistik arxeologiya" yönümlü spikerə çevirmişdir.

Malovun ən mühüm tezislərindən biri runik yazıların və uyğur əlifbasının kökündə İran mənşəli soqdi əlifbasının dayanmasıdır. Bu, türkologiya üçün iki cəhətdən əhəmiyyətlidir: türklərin yazı ənənəsinin tam "autoxthon" olmadığına işarə edir və qədim türk mədəniyyətinin İran – Soqd mədəni arealı ilə güclü təmasda olduğunu göstərir. Bu fikir qurultayda "yazı sistemlərinin xarici təsirlər altında formalaşması" mövzusunu açan ən açıq tezislərdən biri idi. Malov runik abidələrin tarixinin xronoloji ardıcıllığını şərh edir:

1. Yenisey abidələri (I Pyotrdan əvvəlki dövr).

2. Kül-Tigin abidəsinin aşkar edilməsi.

3. Tomsenin kəşfi (1893) – türk runik yazısının oxunması.

Malov tarixiliklə elmi kəşf arasındakı fərqi vurğulayır: "Tomsen onları oxuyana qədər abidələr var idi, amma dil olaraq mövcud deyildi". O bu kəşfi türkologiya sahəsində dönüş nöqtəsi kimi təqdim edir. Uyğur yazılarına zənginlik və müxtəliflik prizmasından yanaşır: "Uyğur abidələri buddist, manixey, xristian, müsəlman təmayüllü mətnləri ehtiva edir. Coğrafiyası isə genişdir: Kaşğar, Turfan, Herat, Bağdad və s. Uyğur yazısı runikdən, bu isə uyğur dilinin tədqiqini həm zəngin, həm də qarışıq edir". Malovun qənaətinə görə, uyğur ədəbi dili süni, tərcüməyönümlü, müxtəlif dillərin təsiri altında formalaşmış bir dildir. Bu səbəblə real, "canlı" uyğur dilini təsəvvür etmək çətindir; qədim uyğur ədəbi dili ilə müasir sarı uyğur dili isə eyni deyil; Samoyloviçin təsnifatında dialekt fərqi bunu sübut edir. Uyğur dili tədqiqatı burada həm dil, həm də mədəniyyət tarixi problemi kimi ortaya çıxır.

Malovun xüsusi vurğuladığı iki abidə: "Kutadqu bilik" (Vyana, Qahirə, Fərqanə əlyazmaları) və "Divanü lügat-it-türk" (burada İstanbul alimlərinin nəşr xidməti xüsusi qeyd olunmalıdır – N.M.).

Malov ərəbdilli və müsəlman uyğur mətnlərini digər uyğur yazı ənənələrindən ayırır. Bu fərqləndirmə, əslində, onun "uyğur yazı ənənəsinin monolit deyil, çoxqatlı sistem olduğu" fikrini bir daha təsdiqləyir. Malov qəti şəkildə diqqəti Orxon–Uyğur ikiliyindən ayırır və göstərir ki, türk dillərinin yazılı tarixi çoxmədəniyyətli, çoxetnoslu və mərhələli sistemdir. Bu sıraya xristian türklərinin mətnləri, poloves (kuman) dili, səlcuq şeirləri, başqa lokal epiqrafik nümunələr daxildir.

O, xüsusilə vurğulayır ki, qədim türk dillərini öyrənmək çətindir, çünki yazılı ənənə monolit deyil – çoxqatlı, çoxmədəniyyətli və çoxdilli sistemdir. Bu çətinliklərin səbəbi yazı sistemlərinin müxtəlif mənşəyi (soqdi, runik, uyğur–İran tipli), abidələrin geniş coğrafiyaya səpələnməsi, dilin müxtəlif məzhəblər və mədəniyyətlər tərəfindən dəyişdirilməsi, dialekt və ədəbi dil fərqlərinin böyük olması, ədəbi dilin çox zaman süni, tərcümə xarakterli olmasıdır.

Bu geniş perspektiv Malovun türkologiyada "etnoqrafik plüralizm" xəttini təmsil etdiyini göstərir.

**Samoyloviç** "Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və yaxın perspektivləri" mövzusunda məruzəsində I Türkoloji Qurultayın türkologiya elminin tarixində yeni dövrün başlanğıcına təsadüf etdiyini xüsusilə vurğulayır: "Türk xalqlarının elmi baxımdan planlı və sistemli şəkildə öyrənilməsi ayrı-ayrı tədqiqatçının işi deyil; illər öncə toplanmış zəngin materialların öyrənilməsi kollektiv əmək tələb edən işin ilk mərhələsidir. Bu işin ikinci fərqli, bəlkə də daha mühüm xüsusiyyəti yeni, daha potensiallı, fəal işçi qüvvələrinin cəlb olunmasıdır".

Samoyloviç canlı türk dillərinin öyrənilməsi istiqamətində görülən işlər haqqında xəritəyə əsasən dolğun izah verir: "Xəritənin şimal-şərq hissəsində qəhvəyi rəng ilə qeyd olunmuş ərazi yakutların məskunlaşdığı – mərkəzdən uzaq Yakut Muxtar Respublikasıdır. Buna baxmayaraq, yakut dili elmi cəhətdən xeyli öyrənilmiş, lüğətlər hazırlanıb çap olunmuşdur. Türk dillərinə dair yazılmış ən mükəmməl iş akademik Betlinqə məxsusdur ("Yakut qrammatikası"). Onu da qeyd edim ki, yakut xalqı arasından da öz dil və ədəbiyyatını öyrənənlər olub, indi də var. Bunların əsasında yakut dili ilə əlaqədar görülən işləri daha da təkminləşdirmək üçün Yakutiya ərazisi üzrə ayrı-ayrı xalqların ləhcə xüsusiyyətlərinin öyrənilmə istiqamətinə diqqət edin. Asiyadan Avropaya doğru, Yenisey çayı hövzəsində saqay, kaçin, abakan türklərindən təşkil olunmuş kiçik xalqlar, daha Cənub-şərq istiqamətində, Sayat silsiləsindən cənubda Uryanxay ərazisində məskunlaşmışlar. Soyot, abakan türkləri haqqında kifayət qədər yazılı abidələr var. Qaraqaslar Yer kürəsində türk xalqları arasında mövcud olan (400 nəfər) ən xırda xalqdır. Təəssüf ki, onlar da tədqiqatçıların nəzərindən qaçıb. Lakin Katanov bu xalq haqqında material toplamış, həmçinin Rodlovun redaktəsi ilə nəşr olunmuş "Türk tayfalarının xalq ədəbiyyatı nümunələri"nin 9-cu cildində də qeyd olunmuşdur.

O, xəritə üzrə irəlilədikcə, digər türk xalqları, məsələn, Çin ərazisində yaşayan sarı uyğurların adını qeyd edərək, bu sahə üzrə Malovun tədqiqat işini xüsusi vurğulamışdır: "Malov Sibirdə, Altayda olmuş, orada yaşayan tayfalar ilə tanış olmuşdur. Türkologiya elminin inkişafında əhəmiyyətli xidmətləri olmuş akademik Rodlovun tədqiq etdiyi bu tayfalar – barabinlər, tobollar (Tobol tatarları), qazaxlar barədə məlumatlar mövcuddur.

Samoyloviç daha sonra qeyd edir: "Macar səyyahı Asiyada olarkən qırğız dilinə dair materiallar əldə etmişdir. Hazırda qırğızlar arasında da öz doğma dillərini öyrənən gənc kadrlar ayırmışlar. Qırğızların "Manas" eposu təkcə türkoloqların deyil, digər elm sahəsində çalışan mütəxəssislərin də diqqətini çəkmişdir. Bir qədər irəlidə Özbəkistana keçincə, Orta Asiyada özbək dilinin geniş yayıldığını görürük, lakin yayıldığı kimi geniş öyrənilməmişdir".

O, nəzərə çatdırır ki, XVI əsrin əvvəlində Türküstanın əhalinin sıx olduğu ərazisində məskunlaşan özbəklər burada bir qismi irandilli, digər hissəsi türkdilli olan yerli əhali ilə qarşılaşmışdı. Əhalinin sıx yerləşdiyi bu əraziyə düşən özbəklər bir qədər ətraf ərazilərdə – Buxara xanlığı və Türküstanın digər bölgələrində məskunlaşmağa məcbur oldular.

Samoyloviç xəritə üzrə məruzəsinə davam edərək özbəklərdən sonra Çin Türküstanının ərazisinə – Kuzn-Lune ilə Tyan-Şan arasına, bir qədər də şimala doğru istiqamət götürür. "Bu ərazidə türkdilli xalq məskunlaşmışdır. Yüzilliklər boyu türk elementləri Çin Türküstanında dəyişikliyə az məruz qalmamışdır. Çin Türküstanındakı müasir ləhcələr qədim dildən çox fərqlənir – bütün bunlar bizə uyğur yazılarından məlumdur. Həmçinin Xarəzm ərazisindəki özbək ləhcələrinin Buxara özbəklərinin ləhcələrindən fərqləndiyi kimi. Samoyloviç Orta Asiyada Amur-Dərya sahillərində məskunlaşan ayrı-ayrı tayfa birliklərindən ibarət türkmənlərin yaşadığı sərhədboyu ərazi üzrə məruzəsinə davam edir: "Türkmən ləhcələri, həqiqətən, az tədqiq olunub; mövcud əlyazmaların cüzi hissəsi çap olunmuş ədəbiyyatda öz əksini tapır ki, bu da həmin ləhcələrin Kit ləhcələri ilə yaxınlığını aşkarlayır.

Türkmən ləhcələri bizi bir tərəfdən şimali Əfqanıstana, digər tərəfdən İran ərazisinə, Xəzər sahillərinə aparır. Lakin mən hələ bu ərazilərə keçmirəm. Orta Asiyadan Ural yolu ilə Şərqi Avropaya keçdikdə tədqiqatçıların diqqətini çəkən başqırd xalqı yaşayır. Şərqi Avropa hüdudlarında, Kazan tatarlarının, həmçinin mişarların məskunlaşdığı Volqaboyu tədqiqat üçün kifayət qədər əlçatan ərazilər, təəssüf ki, arzuolunan səviyyədə öyrənilməyib. Bu ərazidə yaşayan çuvaşların dilinin qrammatikasını Aşmarin yazmış, külli miqdarda material toplamış, lakin lüğət tərtib edilməmişdir, indiyə kimi əlyazma şəklində qalmaqdadır.

Volqaboyu aşağı irəlilədikcə, Astarxan ərazisinə keçdikdə bir tərəfdə qazax xalqının qərb qolunu, digər tərəfdən vaxtilə Xəzər dənizindən şimala doğru uzanan geniş düzənliyi və Şimali Qafqazdan, Krımdan Dunaya doğru ərazidə məskunlaşmış noqayların qalıqlarını görürük. Noğay dili qazax dili ilə çox yaxındır. Bu, xüsusilə Astarxan ərazisindəki noqaylara aiddir. Şimali Qafqazda Qaraçay və Balkar türkləri yaşayır".

Samoyloviç daha sonra Avropadan Asiyaya giriş qapısı olan Azərbaycana keçid alaraq qeyd edir ki, burada azərbaycanlılar – Zaqafqaziya türkləri, İran türkləri, eləcə də Xorasanda seyrək şəkildə yaşayan türklər var.

O, məruzəsinin sonunda bildirir ki, türk xalqların nümayəndələrinin bu məsələyə göstərdiyi marağı nəzərə alaraq, ilk növbədə, hər respublikada yerli dialektlərin öyrənilməsi üçün elmi mərkəzlərin yaradılması vacibdir. Xüsusilə, türk tayfalarının yaşadıqları ərazilərdə hər ləhcə ayrı-ayrılıqda deyil, qonşu dillərlə qarşılıqlı təsiri nəzərə alınmaqla tədqiq edilməlidir.

**(ardı var)**

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor***

# Həssas qruplardan olan uşaqlarla görüş






**Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinin Görmə qabiliyyəti məhdud şəxslər üçün sosial reabilitasiya və bərpa şöbəsini ziyarət ediblər.**

Əvvəlcə qonaqlar uşaqların iştirakı ilə təşkil olunan kiçik bədii-musiqili çıxışları izləyiblər. Sonra şöbənin fəaliyyəti ilə yaxından tanış olub, həkim, psixoloq, fəza oriyentasiyası otaqlarına baxış keçiriblər.

Ziyarət zamanı, uşaqlar hazırladıqları əl işlərindən ibarət hədiyyələri qonaqlara təqdim ediblər.

Sonra birlikdə xatirə şəkli çəkdirilib.

# Ölkəmizin Fələstinlə fövqəladə hallar sahəsində əlaqələri genişlənəcək



**Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Fələstin Dövlətinin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Əhməd Metani ilə görüşüb.**

Nazir Azərbaycan ilə Fələstin arasında qarşılıqlı hörmətə və dostluğa əsaslanan münasibətlərin yüksələn xətlə inkişaf etdiyini xatırladıb.

O, Azərbaycanda fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə görülən işlər, o cümlədən Fövqəladə Hallar Nazirliyinin strukturu və fəaliyyəti barədə səfirə ətraflı məlumat verib. Ötən il Bakıda keçirilmiş Beynəlxalq Mülki Müdafiə Təşkilatının İcraiyyə Şurasının 58-ci və Baş Assambleyasının 3-cü növbədənkənar sessiyaları çərçivəsində Fələstin Dövlətinin mülki müdafiə üzrə baş direktoru Əkrəm Tavabta ilə görüşünün uyğun qurumlar arasında əməkdaşlığın genişləndirilməsi sahəsində məhsuldar keçdiyini vurğulayıb.

Səfir Əhməd Metani iki ölkənin fövqəladə hallarla mübarizə sahəsində uyğun qurumlarının əməkdaşlıq münasibətlərinin inkişaf perspektivlərindən danışıb, bu sahədə səylərini əsirgəməyəcəyini bildirib.

***XQ***

# ANAMA yanında İctimai Şuranın açıqlaması

## *Son 5 ildə 417 nəfər mina və hərbi sursat qurbanı olub*

**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) yanında İctimai Şuranın üzvləri son vaxtlar işğaldan azad edilmiş ərazilərdə ardıcıl şəkildə baş verən mina hadisələri ilə əlaqədar müzakirələr aparıblar. Yekunda İctimai Şura üzvləri ictimaiyyətə açıqlama yayıblar.**

Sənəddə bildirilir ki, son günlər işğaldan azad edilmiş ərazilərdə ardıcıl olaraq baş verən mina hadisələri ciddi narahatlıq doğurur: "Yeni ilin ilk günlərində artıq ikinci mina hadisəsi qeydə alınıb. Bu fakt bir daha göstərir ki, mina təhlükəsi hələ də real və davam edən risk olaraq qalmaqdadır. İkinci Qarabağ müharibəsindən sonra ötən dövr ərzində 417 nəfər mina və partlamamış hərbi sursatların partlayışı nəticəsində həlak olub və ya müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Zərərçəkmişlər arasında regiona səfər edən mülki şəxslər, kənd təsərrüfatı ilə məşğul olanlar, bərpa-quruculuq işlərində iştirak edən işçilər, jurnalistlər, hərbçilər, eləcə də xidməti vəzifələrini yerinə yetirən qurumların əməkdaşları vardır.

ANAMA yanında İctimai Şura olaraq bir daha diqqətə çatdırırıq ki, təmizlənməmiş ərazilərə daxil olmaq, naməlum əşyalara toxunmaq, xəbərdarlıq nişanlarına məhəl qoymamaq ağır və bəzən geridönüşü olmayan nəticələrə səbəb olur. Məhz təhlükəsizliyin təmin edilməsi, baş verə biləcək mina hadisələrinin qarşısının alınması məqsədilə mina və digər partlayıcı sursatlarla yüksək səviyyədə çirkləndirilmiş ərazilərin müvəqqəti olaraq konservasiya olunaraq çəpərlənməsi fəaliyyəti icra edilir. Xüsusən, gündəlik fəaliyyətini işğaldan azad edilmiş ərazilərdə həyata keçirən şəxslər, eləcə də doğma yurdlarına qayıdan əhalinin tələb olunan qaydalara riayət etməsi həyati vacibdir.

Bu gün mina təhlükəsizliyinin təmin edilməsi istiqamətində dövlət tərəfindən müvafiq kompleks işlər davam etdirilir. Hesab edirik ki, mina təhlükəsinin qarşısının alınmasında yalnız dövlət qurumlarının deyil, hər bir vətəndaşın məsuliyyətli davranışı həlledici əhəmiyyət daşıyır. İnanırıq ki, təhlükəsizlik qaydalarına əməl etmək insan həyatını qorumağın ən etibarlı yoludur. Yuxarıda qeyd olunanları nəzərə alaraq, regionda istisnasız olaraq hər kəsi yalnız icazə verilmiş və təmizlənmiş ərazilərdə fəaliyyət göstərməyə, xəbərdarlıq nişanlarına ciddi yanaşmağa, şübhəli əşya və ya mina riski olan hallarla rastlaşdıqda dərhal aidiyyəti qurumlara məlumat verməyə çağırırıq", - deyə məlumatda vurğulanıb.

***XQ***

# İsraillə aqrar əməkdaşlığın yeni hədəfləri

**Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti İsraildə səfərdədir.**

Səfərin ilk günü İsrailin Kənd Təsərrüfatı və Aqrar İnkişaf Nazirliyində Azərbaycan və İsrail nümayəndə heyətləri arasında görüş keçirilib. İsrailin kənd təsərrüfatı və aqrar inkişaf naziri Avi Dixter çətin dövrlərdə Azərbaycanın İsrailin ərzaq təhlükəsizliyinə verdiyi dəstəyə görə öz təşəkkürünü bildirib.

Nazir Məcnun Məmmədov Azərbaycan və İsrail arasında bütün sahələrdə münasibətlərin dinamik şəkildə inkişaf etdiyini, hər iki tərəfin aqrar sahədə əməkdaşlığı daha da dərinləşdirməkdə maraqlı olduğunu bildirib. O qeyd edib ki, iki il öncə Bakıda imzalanmış iki ölkə arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq üzrə Niyyət Bəyannaməsi, eləcə də kənd təsərrüfatı sahəsində əməkdaşlığa dair Yol Xəritəsi bu əməkdaşlığın yeni mərhələyə yüksəlməsində mühüm rol oynayıb.



Sonra nazir Məcnun Məmmədov "Volcani Institute" Aqrar Tədqiqatlar Mərkəzinin fəaliyyəti ilə tanış olub.

***XQ***

# ABŞ-ın iqtisadi ticarət heyəti XİN-də

**Yanvarın 12-də Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov ABŞ Ticarət və İnkişaf Agentliyinin Yaxın Şərq, Şimali Afrika, Avropa və Avrasiya regionları üzrə regional direktoru Karl Kressin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Görüş zamanı iki ölkə arasında enerji, ticarət, TRIPP marşrutu da daxil olmaqla regional bağlantılar, iqtisadi sərmayə kimi sahələrdə ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və ABŞ-ın özəl sektor nümayəndələrinin ölkəmizdə müvafiq infrastruktur və logistika imkanları ilə tanış olması, əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Ötən ilin avqustun 8-də Vaşinqton Sülh Sammitindən sonra Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması istiqamətində qeyd edilən sahələr üzrə ayrı-ayrılıqda aparılmış ikitərəfli təmaslar və müzakirələr yüksək qiymətləndirilib. Bundan əlavə, görüşdə Azərbaycanın regionun enerji təhlükəsizliyində mühüm rolu, bərpaolunan enerji resurslarının inkişafının əhəmiyyəti, Orta Dəhlizdə ticarət marşrutlarının şaxələndirilməsi, habelə Azərbaycanda mövcud əlverişli biznes və investisiya mühiti və yeni əlaqələrin qurulması imkanları ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycanın dünya birliyinə inteqrasiyası

## *Əsas şərtlər: balanslı xarici siyasət, sabitlik və qlobal etimad modeli*




**Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin uğuru yalnız iqtisadi potensialı ilə deyil, eyni zamanda, çevik, praqmatik və balanslaşdırılmış xarici siyasət yürütmək bacarığı ilə ölçülür. Bu kontekstdə Azərbaycan son onilliklər ərzində formalaşdırdığı modern dövlətçilik modeli və müstəqil xarici siyasət kursu ilə dünya birliyinə inteqrasiyanın uğurlu nümunələrindən biri kimi çıxış edir.**

Ölkəmizin beynəlxalq aləmdə tutduğu mövqe, qlobal güc mərkəzləri arasında balanslaşdırılmış siyasəti və regional sabitliyə verdiyi töhfə onun siyasi-diplomatik çəkisini əhəmiyyətli dərəcədə artırıb. Azərbaycanın xarici siyasət strategiyasının əsas sütunlarından biri qlobal güc mərkəzləri ilə münasibətlərdə balansın qorunmasıdır. Ölkə nə hər hansı bir hərbi-siyasi bloka qoşulub, nə də beynəlxalq münasibətlərdə qarşıdurma yaradan tərəf kimi çıxış edir. Əksinə, Azərbaycan daim müstəqil mövqeyini qoruyaraq üçüncü tərəflərə qarşı yönəlməyən, əməkdaşlığa əsaslanan siyasət yürüdüb. Bu yanaşma ölkəyə həm Qərb, həm Şərq, həm də Cənub istiqamətində etibarlı tərəfdaş imici qazandırıb.

Məhz bu balanslı yanaşma Azərbaycanın qlobal siyasi sistemdə etimadla qəbul olunmasına, beynəlxalq təşkilatlar və aparıcı dövlətlərlə qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurmasına imkan yaradır. Azərbaycanın beynəlxalq platformalarda dinlənilən, mövqeyi nəzərə alınan dövlət mövqeyinə yüksəlib.

Ölkəmizin dünya birliyinə inteqrasiyası ardıcıl və uzunmüddətli inkişaf strategiyasının nəticəsidir. Onilliklər ərzində həyata keçirilən xarici siyasət kursu ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmləndirilməsinə, siyasi dialoqun dərinləşdirilməsinə və qarşılıqlı iqtisadi etimadın formalaşdırılmasına xidmət edir.

Bu strategiya nəticəsində Azərbaycan regional və regionlararası strateji layihələrin təşəbbüskarı və əsas iştirakçısına çevrilib. Enerji, nəqliyyat və logistika sahələrində həyata keçirilən beynəlxalq layihələr Azərbaycanın geosiyasi geoiqtisadi əhəmiyyətini artırmaqla yanaşı, onu etibarlı tərəfdaş kimi tanıdıb. Bu layihələr ölkəmizə siyasi sabitlik və diplomatik nüfuz qazandırıb.

Müasir dövrdə beynəlxalq sistem müxtəlif istiqamətlərdən gələn narahatedici çağırışlarla üz-üzədir: geosiyasi qarşıdurmalar, enerji təhlükəsizliyi problemləri, regional münaqişələr və iqtisadi qeyri-sabitlik. Belə bir şəraitdə Azərbaycanın sabit inkişaf xəttini qoruyub saxlaması onun daxili siyasi dayanıqlığının və düzgün xarici siyasət kursunun göstəricisidir. Azərbaycan yalnız öz milli maraqlarını qorumaqla kifayətlənmir, eyni zamanda, Cənubi Qafqaz və qonşu regionlar üçün sabitləşdirici amil rolunu oynayır. Regional əməkdaşlığın təşviqi, dialoq və qarşılıqlı etimadın qurulması Azərbaycanın diplomatik fəaliyyətinin əsas istiqamətlərindəndir. Azərbaycanın xarici siyasətində əsas prioritetlər qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq, dövlətlərin suverenliyinə hörmət, beynəlxalq hüququn norma və prinsiplərinə sadiqlikdir. Ölkə azadlıqsevər, sülhpərvər və açıq dialoqa hazır dövlət kimi beynəlxalq münasibətlər sistemində özünəməxsus yer tutur. Balanslı yanaşma prinsipi üzərindən qurulan xarici siyasət strategiyası artıq öz uğurunu tam miqyasda sübuta yetirib. Bu strategiya Azərbaycanın həm qlobal, həm də regional səviyyədə etibarlı tərəfdaş, proqnozlaşdırılan və məsuliyyətli aktor kimi qəbul olunmasını təmin edib.

Azərbaycanın dünya birliyinə inteqrasiyası təkcə beynəlxalq arenada mövqelərinin möhkəmlənməsi deyil, həm də milli təhlükəsizliyin, iqtisadi inkişafın və siyasi sabitliyin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır.

Müstəqil, balanslı və praqmatik xarici siyasət kursu Azərbaycanın qlobal güc mərkəzləri arasında manevr imkanlarını genişləndirib, onu qarşıdurmaların deyil, əməkdaşlığın tərəfdarı olan dövlət kimi tanıdıb. Bu model Azərbaycanın gələcəkdə də beynəlxalq sistemdə etibarlı, sülhpərvər və nüfuzlu aktor kimi mövqeyini qoruyacağını deməyə əsas verir.

***Yeganə HACIYEVA,***
***Mətbuat Şurası İdarə Heyətinin üzvü***

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 12 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmişdir

# Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026–2035-ci illər üçün DÖVLƏT PROQRAMI

## 1. Qısa xülasə

"Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026–2035-ci illər üçün Dövlət Proqramı" (bundan sonra – Dövlət Proqramı) müvafiq ərazilərdə su təchizatı və tullantı suları sistemləri infrastrukturunun inkişaf etdirilməsi, intensiv yağışlar zamanı subasma risklərinin azaldılması, fasiləsiz və dayanıqlı su təminatının gücləndirilməsi məqsədilə hazırlanmışdır.

Dövlət Proqramı 2026–2035-ci illəri əhatə etməklə iki mərhələdə həyata keçiriləcəkdir.

2026–2030-cu illəri əhatə edən birinci mərhələdə su və kanalizasiya infrastrukturu yenidən qurulacaqdır. Bu çərçivədə mövcud infrastrukturun əsaslı təmiri və yenilənməsi, yağış sularının idarə olunması və tullantı sularının təkrar istifadəsi üzrə müasir texnologiyaların tətbiqi, "ağıllı su şəbəkələri"nin qurulması və ekoloji təhlükəsizliyin təmin olunması nəzərdə tutulur. Bu mərhələdə mərkəzləşdirilmiş kanalizasiya sistemi olmayan ərazilərdə yeni infrastruktur yaradılacaq, eləcə də su şəbəkələrində itkilərin aşkarlanması və azaldılması üçün tədbirlər görüləcəkdir.

2031–2035-ci illəri əhatə edən ikinci mərhələdə yeni su anbarlarının və nasos stansiyalarının tikintisi, su təchizatının fasiləsizliyinin təmin olunması və müasir xidmət modellərinin tətbiqi prioritet istiqamətlər kimi müəyyən ediləcəkdir. Bu məqsədlə mövcud su təchizatı və kanalizasiya şəbəkələri daha da genişləndiriləcək, yağış sularının təkrar istifadəsi üçün yeni layihələr həyata keçiriləcək və ətraf mühitin qorunması istiqamətində tədbirlər görüləcəkdir.

Dövlət Proqramının icrası nəticəsində içməli su mənbələrinin dayanıqlığının artırılması, su anbarlarının, eləcə də supaylayıcı şəbəkələrin inkişaf etdirilməsi, suyun uçot sisteminin təkmilləşdirilməsi, yağış və tullantı suları sistemlərinin yenilənməsi və alternativ su mənbələrinin istifadəyə cəlbinə nail olunması nəzərdə tutulur.

Dövlət Proqramında, həmçinin Bakı şəhərinin Baş planı ilə uzlaşdırılaraq, uzunmüddətli strateji hədəflər və icra mexanizmləri müəyyən edilmişdir.

## 2. Qlobal trendlər

Dünyada su ehtiyatlarına tələbatın artması və iqlim dəyişikliyinin təsiri su sektorunda mövcud struktur problemlərinin dərinləşməsinə səbəb olmuşdur.

Qabaqcıl təcrübələr göstərir ki, suyun səmərəli idarə edilməsi, tullantı sularının təkrar istifadəsi və yağış sularının təbii üsullarla idarə olunması kimi innovativ yanaşmalar su təminatını daha dayanıqlı edir, həmçinin ekosistemlərin qorunmasında və su ehtiyatlarının mühafizəsində mühüm rol oynayır.

Aşağıdakı qabaqcıl təcrübələr suyun idarə olunmasında müasir yanaşmaların vacibliyini və yerli səviyyədə tətbiq edildikdə uzunmüddətli faydalarını göstərir:

1. inteqrasiya olunmuş su resursları idarəetməsinə keçid – bu yanaşma Niderland və İsveçrə kimi inkişaf etmiş ölkələrdə uğurla tətbiq olunur və su ehtiyatlarının sosial, iqtisadi və ekoloji maraqları balanslaşdırmaqla idarə edilməsini təmin edir. Niderlandda çayları və yeraltı su ehtiyatlarını qorumaq üçün müasir texnologiyalardan istifadə olunur, İsveçrədə isə şəhərlərdə yaşıl infrastruktur vasitəsilə yağış sularının təbii yollarla yeraltı su ehtiyatlarına daxil olmasına şərait yaradılır;

2. yağış sularının idarə olunması sahəsində Kanadanın Toronto şəhərində tətbiq olunan "Yağış bağları" layihəsi – bu yanaşma şəhərdə yağış sularının təbii yollarla emalını və yeraltı su ehtiyatlarına daxil edilməsini təmin edərək ekosistemi qoruyur. Bunun nəticəsində daşqın riski 30 faizə qədər azaldılmışdır;

3. tullantı sularının təkrar istifadəsi sahəsində Sinqapurun "Yenidən emal olunmuş su" (NEWater) proqramı – bu proqram tullantı sularını içməli su keyfiyyətinə çatdıraraq, ölkənin su ehtiyacının 40 faizini təmin edir. Bu yanaşma həm su qənaətinə, həm də ekosistemin qorunmasına töhfə verir;

4. "Ağıllı su" şəbəkələri – İsraildə tətbiq olunan bu şəbəkələr vasitəsilə su itkiləri 95 faizə qədər azaldılıb. Bu, suyun səmərəli idarə olunması və itkilərin minimuma endirilməsi üçün müasir texnologiyaların vacibliyini göstərir;

5. duzsuzlaşdırma – Səudiyyə Ərəbistanı müasir duzsuzlaşdırma texnologiyalarından istifadə edərək yeni su mənbələri yaradır, bu isə gün ərzində milyonlarla kubmetr içməli su istehsal etməyə imkan verir;

6. su itkilərinin və sızmaların azaldılması – bu sahədə Yaponiya sızmanı aşkarlayan qabaqcıl texnologiyalar tətbiq edərək, su itkilərinin 10 faizə qədər azaldılmasına nail olmuşdur;

7. su infrastrukturunun yenilənməsi – əksər MDB ölkələri, həmçinin Polşa Respublikası və Çex Respublikası kimi ölkələr tullantı sularının təkrar istifadəsi sahəsində müasir texnologiyalar tətbiq etmiş, həmçinin su şəbəkəsini yenidən qurmuşlar. Bu da su itkilərinin əhəmiyyətli dərəcədə azalmasını şərtləndirmişdir.

## 3. Mövcud vəziyyətin təhlili

Ötən dövrdə Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, son 20 ildə qeyd olunan ərazidə 480 km magistral içməli su kəməri, 262 km uzunluğunda Oğuz–Qəbələ–Bakı və 84 km uzunluğunda Ceyranbatan–Zirə magistral su kəmərləri, həmçinin 40 km uzunluğunda yağış-kanalizasiya kollektorları, 14 km uzunluğunda Bayıl–Bibiheybət–Lökbatan və 15 km uzunluğunda Novxanı–Sumqayıt tullantı suları kollektorları inşa edilmişdir. Bundan əlavə, Sumqayıt şəhərində, Buzovna, Pirşağı və Şüvəlan qəsəbələrində tullantı sularının təmizlənməsi qurğuları və kollektorlar tikilmişdir.

Bu tədbirlər əhalinin fasiləsiz və dayanıqlı su təminatına, ətraf mühitin qorunmasına və resursların səmərəli idarə olunmasına mühüm töhfə vermişdir.

Lakin iqlim dəyişikliyi nəticəsində yağıntı və su ehtiyatlarının dəyişkənliyi, eləcə də urbanizasiya və sənayeləşmə suya tələbatı davamlı şəkildə artırır. Eyni zamanda, yağış və tullantı sularının təmizlənməsində və idarə olunmasında mövcud çatışmazlıqlar, kanalizasiya sistemlərinin bir çox hissəsinin müasir standartlara cavab verməməsi vəziyyəti daha da çətinləşdirir.

Bu faktorlar Bakı şəhərində və Abşeron yarımadasında fasiləsiz və dayanıqlı su təminatı sahəsində müəyyən çətinliklər yaradır. Nəticədə, içməli su təchizatı, tullantı suları sistemləri və yağış suları sistemləri sahələrində köhnəlmiş infrastruktur və təchizat, habelə idarəetmə sistemlərinin təkmilləşdirilməsi zərurəti ön plana çıxır.

Belə ki, Bakı şəhərində və Abşeron yarımadasında içməli su təchizatı sistemlərinin mühüm hissəsi ötən əsrin əvvəllərində qurulmuş və uzunmüddətli istismar nəticəsində texniki baxımdan köhnəlmişdir. Əhalinin və məskunlaşma ərazilərinin sürətli artımı mövcud infrastrukturun yüklənməsini artıraraq, içməli su təchizatında fasiləsizliyin və keyfiyyətin təmin olunmasına ciddi maneə yaratmışdır.

Hazırda Bakı şəhərinin və Abşeron yarımadasının içməli su təchizatı aşağıdakı beş əsas magistral kəmər kompleksi vasitəsilə həyata keçirilir:

1. birinci Bakı Su Kəmərləri (Şollar) – 1911–1917-ci illərdə inşa edilmiş, 1930-cu ilin sonlarında texniki tədbirlər nəticəsində məhsuldarlığı 109 min $m^3$/günə çatdırılmışdır. Burada yeraltı sular zərərsizləşdirildikdən sonra istehlakçılara ötürülür. Lakin uzunmüddətli istismar nəticəsində ötürülən su həcmində azalma tendensiyası müşahidə olunur;

2. ikinci Bakı Su Kəmərləri (Xaçmaz) – 1934–1958-ci illərdə tikilmişdir, məhsuldarlığı 235 min $m^3$/gün təşkil edir. Burada sular yalnız zərərsizləşdirildikdən sonra istehlakçılara ötürülür. Qlobal iqlim dəyişikliyi səbəbindən mənbənin məhsuldarlığı son illərdə azalmışdır;

3. Ceyranbatan Su Kəmərləri – dörd mərhələdə tikilmiş və ümumi məhsuldarlığı 670 min $m^3$/gün olan bu kompleksdə xam su emal edilərək içməli suya çevrilir. 2011–2015-ci illərdə tikilən son mərhələnin məhsuldarlığı 570 min $m^3$/gün təşkil edir. Lakin əvvəlki mərhələlərdə fəaliyyət göstərən sutəmizləyici qurğuların yenilənməsi zərurəti son vaxtlarda daha da artmışdır;

4. Kür Su Kəmərləri Kompleksi (Kür-1 və Kür-2) – bu Kompleks Hacıqabul rayonunda Kür çayı üzərində inşa olunmuşdur. Ümumi məhsuldarlığı 820 min $m^3$/gün olan kompleksdə xam suyun emalı həyata keçirilir. İtkilərin yüksək olması səbəbindən sudan faktiki istifadə həcmi nəzərəçarpacaq dərəcədə azalmışdır;

5. Oğuz–Qəbələ–Bakı Su Kəməri – bu Kəmər Oğuz rayonundakı yüksəkkeyfiyyətli yeraltı su mənbəyindən təchiz olunur və məhsuldarlığı 432 min $m^3$/gün təşkil edir. Lakin Kəmərin bəzi hissələrinin qəzalı vəziyyətdə olması və məhsuldarlığın azalması su təchizatında fasilələr yaradır.

Lakin artan su tələbatının tam qarşılanması baxımından bu magistral kəmər kompleksinin potensialı azalmışdır.

Tullantı suları sistemləri ilə bağlı qeyd edilməlidir ki, Bakı şəhərində kanalizasiya infrastrukturu 1924-cü ildə qurulmuşdur və ötən dövr ərzində bir sıra daşıyıcı kollektorlar və tullantı sularının təmizlənməsi qurğuları inşa edilmişdir. Lakin son onilliklərdə Bakı şəhərinin sürətli sosial-iqtisadi inkişafı, yeni yaşayış və qeyri-yaşayış obyektlərinin intensiv şəkildə istifadəyə verilməsi mövcud kanalizasiya sistemlərinin daşıma qabiliyyətinə əlavə yük yaratmışdır.

Yağış sularının əksər hissəsinin kanalizasiya şəbəkəsinə daxil olması xüsusilə intensiv yağıntılar zamanı kollektorların həddindən artıq yüklənməsinə səbəb olur. Bakı şəhərində və Abşeron yarımadasında kanalizasiya kollektorlarının ümumi uzunluğu 1,5 min km, yağış suları kollektorlarının uzunluğu isə 131 km təşkil edir. Yağış suları kollektorlarının kanalizasiya xətləri ilə birləşdirilməsi nəticəsində mövcud sistemin ötürmə qabiliyyəti azalır. Bakı qəsəbələrinin bir hissəsində mərkəzləşdirilmiş kanalizasiya sistemlərinin olmaması isə tullantı sularının qrunt sularına qarışaraq ekoloji tarazlığa mənfi təsir göstərir.

Mövcud çətinliklərin aradan qaldırılması məqsədilə Bakı şəhərində və Abşeron yarımadasında genişmiqyaslı infrastruktur layihələrinin icrası həyata keçirilir. Bunlara Ceyranbatan–Abşeron–Balaxanı–Ramana–Zirə–Pirallahı magistral su kəməri və mərkəzi anbar kompleksi, Pirşağı Tullantı Sutəmizləyici Qurğusunun gətirici kanalizasiya kollektorları, Zığ–Hövsan, Dərnəgül–Bakıxanov–Qaraçuxur–Hövsan, Pirşağı–Bilgəh–Şərq kanalizasiya kollektorları, eləcə də Lökbatan, Böyükşor və Müşfiqabad hövzələri üzrə gətirici kollektor və tullantı sutəmizləyici qurğuları daxildir.

Eyni zamanda, Abşeron rayonunun Görədil kəndində, Bakı şəhərinin Binəqədi, Binə, Şüvəlan, Qala və Mərdəkan qəsəbələrində su təchizatı və kanalizasiya şəbəkələrinin bərpası istiqamətində işlər görülür. Bundan əlavə, Sumqayıt şəhərində "Acıdərə" kanalı boyunca kanalizasiya və yağış suları sistemlərinin yenidən qurulması layihəsi həyata keçirilir;

Bakı şəhərində və ətraf ərazilərdə yağış sularının idarə olunması məqsədilə müxtəlifölçülü yağış kollektorları inşa edilmişdir. Hazırda Bakı şəhərində 28, Sumqayıt şəhərində isə 22 yağış kollektoru fəaliyyət göstərir. Lakin onların əksəriyyəti artıq istismar müddətini başa vurmuş və qəzalı vəziyyətdədir. Eyni zamanda, yağış kollektorlarının müxtəlif təyinatlı tikililərlə zəbt olunması kollektorların səmərəli fəaliyyətinə mənfi təsir göstərir. Yağış suları kollektorlarının kanalizasiya kollektorlarına birləşdirilməsi intensiv yağıntılar zamanı artıq daşımalara səbəb olur və sistemin effektivliyini azaldır.

Bakı şəhərində və Abşeron yarımadasında su və kanalizasiya infrastrukturu sahəsində aparılan genişmiqyaslı işlər tullantı suları sistemlərindəki problemlərin həlli istiqamətində mühüm addımlardır. Eyni zamanda, mövcud şəbəkələrin yenidən qurulması və təkmilləşdirilməsi hələ də prioritet olaraq qalır və davamlı su təchizatı ilə ekoloji dayanıqlığın təmin olunması üçün strateji əhəmiyyət daşıyır.

## 4. Hədəf göstəriciləri

4.1. Dövlət Proqramında qarşıya qoyulan tədbirlərin həyata keçirilməsi nəticəsində aşağıdakı hədəflərə nail olunması nəzərdə tutulur:

4.1.1. su mənbələrinin dayanıqlığının təmin edilməsi;

4.1.2. su anbarlarının inkişaf etdirilməsi;

4.1.3. supaylayıcı şəbəkələrin yenilənməsi və inkişaf etdirilməsi;

4.1.4. suyun uçotu sisteminin təkmilləşdirilməsi;

4.1.5. yağış və tullantı suları sistemlərinin yenilənməsi və inkişaf etdirilməsi;

4.1.6. alternativ su mənbələrinin istifadəyə cəlb edilməsi.

4.2. Dövlət Proqramının icrasına nailolma səviyyəsinin göstəricisi qismində aşağıdakı hədəf göstəriciləri müəyyən edilmişdir:

4.2.1. su mənbələrinin dayanıqlığının təmin edilməsi üzrə:

4.2.1.1. su mənbələrinin bərpası nəticəsində istehsal gücünün saniyədə 30 $m^3$-ə çatdırılması;

4.2.1.2. mövcud suötürücü qurğuların kompleks şəkildə yenidən qurulması və 5 yeni infrastruktur obyektinin yaradılması;

4.2.2. su anbarlarının inkişaf etdirilməsi üzrə:

4.2.2.1. xidmət ərazisində 28 yeni su anbarının tikintisi;

4.2.2.2. içməli suyun zərərsizləşdirilməsi sistemlərinin tam müasirləşdirilməsi;

4.2.3. supaylayıcı şəbəkələrin yenilənməsi və inkişaf etdirilməsi üzrə:

4.2.3.1. mövcud şəbəkələrin genişləndirilməsi və tam yenilənməsi;

4.2.3.2. Bakı, Sumqayıt, Xırdalan və 64 yaşayış məntəqəsində su təchizatında fasiləsizlik səviyyəsinin 95 faizə çatdırılması və dayanıqlığın təmin olunması;

4.2.4. suyun uçotu sisteminin təkmilləşdirilməsi üzrə:

4.2.4.1. sayğaclaşdırma səviyyəsinin 100 faizə çatdırılması;

4.2.4.2. su itkilərinin 20 faizdən aşağı salınması;

4.2.5. yağış və tullantı suları sistemlərinin yenilənməsi və inkişaf etdirilməsi üzrə:

4.2.5.1. 12 yeni kollektorun tikintisi, 3 mövcud kollektorun bərpası;

4.2.5.2. tullantı sutəmizləyici 9 yeni qurğunun tikintisi;

4.2.5.3. 30 küçədə yeni yağış və tullantı su şəbəkəsinin tikintisi;

4.2.6. alternativ su mənbələrindən istifadə üzrə:

4.2.6.1. Hövsan qəsəbəsində təmizlənmiş tullantı sularından təkrar istifadə imkanlarının təmin edilməsi;

4.2.6.2. dəniz suyunun duzsuzlaşdırılması ilə əlaqədar illik 100 milyon $m^3$ içməli su təminatının yaradılması;

4.2.6.3. Bakı Metropoliteni stansiyalarında və digər ərazilərdə formalaşan qrunt sularından istifadəyə dair 3 pilot layihənin həyata keçirilməsi.

## 5. Dövlət Proqramının məqsədləri

5.1. Dövlət Proqramının məqsədləri aşağıdakılardır:

5.1.1. su təchizatının dayanıqlığının artırılması, alternativ su mənbələrinin yaradılması və infrastrukturun yenilənməsi;

5.1.2. su və kanalizasiya şəbəkələrinin genişləndirilməsi;

5.1.3. yağış suları risklərinin aradan qaldırılması;

5.1.4. tullantı su infrastrukturunun təkmilləşdirilməsi və ekoloji vəziyyətin yaxşılaşdırılması;

5.1.5. su sektorunda rəqəmsal idarəetmə, SCADA (nəzarətçi idarəetmə və məlumatların toplanması) və IoT (əşyaların interneti) sistemlərinin tətbiqi;

5.1.6. su itkisinin idarə edilməsinin effektiv monitorinqinin təmini.

## 6. Dövlət Proqramının prioritet istiqamətləri

6.1. Dövlət Proqramında aşağıdakı prioritet istiqamətlər müəyyən edilmişdir:

6.1.1. su təchizatı və tullantı sularının idarə olunması sistemlərinin inkişafı və dayanıqlığının təmini;

6.1.2. su sektorunda təbii fəlakət risklərinin və ekoloji dayanıqlığın idarə edilməsinin təmini;

6.1.3. su sektorunda innovasiya və rəqəmsallaşma.

6.2. Bu prioritet istiqamətlər üzrə məqsədlərə aşağıdakı tədbirlər vasitəsilə nail olunması nəzərdə tutulur:

6.2.1. su təchizatının dayanıqlığının artırılması, alternativ su mənbələrinin yaradılması və infrastrukturun yenilənməsi:

**6.2.1.1. əsaslandırma:**

Bakı şəhərində və Abşeron yarımadasında mövcud su təchizatı infrastrukturu, əsasən, köhnə və istismara yararsız vəziyyətdədir. Magistral su kəmərləri, paylayıcı şəbəkələr və su anbarları bir sıra hallarda texniki cəhətdən qüsurludur. Bu, su itkilərinin artmasına, təchizatın fasiləli olmasına və suyun keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Bundan əlavə, sənaye və iqtisadi zonalarda su təchizatının dayanıqlığı, həmçinin yeni yaşayış ərazilərinin perspektiv inkişafı üçün alternativ su mənbələrinin istifadəsi vacibdir;

**6.2.1.2. görüləcək tədbirlər:**

6.2.1.2.1. Bakı şəhərində və Abşeron yarımadasında köhnəlmiş magistral və paylayıcı su kəmərlərinin yenidən qurulması;

6.2.1.2.2. mövcud nasaz xətlərin dəyişdirilməsi və müasir texnologiyaların tətbiqi;

6.2.1.2.3. yeni su anbarlarının və nasos stansiyalarının qurulması, mövcud sistemlərin müasirləşdirilməsi;

6.2.1.2.4. subartezian quyularının bərpası və yeni nasosların quraşdırılması;

6.2.1.2.5. Samur–Abşeron kanalının xidmət sahələrində suvarma suyu təminatının yaxşılaşdırılması və Ceyranbatan su anbarının dayanıqlı su ilə təmin olunması;

**6.2.1.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.1.3.1. 230 km magistral və 200 km paylayıcı su şəbəkəsinin yenilənməsi;

6.2.1.3.2. su itkilərinin 20 faizdən aşağı salınması;

6.2.1.3.3. su təchizatında fasiləsizlik səviyyəsinin 95 faizə çatdırılması və dayanıqlığın təmin olunması;

6.2.1.3.4. Samur–Abşeron kanalı və Ceyranbatan su anbarı vasitəsilə suvarma suyu və texniki su təminatının dayanıqlığının artırılması;

**6.2.2. su və kanalizasiya şəbəkələrinin genişləndirilməsi:**

**6.2.2.1. əsaslandırma:**

Abşeron yarımadasının bir sıra yaşayış məntəqələrində məişət suyu təminatı, kanalizasiya sistemi və alternativ su mənbələri kifayət qədər inkişaf etməyib. Məhəllədaxili və binadaxili su şəbəkələrinin köhnəlməsi, sayğac əsaslı uçot sisteminin tam başa çatmaması və kanalizasiya infrastrukturunun məhdudluğu əhalinin su ilə fasiləsiz təminatına və tullantı sularının idarə olunmasına mənfi təsir göstərir. Su təchizatının dayanıqlığının artırılması, itkilərin azaldılması və fasiləsiz xidmətin təmin edilməsi üçün mövcud infrastrukturun müasirləşdirilməsi və yeni texnologiyaların tətbiqi vacibdir;

6.2.2.2. görüləcək tədbirlər:

6.2.2.2.1. Sumqayıt şəhərində yaşayış məntəqələrinin su və kanalizasiya ilə tam təmin olunması;

6.2.2.2.2. məhəllədaxili və binadaxili su təchizatı sistemlərinin yenidən qurulması və sayğac əsaslı uçot sistemlərinin tətbiqi;

6.2.2.2.3. Bakı Ağ Şəhər ərazisində əhalinin fasiləsiz içməli su və kanalizasiya xidmətlərinə çıxışının artırılması;

6.2.2.2.4. Abşeron yarımadasının 64 yaşayış məntəqəsində su təchizatı və kanalizasiya sistemlərinin qurulması;

**6.2.2.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.2.3.1. məişət və kanalizasiya xidmətləri ilə əhatə olunan əhali sayının artması;

6.2.2.3.2. məhəllədaxili və binadaxili su şəbəkələrinin 80 faizdən çoxunun yenilənməsi;

6.2.2.3.3. sayğac əsaslı su uçotu sistemlərinin tətbiqi ilə su istehlakının effektiv idarə olunması;

6.2.3. yağış suları risklərinin aradan qaldırılması:

**6.2.3.1. əsaslandırma:**

Abşeron yarımadasında intensiv urbanizasiya, köhnəlmiş infrastruktur və iqlim dəyişikliyi səbəbindən yağış riskləri yüksək səviyyədədir. Kanalizasiya sistemi olmayan ərazilərdə suyun yığılması subasma hallarını artırır, şəhər və kənd ərazilərində infrastruktura, yaşayış evlərinə və ətraf mühitə zərər vurur. Sel və daşqınların idarə olunması üçün müasir texnologiyaların tətbiqi, yağış sularının effektiv toplanması və paylanması sistemlərinin inkişafı vacibdir;

**6.2.3.2. görüləcək tədbirlər:**

6.2.3.2.1. subasma risklərinin azaldılması və kanalizasiya sistemi olmayan ərazilərdə şəbəkələrin genişləndirilməsi;

6.2.3.2.2. intensiv yağışlar zamanı Abşeron yarımadasının subasmaya məruz qalan ərazilərində yağış sularının idarə olunması;

6.2.3.2.3. ərazidəki mövcud kanalizasiya sistemlərinin səmərəliliyinin yüksəldilməsi;

**6.2.3.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.3.3.1. subasmaya məruz qalan ərazilərin sayının 30 faizdən çox azaldılması;

6.2.3.3.2. yağış sularının toplanması və idarə olunması üzrə 20 km-dən çox yeni kollektor şəbəkələrinin qurulması;

6.2.3.3.3. sel və daşqın risklərinin idarə olunması nəticəsində əhalinin həyat və mülkiyyət təhlükəsizliyinin təmin edilməsi;

**6.2.4. tullantı su infrastrukturunun təkmilləşdirilməsi və ekoloji vəziyyətin yaxşılaşdırılması:**

6.2.4.1. əsaslandırma:

Bakı şəhərində və Abşeron yarımadasında mövcud tullantı su infrastrukturunun bir qismi köhnəlmiş və istismara yararsızdır. Sutəmizləyici qurğuların və kanalizasiya sistemlərinin texniki vəziyyəti səmərəliliyi aşağı salır, tullantı sularının ekoloji təsiri artır və Xəzər dənizi (gölü) daxil olmaqla ətraf mühitin vəziyyətinə mənfi təsir göstərir. İnfrastrukturun müasirləşdirilməsi, sutəmizləmə gücünün artırılması və tullantı sularının idarə olunmasında yeni texnologiyaların tətbiqi vacibdir;

**6.2.4.2. görüləcək tədbirlər:**

6.2.4.2.1. Bakı şəhərinin qəsəbələrində kanalizasiya sistemlərinin yenilənməsi və mövcud sutəmizləyici qurğuların müasirləşdirilməsi;

6.2.4.2.2. Maştağa, Ramana, Binə, Qala, Zirə, Türkan, Dübəndi, Gürgan və Hövsan qəsəbələrində tullantı sularının idarə olunması sistemlərinin qurulması;

6.2.4.2.3. Mərdəkan, Şağan, Şüvəlan, Qala və Buzovna qəsəbələrində tullantı sularının idarə olunması və sahilboyu ekoloji tarazlığın qorunması;

6.2.4.2.4. Sahil, Sanqaçal və Ümid qəsəbələrində tullantı sularının idarə olunması və sahilboyu ekoloji tarazlığın bərpası;

6.2.4.2.5. Ələt Azad İqtisadi Zonası, Ələt, Qobustan və Şıxlar qəsəbələrində tullantı sularının idarə olunması sistemlərinin yaradılması;

6.2.4.2.6. mövcud tullantı su infrastrukturunun yenidən qurulması;

6.2.4.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.2.4.3.1. tullantı sularının idarə olunmasında sutəmizləyici qurğuların məhsuldarlığının 50 faizdən çox artırılması;

6.2.4.3.2. Xəzər dənizinə (gölünə) axıdılan çirkli suların keyfiyyətinin yaxşılaşdırılması;

6.2.4.3.3. ümumi uzunluğu 16 km olan gətirici kollektorun tikintisinin tamamlanması;

6.2.4.3.4. 20 yaşayış məntəqəsində tullantı sularının idarə olunması sistemlərinin qurulması və səmərəliliyinin artırılması;

6.2.4.3.5. sahilboyunun və göllərin ekoloji vəziyyətinin yaxşılaşdırılması;

6.2.4.3.6. təmizlənmiş tullantı sularından təkrar istifadə yolu ilə su resurslarından səmərəli istifadənin artırılması;

**6.2.5. su sektorunda rəqəmsal idarəetmə və SCADA/IoT sistemlərinin tətbiqi:**

**6.2.5.1. əsaslandırma:**

Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı və tullantı sularının idarə olunması infrastrukturunun dayanıqlığını və səmərəliliyini artırmaq üçün rəqəmsal texnologiyaların tətbiqi vacibdir. SCADA/IoT sistemləri su anbarlarının, nasos stansiyalarının və paylayıcı şəbəkələrin real vaxt rejimində monitorinqini və idarə olunmasını təmin edir. Bu texnologiyalar su itkisini azaltmaq, təchizatın fasiləsizliyini artırmaq və fəlakət risklərinə operativ reaksiya vermək imkanlarını genişləndirir;

**6.2.5.2. görüləcək tədbirlər:**

6.2.5.2.1. Bakı şəhərində və Abşeron yarımadasında mövcud su təchizatı və tullantı su infrastrukturuna SCADA/IoT sistemlərinin inteqrasiyası;

6.2.5.2.2. suyun keyfiyyətinin və təhlükəsizliyinin təmin olunması, qəza-bərpa işlərinin çevikliyinin artırılması;

6.2.5.2.3. su təsərrüfatı sistemlərinin istismarının və təhlükəsizliyinin təkmilləşdirilməsi;

6.2.5.2.4. tikinti-quraşdırma işlərində keyfiyyət və texniki nəzarətin gücləndirilməsi;

6.2.5.2.5. su infrastrukturunun Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planına uyğunlaşdırılması;

**6.2.5.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.5.3.1. su təchizatı və kanalizasiya xidmətlərinin idarə olunması və monitorinq imkanlarının tam müasirləşdirilməsi;

6.2.5.3.2. suyun keyfiyyətinə nəzarətin yüksəldilməsi və təhlükəsizlik göstəricisinin 98 faizə çatdırılması;

*(ardı 15-ci səhifədə)*

# Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026–2035-ci illər üçün DÖVLƏT PROQRAMI

**(əvvəli 14-cü səhifədə)**

6.2.5.3.3. tikinti və istismar işlərində keyfiyyətin 95 faizdən yuxarı olması, texniki normativlərə uyğunluğun 98 faizə çatdırılması;

6.2.5.3.4. su risklərinə reaksiya müddətinin 50 faizdən çox qısaldılması;

**6.2.6. su itkisinin idarə edilməsinin effektiv monitorinqinin təmini:**

**6.2.6.1. əsaslandırma:**

Bakı şəhərində və Abşeron yarımadasında içməli su təchizatında su itkisi hələ də yüksək səviyyədədir. Köhnəlmiş magistral və paylayıcı su kəmərləri, nasaz avadanlıq və məişətdə su istifadəsində monitorinqin olmaması nəticəsində sudan səmərəli istifadə təmin edilmir. Su itkisi səviyyəsinin azaldılması üçün itki idarəetmə sistemlərinin tətbiqi vacibdir. Bu sistemlər su axınlarını real vaxt rejimində izləməklə, sızmaların və itkilərin operativ aşkarlanmasına və aradan qaldırılmasına imkan verir;

**6.2.6.2. görüləcək tədbirlər:**

6.2.6.2.1. itki idarəetmə üzrə kadrların hazırlanması və ixtisasartırma təlimlərinin təşkili;

6.2.6.2.2. su itkisi üzrə ictimai maarifləndirmə kampaniyalarının keçirilməsi və istehlakçıların məsuliyyətinin artırılması;

**6.2.6.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.6.3.1. təlim keçmiş heyətin praktiki bacarıqlarının yüksəlməsi;

6.2.6.3.2. su itki idarəetməsində səmərəliliyin azı 15 faiz artırılması;

6.2.6.3.3. su itkisi sahəsində ictimai məlumatlılıq səviyyəsinin azı 40 faiz yüksəlməsi;

6.2.6.3.4. qeyri-məhsuldar su sərfinin 10 faiz azalması.

6.3. Bu hissənin 6.2-ci bəndində göstərilən prioritet istiqamətlər üzrə Dövlət Proqramının icrası prosesində aşağıdakı risklərin mövcud olacağı gözlənilir. Risklərin vaxtında müəyyən edilməsi və onların neytrallaşdırılması tədbirlərinin görülməsi həmin risklərin minimuma endirilməsinə və proqramın hədəflərinə nail olunmasına imkan verəcəkdir:

**6.3.1. maliyyələşmə ilə bağlı risklər:**

Su təchizatı və tullantı sularının idarə olunması üzrə iri infrastruktur layihələrinin icrası yüksək maliyyə tutumu tələb etdiyindən, maliyyələşmə mənbələrinin məhdudluğu proqramın icrasına mənfi təsir göstərə bilər. Bu riskin neytrallaşdırılması məqsədilə dövlət büdcəsi ilə yanaşı, beynəlxalq maliyyə institutları ilə və donor təşkilatlarla əməkdaşlıq gücləndiriləcək, alternativ maliyyə mənbələri cəlb ediləcəkdir;

**6.3.2. tikinti və infrastruktur layihələrinin icrası ilə bağlı risklər:**

Layihələrin texniki çətinlikləri, təchizat zəncirində yaranan problemlər və icra qrafiklərindəki gecikmələr nəticələrin vaxtında əldə edilməsinə mane ola bilər. Bu risklərin qarşısının alınması üçün layihələrin dəqiq planlaşdırılması, mərhələli monitorinq mexanizmlərinin qurulması, alternativ təchizat mənbələrinin müəyyən edilməsi və rəqəmsal monitorinq vasitələrinin tətbiqi nəzərdə tutulur;

**6.3.3. texniki və texnoloji risklər:**

Yeni texnologiyaların, o cümlədən SCADA/IoT sistemlərinin tətbiqi zamanı nasazlıqların, proqram təminatı xətalarının, sensor/avadanlıq uyğunsuzluqlarının və kibertəhlükələrin baş verməsi mümkündür. Bu riskləri minimuma endirmək üçün müasir və sınaqdan çıxmış texnologiyaların seçilməsi, təcrübəli mütəxəssislərin cəlb edilməsi, kadr hazırlığının gücləndirilməsi, texniki xidmətin mütəmadi həyata keçirilməsi və rəqəmsal sistemlərin test rejimində tətbiqi təmin ediləcəkdir;

6.3.4. ekoloji və iqlim riskləri:

İqlim dəyişiklikləri nəticəsində su ehtiyatlarının azalması, tullantı sularının ekosistemlərə mənfi təsiri və intensiv yağışların yaratdığı subasma təhlükəsi mövcud risklər sırasındadır. Bu risklərin aradan qaldırılması üçün alternativ su mənbələrinin istifadəyə verilməsi, ekoloji təsir qiymətləndirmələrinin aparılması, təmizləmə texnologiyalarının müasir standartlara uyğunlaşdırılması, suya qənaət tədbirlərinin həyata keçirilməsi və Abşeron yarımadasında subasma risklərinin monitorinqi nəzərdə tutulur;

**6.3.5. institusional və kadrlarla bağlı risklər:**

Su sektorunda idarəetmə, monitorinq və rəqəmsal sistemlərin tətbiqində ixtisaslı kadr çatışmazlığı, texniki bacarıqların məhdudluğu proqramın səmərəli icrasına mane ola bilər. Bu risklərin neytrallaşdırılması üçün kadr hazırlığı və ixtisasartırma proqramları genişləndiriləcək, SCADA/IoT və itki idarəetmə sistemləri üzrə təlimlər keçiriləcək, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi təmin ediləcək, idarəetmə mexanizmləri gücləndiriləcəkdir.

## 7. Maliyyələşdirmə mexanizmləri

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası üçün tələb olunan maliyyə resurslarının ilkin olaraq dövlət-özəl əməkdaşlığı çərçivəsində, habelə beynəlxalq maliyyə institutlarının kredit və qrant mexanizmləri hesabına təmin olunması imkanları araşdırılacaqdır. Bu imkanlar mövcud olmadıqda, müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları üçün nəzərdə tutulmuş vəsait, büdcədənkənar mənbələr, eləcə də qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilməsi həyata keçiriləcəkdir.

## 8. Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| Prioritet istiqamət 8.1. Su təchizatı və tullantı sularının idarə olunması sistemlərinin inkişafı və dayanıqlığının təmini | | | | | | | |
| Fəaliyyət istiqaməti 8.1.1. Su təchizatının dayanıqlığının artırılması, alternativ su mənbələrinin yaradılması və infrastrukturun yenilənməsi | | | | | | | |
| 8.1.1.1. | Mövcud su mənbələrinin bərpası və əlavə su mənbələrinin istifadəyə cəlbi | ADSEA | İN | 2026–2029 | Layihə-smeta sənədlərinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | Yeni magistral su kəmərinin tikintisi və istismarda olan kəmərlərin fəaliyyətinin bərpası | Bakı şəhərinin və Abşeronun fasiləsiz su təminatı səviyyəsinin 95 faizə çatdırılması |
| 8.1.1.1.1. | Sumqayıt Duzsuzlaşdırma Qurğusundan Ceyranbatan su anbarına qədər yeni magistral kəmərin tikintisi | ADSEA | İN | 2026–2028 | Layihə-smeta sənədlərinin hazırlanması işlərinin tamamlanması | Magistral su kəmərinin tikintisinə başlanılması | Tikintinin başa çatdırılması ilə Bakı şəhərinə və Abşeron yarımadasına verilən içməli suyun həcminin illik 100 milyon kubmetr artırılması |
| 8.1.1.1.2. | Ceyranbatan Sutəmizləyici Qurğular Kompleksinin bərpası | ADSEA | İN | 2026–2029 | Müvafiq qurğuların yenidən qurulması ilə bağlı layihə-smeta sənədlərinin hazırlanması işlərinin tamamlanması, Ceyranbatan UF (ultra sutəmizləyici) qurğusunda süzgəclərin yenilənməsi | Ceyranbatan sutəmizləyici qurğusunun yenidən qurulması işlərinə başlanılması və plan üzrə işlərin 50 faizinin icrası | Ceyranbatan sutəmizləyici qurğusunun tam istismara qaytarılması, Bakıya və Abşeron yarımadasına verilən içməli suyun həcminin saniyədə 2.5–3.0 kubmetrə qədər artırılması |
| 8.1.1.1.3. | Oğuz–Qəbələ–Bakı su kəmərinin mənbəyində subartezian quyularının və I–II Bakı su kəmərlərinin mənbələrinin bərpası | ADSEA | İN | 2026–2028 | Texniki-iqtisadi əsaslandırma aparmaqla 80 ədəd subartezian quyusunun bərpa planının hazırlanması və bərpa işlərinə başlanılması məqsədilə layihə-smeta sənədlərinin hazırlanması | İstismarda olan subartezian quyularında nasosların fəaliyyətinin bərpası | Oğuz–Qəbələ–Bakı su kəmərinin mənbəyində subartezian quyularının və Bakı şəhərinin su kəmərlərinin mənbələrinin bərpası nəticəsində içməli su həcminin saniyədə 1 kubmetr artırılması |
| 8.1.1.1.4. | Kür sutəmizləyici qurğularının fəaliyyətinin təkmilləşdirilməsi nəticəsində sutəmizləmədə səmərəliliyin artırılması | ADSEA | İN | 2026–2028 | Layihə-smeta sənədlərinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | Yenidənqurma işlərinə başlanılması və plan üzrə işlərin 40 faizinin icrası | Qurğunun tam bərpası və təmizləmə səmərəliliyinin 100 faizə çatdırılması |
| 8.1.1.1.5. | Abşeron yarımadasının mövcud və alternativ içməli və texniki su mənbələrinin, o cümlədən Bakı Metropoliteni stansiyalarında formalaşan sulardan istifadə imkanlarının araşdırılması | ADSEA | ETSN, ETN, BM | 2026–2027 | Mövcud su mənbələrinin və ona aid fond materiallarının araşdırılması | Texniki su mənbələrinin mövcud sistemlə uzlaşdırılması işlərinin aparılması | Texniki-iqtisadi əsaslandırma sənədinin hazırlanması |
| 8.1.1.2. | Magistral su kəmərlərinin yenilənməsi və ötürmə gücünün artırılması | ADSEA | İN, AAYDA, MRİH | 2026–2035 | Layihə-smeta sənədlərinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | İşlərin mərhələli şəkildə icrası | Bakı şəhəri və Abşeron üzrə magistral kəmərlərin ötürmə gücünün artırılması yolu ilə su təminatının yaxşılaşdırılması |
| 8.1.1.2.1. | Bakı şəhərində istismara yararsız magistral su kəmərlərinin yenilənməsi | ADSEA | İN, BŞİH, AAYDA | 2026–2035 | 20 layihə sənədinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | Plan üzrə işlərin 45 faizinin icrası | 110 km magistral kəmərin əsaslı təmiri işlərinin yekunlaşdırılması |
| 8.1.1.2.2. | Kür–Bakı magistral su kəməri xətti üzrə su təchizatının dayanıqlığının artırılması | ADSEA | İN, AAYDA, BŞİH | 2026–2029 | Layihə-smeta sənədlərinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | Plan üzrə işlərin 60 faizinin icrası | Kür–Bakı magistral kəmərinin əsaslı təmiri və bərpası |
| 8.1.1.2.3. | Oğuz–Qəbələ–Bakı magistral kəmərinin suburaxma qabiliyyətinin artırılması | ADSEA | İN, AAYDA, MRİH | 2026–2031 | Layihə-smeta sənədlərinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | Magistral kəmərin 60 km qəzalı hissələrinin polad borularla əvəz olunması işlərinə başlanılması | Oğuz–Qəbələ–Bakı magistral kəmərinin əsaslı təmiri (qəzalı hissələrinin polad boru ilə əvəzlənməsi) və magistral kəmərin suburaxma qabiliyyətinin bərpası |
| 8.1.1.2.4. | Ceyranbatan–Abşeron–Balaxanı–Ramana–Zirə– Pirallahı magistral su kəməri boyu yerləşən yaşayış məntəqələrində su çatışmazlığının tam aradan qaldırılması və paylayıcı şəbəkənin genişləndirilməsi | ADSEA | İN | 2026–2030 | Layihə-smeta sənədlərinin təkmilləşdirilməsi və tikinti işlərinə başlanılması | 30 km magistral su xəttinin çəkilməsi və ümumi tutumu 50 min kubmetr olan yeni su anbarlarının tikintisi | Ümumi uzunluğu 77 km olan Ceyranbatan–Abşeron–Balaxanı–Ramana–Zirə–Pirallahı magistral su kəmərinin və ümumi tutumu 110 min kubmetr olan yeni su anbarlarının tikintisinin başa çatdırılması |
| 8.1.1.2.5. | Abşeronun şimal və şərq qəsəbələrinin (Saray, Novxanı, Fatmayı, Pirşağı, Kürdəxanı, Maştağa, Nardaran və Bilgəh) su təchizatında sabitliyin təmin olunması | ADSEA | İN, AAYDA, ADY, "Azərenerji" ASC, DŞAK, BŞİH, ARİH | 2026–2031 | Magistral su xəttinin çəkilməsinə və mərkəzi su anbarlarının tikintisinə başlanılması | 30 km magistral su xəttinin çəkilməsi və ümumi tutumu 60 min kubmetr olan mərkəzi anbarın tikintisinin başa çatdırılması | 68 km-lik Ceyranbatan–Saray–Fatmayı–Nardaran magistral su kəmərinin və kəmər boyunca mərkəzi su anbarlarının tikilməsi nəticəsində su itkisinin 20 faizə qədər azaldılması, habelə ümumi tutumu 130 min kubmetr olan yeni anbarların istifadəyə verilməsi |
| 8.1.1.2.6. | Samur–Abşeron kanalının xidmət sahələrində suvarma suyu təminatının yaxşılaşdırılması və Ceyranbatan su anbarının dayanıqlı su ilə təminatı | ADSEA | İN, "Azərenerji" ASC, KTN, Azərişıq | 2026–2029 | Layihə-smeta sənədlərinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | Bərpa işlərinə başlanılması və plan üzrə işlərin 50 faizinin icrası | Samur–Abşeron kanalının 30 km-lik hissəsinin və hidrotexniki qurğuların bərpasının yekunlaşdırılması |
| 8.1.1.2.7. | Bakı buxtası şərq hissəsinin və Hövsan, Dədə Qorqud və Bahar qəsəbələrinin su təchizatının yaxşılaşdırılması | ADSEA | İN, AAYDA, ADY, "Azərenerji" ASC, DŞAK, BŞİH, ARİH | 2026–2030 | Layihə-smeta sənədlərinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | Magistral su xəttinin tikintisinə başlanılması və işlərin 50 faizinin tamamlanması | "+105 Saray" və "+82 Şərq" su anbarlararası magistral 28 km su kəmərinin tikintisi; "+54 Ramana" və "+37 Dədə Qorqud" su anbarlararası 6 km magistral su kəmərinin tikintisi |
| 8.1.1.2.8. | Ələt Azad İqtisadi Zonasının perspektiv inkişafı nəzərə alınmaqla dayanıqlı su təminatı | ADSEA | İN, BŞİH, AAYDA, ƏAİZ | 2026–2027 | Magistral su kəmərinin tikintisinə başlanılması | Tikinti işlərinin 50 faizinin tamamlanması | 10 km magistral su kəmərinin tikintisinin tamamlanması |
| 8.1.1.3. | Su anbarları və nasos stansiyalarının yenilənməsi | ADSEA | İN, AAYDA, ADY, "Azərenerji" ASC, DŞAK, BŞİH, ARİH | 2026–2029 | Layihə-smeta sənədlərinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | 5 su anbarı və 2 nasos stansiyasının tikintisi | Mövcud su anbarlarının bərpa olunması və istifadəyə verilməsi |
| 8.1.1.3.1. | Binəqədi və Masazır qəsəbələrində ümumi tutumu 40 min kubmetr olan yeni su anbarlarının və müvafiq nasos stansiyalarının qurulması ilə əhalinin dayanıqlı su təminatının yaxşılaşdırılması | ADSEA | İN | 2026–2029 | Layihə-smeta sənədlərinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | 4 ədəd su anbarının və 1 ədəd nasos stansiyasının tikinti işlərinə başlanılması və plan üzrə işlərin 50 faizinin icrası | Binəqədi qəsəbəsində 20 min kubmetrlik su anbarı və nasos stansiyasının tikintisi ilə əhalinin 50 min nəfərə qədər dayanıqlı su ilə təminatı, habelə Masazır qəsəbəsində 20 min kubmetrlik su anbarının istifadəyə verilməsi nəticəsində 15 min nəfər əhalinin su ilə fasiləsiz təminatı |
| 8.1.1.3.2. | "+41 Şərq" və "+41 Qərb" su anbarlarının fəaliyyətinin gücləndirilməsi | ADSEA | İN | 2026–2027 | Layihə-smeta sənədlərinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | Bərpa işlərinə başlanılması və plan üzrə işlərin 40 faizinin icrası | "+41 Şərq" su anbarının (100 min kubmetr) bərpası nəticəsində 150 min nəfərdən çox əhalinin fasiləsiz su təminatının gücləndirilməsi, habelə "+41 Qərb" su anbarının (30 min kubmetr) bərpası nəticəsində 50 min əhalinin dayanıqlı su təminatının bərpası |
| 8.1.1.3.3. | Sanqaçal su anbarı və nasos stansiyasının yenidən qurulması ilə əhalinin dayanıqlı su təminatı | ADSEA | İN, EN, BŞİH | 2028–2029 | Layihə-smeta sənədlərinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | Su anbarının və nasos stansiyasının yenidən qurulması işlərinə başlanılması | Su anbarının və nasos stansiyasının yenidən qurulması işlərinin başa çatdırılması ilə sistemin istismarında səmərəliliyin artırılması |
| Fəaliyyət istiqaməti 8.1.2. Su və kanalizasiya şəbəkələrinin genişləndirilməsi | | | | | | | |
| 8.1.2.1. | Abşeron yarımadasında 64 yaşayış məntəqəsində su təchizatı və kanalizasiya sistemlərinin qurulması | ADSEA | İN, AAYDA, BŞİH, DŞAK, ARİH | 2026–2035 | Layihə-smeta sənədlərinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | Tikinti işlərinə başlanılması və plan üzrə işlərin 40 faizinin icrası | 64 yaşayış məntəqəsinin içməli su təchizatı və tullantı suları sistemləri ilə tam əhatə olunması |
| 8.1.2.2. | Bakı Ağ Şəhər ərazisində yaşayan əhalinin fasiləsiz içməli su və kanalizasiya xidmətlərinə çıxışının artırılması | ADSEA | İN, BŞİH, DŞAK, AAYDA | 2026–2035 | Su, kanalizasiya və yağış suları sistemlərinin tikintisinin layihə-smeta sənədlərinin hazırlanması | Bakı Ağ Şəhər layihəsi çərçivəsində su, kanalizasiya və yağış suları sisteminin tikintisinin davam etdirilməsi | Ərazidə su təchizatı və kanalizasiya sistemlərinin yaradılması, əhalinin fasiləsiz içməli su və kanalizasiya xidmətləri ilə tam təmin edilməsi |
| 8.1.2.3. | Sumqayıt şəhərində əhalinin su ilə tam təchiz edilməsi və tullantı suları sistemi ilə əhatə olunması | ADSEA | İN, ADY, AAYDA, "Azərişıq" ASC, DŞAK, SŞİH | 2026–2032 | Layihə-smeta sənədlərinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | Tikinti işlərinə başlanılması və plan üzrə işlərin 40 faizinin icrası | Sumqayıt şəhərində 150 km içməli su və 180 km kanalizasiya şəbəkəsinin tikintisi |
| 8.1.2.4. | Məhəllədaxili və binadaxili su təchizatı sistemlərinin yenidən qurulması və sayğac əsaslı uçot sisteminin tətbiqi | ADSEA | İN | 2026–2030 | Layihə-smeta sənədlərinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | 20 min yeni sayğacın quraşdırılması, 40 min smart və 70 min mexaniki tipli istismar müddəti başa çatmış sayğacın dəyişdirilməsi | 45 min yeni sayğacın quraşdırılması, 80 min smart və 165 min mexaniki tipli istismar müddəti başa çatmış sayğacın dəyişdirilməsi |
| Prioritet istiqamət 8.2: Su sektorunda təbii fəlakət risklərinin və ekoloji dayanıqlığın idarə edilməsinin təmini | | | | | | | |
| Fəaliyyət istiqaməti 8.2.1. Yağış suları risklərinin aradan qaldırılması | | | | | | | |
| 8.2.1.1. | Abşeron yarımadasının subasmaya məruz qalan ərazilərində yağış sularının idarə olunması sistemlərinin qurulması | ADSEA | İN | 2026–2034 | Subasmaya məruz qalan ərazilərin müəyyənləşdirilməsi | Texniki-iqtisadi əsaslandırılma və layihə sənədlərinin hazırlanması | Yağış sularının idarəetmə sisteminin qurulması və subasmaya məruz qalan ərazilərin sayının 30 faizdən çox azaldılması |
| Fəaliyyət istiqaməti 8.2.2. Tullantı su infrastrukturunun təkmilləşdirilməsi və ekoloji vəziyyətin yaxşılaşdırılması | | | | | | | |
| 8.2.2.1. | Yeni kollektor və təmizləyici qurğuların istifadəyə verilməsi | ADSEA | İN, AAYDA, DŞAK, ADY, BŞİH, ARİH, SŞİH | 2026–2035 | Layihə-smeta sənədlərinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | Tikinti və bərpa işlərinə başlanılması, plan üzrə işlərin 40–50 faizinin icrası | Bakı, Abşeron və Sumqayıt üzrə ümumilikdə 230 km kollektor şəbəkəsi və məhsuldarlığı 370 min kubmetr/gün olan yeni təmizləyici qurğuların istifadəyə verilməsi |
| 8.2.2.1.1. | Bakı şəhərinin qəsəbələrində kanalizasiya sisteminin yenilənməsi, eləcə də Bakı buxtasının və Xocəsən, Qırmızı, Qu və Lökbatan göllərinin ekoloji vəziyyətinin yaxşılaşdırılması | ADSEA | İN, AAYDA, DŞAK, ADY, BŞİH, ARİH | 2026–2028 | Lökbatan hövzəsi üzrə gətirici kanalizasiya kollektorunun və təmizləyici qurğunun tikintisinin davam etdirilməsi | Tikinti işlərinin davam etdirilməsi və plan üzrə işlərin 40 faizinin icrası | 23 km kollektor və məhsuldarlığı 100 min kubmetr/gün olan qurğunun istifadəyə verilməsi |
| 8.2.2.1.2. | Sahil, Sanqaçal və Ümid qəsəbələrində tullantı sularının idarə olunması və sahilboyu zonada ekoloji tarazlığın bərpası | ADSEA | İN, AAYDA, DŞAK, BŞİH | 2026–2031 | Sahil hövzəsi üzrə gətirici kanalizasiya kollektorunun və sutəmizləyici qurğunun layihə-smeta sənədlərinin hazırlanması işlərinin yekunlaşdırılması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | Tikinti işlərinə başlanılması və plan üzrə işlərin 40 faizinin icrası | 17 km kollektor və məhsuldarlığı 18 min kubmetr/gün olan qurğuların istifadəyə verilməsi |
| 8.2.2.1.3 | Pirallahı qəsəbəsində tullantı sularının idarə olunması | ADSEA | İN, AAYDA, DŞAK, BŞİH | 2026–2029 | Pirallahı hövzəsi üzrə gətirici kanalizasiya kollektorunun və sutəmizləyici qurğunun tikinti layihələrinə ekspertiza rəyinin alınması | Tikinti işlərinə başlanılması və plan üzrə işlərin 50 faizinin icrası | 3 km kollektor və məhsuldarlığı 12 min kubmetr/gün olan qurğuların istifadəyə verilməsi |
| 8.2.2.1.4. | Ələt Azad İqtisadi Zonası, Ələt, Qobustan və Şıxlar qəsəbələrində tullantı sularının idarə olunması | ADSEA | İN, AAYDA, DŞAK, BŞİH | 2026–2030 | Ələt hövzəsi üzrə gətirici kanalizasiya kollektorunun və sutəmizləyici qurğunun tikinti layihələrinə ekspertiza rəyinin alınması | Tikinti işlərinə başlanılması və plan üzrə işlərin 40 faizinin icrası | 39 km kollektor və məhsuldarlığı 100 min kubmetr/gün olan qurğunun istifadəyə verilməsi |

*(ardı 16-cı səhifədə)*

# Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026–2035-ci illər üçün Dövlət Proqramı

*(əvvəli 15-ci səhifədə)*

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.2.2.1.5. | Maştağa, Ramana, Binə, Qala, Zirə, Türkan, Dübəndi, Gürgan və Hövsan qəsəbələrində tullantı sularının idarə olunması sisteminin qurulması | ADSEA | İN, AAYDA, DŞAK, BŞİH | 2026–2031 | Hövsan–Binə–Maştağa–Türkan hövzəsi üzrə gətirici kanalizasiya kollektorunun tikinti layihələrinə ekspertiza rəyinin alınması | Tikinti işlərinə başlanılması və plan üzrə işlərin 40 faizinin icrası | 116 km uzunluğunda yeni kollektorların istifadəyə verilməsi |
| 8.2.2.1.6. | Mərdəkan, Şağan, Şüvəlan, Qala, Buzovna qəsəbələrində tullantı sularının idarə olunması və sahilboyu ərazilərdə ekoloji tarazlığın qorunması | ADSEA | İN, AAYDA, DŞAK, BŞİH | 2026–2031 | Şüvəlan hövzəsi üzrə gətirici kanalizasiya kollektorunun və sutəmizləyici qurğunun tikinti layihələrinə ekspertiza rəyinin alınması | Tikinti işlərinin davam etdirilməsi və plan üzrə işlərin 40 faizinin icrası | 35 km kollektor və məhsuldarlığı 40 min kubmetr/gün olan yeni qurğunun istifadəyə verilməsi |
| 8.2.2.1.7. | Bilgəh, Nardaran, Pirşağı, Novxanı, Goradil, Fatmayı, Saray, Zabrat, Balaxanı, Məhəmmədi, Kürdəxanı qəsəbələrində tullantı sularının idarə olunması | ADSEA | İN, AAYDA, DŞAK, ADY, BŞİH | 2026–2027 | Pirşağı hövzəsi üzrə gətirici kanalizasiya kollektorunun tikintisinin davam etdirilməsi | Tikinti işlərinin davam etdirilməsi və plan üzrə işlərin 50 faizinin icrası | 32 km kollektorun istifadəyə verilməsi, subasma risklərinin azaldılması |
| 8.2.2.1.8. | Xırdalan şəhəri, 28 May, Müşfiqabad, Hökməli və Aşağı Güzdək qəsəbələrində formalaşan tullantı sularının idarə edilməsi, habelə Ceyranbatan su anbarının ekoloji vəziyyətinin yaxşılaşdırılması | ADSEA | İN, AAYDA, DŞAK, ADY, ARİH | 2026–2028 | Müşfiqabad hövzəsi üzrə gətirici kanalizasiya kollektorunun və tullantı sutəmizləyici qurğuların tikintisinin davam etdirilməsi | Tikinti işlərinin davam etdirilməsi və plan üzrə işlərin 50 faizinin icrası | 17 km-lik gətirici kollektorun və məhsuldarlığı 75 min kubmetr/gün olan qurğunun tikintisinin yekunlaşdırılması |
| 8.2.2.1.9. | Bakı şəhərinin şərq hissəsində daşqın risklərinin azaldılması | ADSEA | İN, AAYDA, DŞAK, ADY, BM, BŞİH | 2026–2027 | Dərnəgül–Bakıxanov–Qaraçuxur–Hövsan xəttinin tikintisinin davam etdirilməsi | Tikinti işlərinin davam etdirilməsi və plan üzrə işlərin 50 faizinin icrası | 10.4 km-lik kollektorun istifadəyə verilməsi, daşqın risklərinin azaldılması |
| 8.2.2.1.10. | "Şəhərkənarı" kollektorun yenilənməsi və Bakı buxtasının ekoloji vəziyyətinin yaxşılaşdırılması | ADSEA | İN, AAYDA, DŞAK, ADY, BŞİH | 2026–2027 | Müvafiq sahədə tikinti işlərinin davam etdirilməsi | Plan üzrə işlərin 50 faizinin icrası | 28 km-lik Zığ–Hövsan kanalizasiya kollektorunun və yeni nasos stansiyasının tikintisi |
| 8.2.2.1.11. | Biləcəri, Binəqədi, M.Ə.Rəsulzadə, Mehdiabad və Digah qəsəbələrində tullantı sularının idarə edilməsi sayəsində Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması | ADSEA | İN, AAYDA, DŞAK, ADY, BŞİH, ARİH | 2026–2028 | Böyükşor hövzəsi üzrə gətirici kanalizasiya kollektorunun və tullantı sutəmizləyici qurğunun tikintisinin davam etdirilməsi | Plan üzrə işlərin 50 faizinin icrası | 16 km-lik gətirici kollektorun və məhsuldarlığı 40 min kubmetr/gün olan qurğunun tikintisinin tamamlanması |
| 8.2.2.2. | Mövcud tullantı su infrastrukturunun yenidən qurulması | ADSEA | İN, AAYDA, DŞAK, ADY, BŞİH, SŞİH, BM | 2026–2035 | Layihə-smeta sənədlərinin hazırlanması, tikinti layihələrinə ekspertiza rəyinin alınması və tikinti işlərinə başlanılması | Tikinti işlərinin davam etdirilməsi və əsas obyektlərin tikintisi ilə bağlı işlərin 40–50 faizinin icrası | Tullantı su infrastrukturunun genişləndirilməsi |
| 8.2.2.2.1. | Sumqayıtda "Acıdərə" kanalı boyunca sistemin yenilənməsi | ADSEA | İN, AAYDA, DŞAK, SŞİH | 2026–2027 | Müvafiq sahədə tikinti işlərinin davam etdirilməsi | Plan üzrə işlərin 50 faizinin icrası | Gücü 100 min kubmetr/gün olan Sumqayıt tullantı sutəmizləyici qurğusunun bərpası və yağış suyu sisteminin istifadəyə verilməsi |
| 8.2.2.2.2. | Mövcud kanalizasiya və yağış suları kollektorlarının bərpası | ADSEA | İN, AAYDA, DŞAK, BŞİH | 2026–2035 | Bərpa olunacaq kollektorların layihə-smeta sənədlərinin hazırlanması, tikinti layihələrinə ekspertiza rəyinin alınması və tikinti işlərinə başlanılması | Tikinti işlərinin davam etdirilməsi və plan üzrə işlərin 40 faizinin icrası | Bakı şəhərində və Abşeronda mövcud əsas daşıyıcı kollektorların tam bərpası |
| 8.2.2.2.3. | Bakı şəhərinin mərkəzində formalaşan tullantı sularının idarə edilməsi ilə Bakı buxtasının ekoloji vəziyyətinin yaxşılaşdırılması | ADSEA | İN, AAYDA, DŞAK, ADY, BŞİH | 2026–2028 | Sahil kollektorunun yenidən qurulması işlərinin davam etdirilməsi | Plan üzrə işlərin 50 faizinin icrası | Ümumi uzunluğu 10 km olan gətirici kollektorun tikintisinin tamamlanması |
| 8.2.2.2.4. | Hövsan qəsəbəsində tullantı sutəmizləyici qurğularının yenidən qurulması | ADSEA | İN, "Azərişıq" ASC, EN | 2026–2031 | Texniki-iqtisadi əsaslandırma və layihə-smeta sənədlərinin hazırlanması, tikinti layihələrinə ekspertiza rəyinin alınması və tikinti işlərinə başlanılması | Tikinti işlərinin davam etdirilməsi | Məhsuldarlığın artırılması və təmizləmə gücünün yüksəldilməsi |
| 8.2.2.2.5. | Sumqayıt şəhərində yeni tullantı sutəmizləyici qurğunun tikintisi | ADSEA | İN, DŞAK, "Azərişıq" ASC, SŞİH | 2027–2029 | Layihə-smeta sənədlərinin hazırlanması və tikinti layihələrinə ekspertiza rəyinin alınması | Tikinti işlərinə başlanılması və plan üzrə işlərin 40 faizinin icrası | Məhsuldarlığı 100 min kubmetr/gün olan yeni qurğunun tikinti işlərinin yekunlaşdırılması |
| 8.2.2.2.6. | Təmizlənmiş tullantı sularından müxtəlif sahələrdə istifadənin təşviqi | ADSEA | İN, BM | 2026–2029 | 2 pilot ərazidə tullantı su istifadəsinin ilkin təşkili | 5 pilot ərazidə tullantı sularından istifadənin genişləndirilməsi | Pilot ərazilərdə və sənaye sektorunda tullantı su istifadəsinin 50 faizə çatdırılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **Prioritet istiqamət 8.3. Su sektorunda innovasiya və rəqəmsallaşma** | | | | | | | |
| **Fəaliyyət istiqaməti 8.3.1. Su sektorunda rəqəmsal idarəetmə və SCADA/IoT sistemlərinin tətbiqi** | | | | | | | |
| 8.3.1.1. | Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin idarə olunmasının proqram təminatının genişləndirilməsi | ADSEA | İN | 2026–2035 | Beynəlxalq təcrübənin öyrənilməsi, ehtiyacların müəyyənləşdirilməsi | Proqram təminatlarının təkmilləşdirilməsi ilə bağlı işlərə başlanılması | Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sisteminin inkişafına uyğun olaraq xidmətin proqram təminatı imkanlarının davamlı genişləndirilməsi |
| 8.3.1.2. | Magistral və paylayıcı su şəbəkələrində sızma və nasazlıqların aşkarlanması üçün SCADA və IoT əsaslı monitorinq sistemlərinin quraşdırılması | ADSEA | İN | 2026–2031 | 1 pilot ərazidə monitorinq sisteminin qurulması | 2 pilot ərazidə monitorinq sisteminin qurulması | Monitorinq sisteminin qurulmasının tamamlanması |
| 8.3.1.3. | Nəzarət olunan suların təyinatının müəyyən edilməsi, suların keyfiyyətini geniş tərkibdə qiymətləndirməklə təhlükəsizliyinin artırılması | ADSEA | İN, ETN | 2026–2029 | 15 laboratoriyada maddi-texniki bazanın yenilənməsi | Laboratoriyalarda yeni avadanlığın quraşdırılması, 60 nəfər analitik heyət üzvünə təlim keçirilməsi | Suyun keyfiyyətinə nəzarətin artırılması sahəsində müasir texnologiyanın tətbiqi ilə nəzarət olunan suların təyinatının müəyyən edilməsi, suların keyfiyyətini geniş tərkibdə qiymətləndirməklə təhlükəsizliyin artmasına nail olunması |
| 8.3.1.4. | Qəza-bərpa işlərinin çevikliyinin təmini, sistemin istismarında səmərəliliyin artırılması | ADSEA | İN, FHN | 2026–2028 | Hədəf və ehtiyacların müəyyənləşdirilməsi | Əsas fondların alınması | Maddi-texniki bazanın gücləndirilməsi |
| 8.3.1.5. | Su təsərrüfatı sistemlərinin mühafizə zonalarında təhlükəsizliyinin gücləndirilməsi və istismarının təkmilləşdirilməsi | ADSEA | İN, ƏN, BŞİH, ARİH, SŞİH, DŞAK, SOMDA | 2026–2030 | Su, yağış və tullantı suyu sistemlərinin mühafizə zonaları üzrə inventarlaşmanın aparılması | Mühafizə zonalarında təhlükəsizliyə nəzarətin gücləndirilməsi | Normativ hüquqi aktların tələblərinə uyğun olaraq mühafizə zonalarında fəaliyyətə dair tədbirlər görülməsi; Suların təhlükəsizlik göstəricisinin 98 faizə çatdırılması |
| 8.3.1.6. | Bakı şəhərində və Abşeron yarımadasında su sahəsində həyata keçiriləcək tikinti-quraşdırma işlərində keyfiyyətin və texniki nəzarətin gücləndirilməsi | ADSEA | İN, RİNN | 2026–2035 | Beynəlxalq məsləhətçinin cəlb olunması ilə 5 əsas layihədə keyfiyyətə texniki nəzarətin həyata keçirilməsi | Layihələr üzrə keyfiyyət və texniki nəzarət monitorinqinin davam etdirilməsi | Su sahəsində tikintidə keyfiyyət göstəricisinin 95 faizdən çox olması; Su sahəsində texniki normativlərə uyğunluğun 98 faizə çatdırılması |
| 8.3.1.7. | "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" nəzərə alınmaqla su sahəsində inkişafın təmin edilməsi | ADSEA | İN, ETSN, RİNN DŞAK, AAYDA, "Azərişıq" ASC, BŞİH, ARİH | 2026–2028 | Baş plan üzrə ilkin analitik hesabatın hazırlanması | Layihənin ictimai müzakirəsi və rəylərin təhlili | Su sahəsində 2040-cı il perspektiv inkişaf planının təsdiqi və icra mexanizminin hazırlanması |
| **Fəaliyyət istiqaməti 8.3.2. Su itkisinin idarə edilməsinin effektiv monitorinqinin təmini** | | | | | | | |
| 8.3.2.1. | İtki idarəetmə üzrə kadrların hazırlanması və ixtisasartırma təlimlərinin təşkili | ADSEA | İN, ETN | 2026–2029 | Müvafiq sahədə təlim proqramlarının hazırlanması; Təlim proqramında iştirak edəcək heyətin müəyyən olunması | Azı 50 nəfərin ixtisasartırma təlimlərinə cəlb edilməsi | Təlimi başa vuran heyətin praktiki bacarıqlarının yüksəlməsi və itki idarəetməsində səmərəliliyin azı 15 faiz artırılması |
| 8.3.2.2. | Su itkisi üzrə ictimai maarifləndirmə kampaniyalarının keçirilməsi və istehlakçıların məsuliyyətinin artırılması | ADSEA | İN | 2026–2029 | Azı 20 yaşayış məntəqəsində maarifləndirici kampaniyaların keçirilməsi | Suya qənaət davranışlarını qəbul edən istehlakçıların payının azı 30 faizə çatması | Müvafiq yaşayış məntəqələrində ictimai məlumatlılıq səviyyəsinin azı 40 faiz artması və qeyri-məhsuldar su sərfinin 10 faiz azalması |

### 9. Akronimlər və ixtisarlar

AAYDA – "Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi" publik hüquqi şəxs

ADSEA – Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi

ADY – "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti

"Azərenerji" ASC – "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti

"Azərişıq" ASC – "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti

ARİH – Abşeron Rayon İcra Hakimiyyəti

BM – "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti

BŞİH – Bakı Şəhər İcra Hakimiyyəti

DŞAK – Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi

ETN – Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

ETSN – Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi

EN – Azərbaycan Respublikasının Energetika Nazirliyi

ƏAİZ – Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumu

ƏN – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

FHN – Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi

İN – Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

MRİH – Müvafiq Rayon İcra Hakimiyyətləri

RİNN – Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi

SOMDA – Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi

SŞİH – Sumqayıt Şəhər İcra Hakimiyyəti

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 8** **12 yanvar 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 26 aprel tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 823 (Cild I); 2024, № 1, maddə 77, № 9, maddə 1106; 2025, № 3, maddə 293) ilə təsdiq edilmiş "Gömrük yığımlarının məbləğləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.4-cü bəndə "gömrük yığımları" sözlərindən sonra "(bu Sənədin 2.1-1-ci bəndində nəzərdə tutulan gömrük yığımları istisna olmaqla)" sözləri əlavə edilsin;

1.2. 2.1-ci bənddə "Malların" sözü "Bu Sənədin 2.1-1-ci bəndi nəzərə alınmaqla, malların" sözləri ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Bu Sənədin 2.1-ci bəndi ilə müəyyən olunmuş gömrük yığımlarına əlavə olaraq, aşağıdakı malların sərbəst dövriyyəyə buraxılış gömrük proseduru altında yerləşdirilməsinə görə müvafiq məbləğlərdə gömrük yığımları alınır:

2.1-1.1. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təsdiqedici sənədinə əsasən, işğaldan azad edilmiş ərazilərdə yerləşən sənaye parklarının rezidenti olan hüquqi şəxslər tərəfindən sənaye parklarında istehsal məqsədi ilə xammal kimi idxal istisna olmaqla, xarici iqtisadi fəaliyyətin mal nomenklaturunun 7213 (7213 91 410 0 alt yarımmövqeyi istisna olmaqla) və 7214 mal mövqeyində təsnifləşdirilən "dəmirdən və ya aşqarlanmamış poladdan çubuqlar"ın 1 tonu üçün - 150 manat;

2.1-1.2. xarici iqtisadi fəaliyyətin mal nomenklaturunun 7005 10 050 0, 7005 10 250 0, 7005 10 300 0, 7005 10 800 0, 7005 21 250 0, 7005 21 300 0, 7005 21 800 0, 7005 29 250 0, 7005 29 350 0, 7005 29 800 0 alt yarımmövqelərində təsnifləşdirilən armaturlaşdırılmamış şüşələrin 1 tonu üçün - 100 manat.".

**2.** Bu Qərar 2026-cı il 2 yanvar tarixindən tətbiq edilir və 2026-cı il 30 iyun tarixinədək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 9** **12 yanvar 2026-cı il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, № 5, maddə 512, № 9, maddələr 845, 868; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 293 nömrəli və 30 dekabr tarixli 416 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 0207 11 100 0, 0207 11 300 0, 0207 11 900 0, 0207 12 100 0, 0207 12 900 0, 0207 13 100 0, 0207 13 200 0, 0207 13 300 0, 0207 13 400 0, 0207 13 500 0, 0207 13 600 0, 0207 13 700 0, 0207 13 910 0, 0207 13 990 0, 0207 14 100 0, 0207 14 200 0, 0207 14 300 0, 0207 14 400 0, 0207 14 500 0, 0207 14 600 0, 0207 14 700 0, 0207 14 910 0, 0207 14 990 9, 0407 11 000 0, 0407 21 000 0, 0407 90 100 0, 0407 90 900 0, 0702 00 000 0, 0707 00 050 0, 0707 00 900 0, 0806 10 100 0, 0806 10 900 0, 0808 10 100 0, 0808 10 800 0, 0808 30 100 0, 0808 30 900 0, 2009 12 000 0, 2009 21 000 0, 2009 31 110 0, 2009 31 190 0, 2009 31 510 0, 2009 31 590 0, 2009 31 910 0, 2009 31 990 0, 2009 41 920 0, 2009 41 990 0, 2009 50 100 0, 2009 50 900 0, 2009 61 100 0, 2009 61 900 0, 2009 71 200 0, 2009 71 990 0, 2202 99 180 1, 2202 99 180 2, 2403 19 100 1, 2403 19 900 1, 6907 21 100 0, 6907 21 900 0, 6907 22 100 0, 6907 22 900 0, 6907 23 100 0, 6907 23 900 0, 6907 30 100 0, 6907 30 900 0, 6907 40 100 0 və 6907 40 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2025-ci il" sözləri "31.12.2028-ci il" sözləri ilə əvəz edilsin;

1.2. 0405 10 110 0, 0405 10 190 0, 0405 10 300 0, 0405 10 500 0, 0405 10 900 0, 0405 20 100 0, 0405 20 300 0, 0405 20 900 0, 0405 90 100 0, 0405 90 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2025-ci il" sözləri "31.12.2027-ci il" sözləri ilə əvəz edilsin;

1.3. 4101 20 100 0, 4101 20 300 0, 4101 20 500 0, 4101 20 800 0, 4101 50 100 0, 4101 50 300 0, 4101 50 500 0, 4101 50 900 0, 4101 90 000 0, 4102 10 100 0, 4102 10 900 0, 4102 29 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2025-ci il tarixinədək-1000 kq - 500 ABŞ dolları" sözləri "31.12.2026-cı il tarixinədək-1000 kq - 250 ABŞ dolları" sözləri ilə əvəz edilsin;

1.4. 4102 21 000 0, 4104 11 100 0, 4104 11 510 0, 4104 11 590 0, 4104 11 900 0, 4104 19 100 0, 4104 19 510 0, 4104 19 590 0, 4104 19 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2025-ci il tarixinədək-1000 kq - 150 ABŞ dolları" sözləri "31.12.2026-cı il tarixinədək-1000 kq - 75 ABŞ dolları" sözləri ilə əvəz edilsin;

1.5. 4105 10 000 0 alt yarımmövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2025-ci il tarixinədək-1000 kq - 50 ABŞ dolları" sözləri "31.12.2026-cı il tarixinədək-1000 kq - 25 ABŞ dolları" sözləri ilə əvəz edilsin;

1.6. 6806 10 000 0, 8421 31 000 9 alt yarımmövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15 (31.12.2030-cu il tarixinədək 0%)" sözləri "15" rəqəmləri ilə əvəz edilsin;

1.7. 6806 90 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 6806 90 000 | – digərləri | | |
| 6806 90 000 1 | – – tərkibində şlak-pambığı, mineral silikat-pambığı və analoji mineral pambıqlar olan | – | 15 |
| 6806 90 000 9 | – – digərləri | – | 15 (31.12.2030-cu il tarixinədək 0%) |

1.8. 6809 11 000 0 və 6809 19 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2025-ci il tarixinədək 1 m2 0,4 ABŞ dolları" sözləri "31.12.2028-ci il tarixədək 15%, lakin 1 m2 üçün 0,4 ABŞ dollarından az olmamaqla" sözləri ilə əvəz edilsin;

1.9. 6904 10 000 0 alt yarımmövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2025-ci il tarixinədək 1000 ədəd 15 ABŞ dolları" sözləri "31.12.2028-ci il tarixinədək 1000 ədəd üçün 20 ABŞ dolları" sözləri ilə əvəz edilsin.

**2.** Bu Qərarın 1.6-cı və 1.7-ci bəndləri dərc edildiyi gündən 30 (otuz) gün sonra, digər bəndləri 2026-cı il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Prezident müşavirə keçirib*

# Bakı və Abşeronun çağdaş su konsepsiyası

## *Paytaxt və ətraf məntəqələrin içməli su problemi aradan qaldırılacaq*

**Müasir dünyada su resurslarının idarə olunması kommunal təsərrüfat problemi olmaqla bərabər, iqtisadi inkişafın, sosial rifahın və ekoloji təhlükəsizliyin əsas şərtlərindən biridir. Xüsusilə iqlim dəyişikliklərinin təsiri, urbanizasiyanın sürətlənməsi və əhalinin artımı fonunda böyük şəhərlərdə su təchizatı, eləcə də tullantı sularının idarə edilməsi strateji önəm daşıyır. Prezident İlham Əliyevin sədrliyi ilə yanvarın 12-də keçirilən müşavirə də məhz bu reallıqlar fonunda Bakı şəhəri və Abşeron yarımadası üçün uzunmüddətli, sistemli və dayanıqlı yanaşmanın formalaşdırılması istiqamətində atılan əhəmiyyətli bir addımdır.**



Azərbaycan lideri çıxışında Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramının paytaxt və ətraf ərazilərdə su təsərrüfatının bütün zəncirini – içməli su mənbələrindən tutmuş yağış və tullantı sularının təhlükəsiz şəkildə idarə edilməsinədək olan mərhələni vahid konsepsiya çərçivəsində birləşdirən mühüm sənəd kimi dəyərləndirərək deyib: “Bu proqramın əsas məqsədi, qeyd etdiyim kimi, Bakı və Abşeron yarımadasını dayanıqlı içməli su ilə təmin etməkdir. Proqram 2035-ci ilə qədər icra olunmalıdır. Bu fakt özlüyündə göstərir ki, nə qədər genişmiqyaslı proqramdır, çünki vaxt lazımdır biz bunu tam icra edək. Proqramın icrası üçün maliyyə mənbələri müəyyən edilib”.

Prezident İlham Əliyev müşavirədəki çıxışında Bakı və Abşeron yarımadasında su təchizatı və kanalizasiya sistemləri ilə bağlı mövcud vəziyyəti də geniş təhlil edərək, illər ərzində yığılıb qalmış problemlərin kompleks həllinin zəruriliyini vurğulayıb. Dövlət başçısı paytaxtın sürətli inkişafı, yeni yaşayış massivlərinin salınması və infrastrukturun genişlənməsinin mövcud sistemlər üzərində ciddi təzyiq yaratdığını xüsusi qeyd edib.

Azərbaycan liderinin çıxışında əsas mesajlardan biri ondan ibarət idi ki, məsələni epizodik tədbirlərlə deyil, uzunmüddətli strateji planlama yolu ilə həll etmək lazımdır. Bu baxımdan Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramı təkcə texniki layihələr toplusu deyil, eyni zamanda, şəhərsalma siyasəti, ekoloji balans və sosial rifahı əhatə edən mükəmməl yol xəritəsidir.

Müşavirədə qeyd olunub ki, Bakı və Abşeron yarımadası ölkə əhalisinin və iqtisadi potensialının böyük hissəsini cəmləşdirir. Bu isə suya olan tələbatın ildən-ilə artmasını şərtləndirir. Vəziyyəti ağırlaşdıran problem əsasən mövcud su mənbələrinin bir hissəsinin istismar müddətini başa vurmuş infrastruktura bağlıdır, itkilər isə bəzi sahələrdə hələ də yüksək olaraq qalır. Digər problem isə tullantı və yağış sularının idarə olunmasındakı çətinliklərlə əlaqədardır. Buna görə də qısamüddətli intensiv yağıntılar zamanı paytaxtda müşahidə olunan subasmalar, küçə və prospektlərin su altında qalması bu sahədə köklü dəyişikliklərin zəruriliyini açıq şəkildə göstərir. Dövlət Proqramı məhz bu problemlərin aradan qaldırılmasını prioritet istiqamət kimi müəyyən edir.

Müşavirədə diqqətçəkən əsas mövzulardan biri tullantı və yağış sularının ayrılıqda və müasir standartlara uyğun şəkildə idarə olunması idi. Qeyd olundu ki, köhnə sistemlərdə bu suların qarışması həm ekoloji risklər yaradır, həm də təmizləmə qurğularının səmərəliyini azaldır. Yeni Dövlət Proqramında bu sahədə beynəlxalq təcrübəyə əsaslanan yanaşmaların tətbiqi nəzərdə tutulur. Sənəddə, eyni zamanda, müasir kollektor sistemləri, yeni nasos stansiyaları, yağış sularının toplanılması və təkrar istifadəsi imkanlarının şəhər mühitinin keyfiyyətinin yüksəldilməsinə mühüm təsir göstərəcəyi vurğulanır. Bu, həm də haqlı olaraq Bakının iqlim dəyişikliklərinə davamlılığını artıracaq mühüm addım kimi qiymətləndirilir.

Müşavirədə çıxış edən aidiyyəti qurumların rəhbərləri Dövlət Proqramının icrası çərçivəsində görüləcək konkret işlər barədə ətraflı məlumat verdilər. Bildirildi ki, proqram yeni obyektlərin tikintisi ilə bərabər, mövcud infrastrukturun yenilənməsi, rəqəmsal monitorinq sistemlərinin tətbiqi və idarəetmənin təkmilləşdirilməsini də əhatə edir. Xüsusi vurğulandı ki, su təsərrüfatında itkilərin azaldılması üçün “ağıllı” su şəbəkələri, real vaxt rejimində nəzarət və avtomatlaşdırma texnologiyalarından da geniş istifadə olunacaq. Bu yanaşma həm iqtisadi səmərəliyi artıracaq, həm də resursların qorunmasına xidmət edəcək.

Dövlət Proqramının əsas məqsədlərindən biri də əhalinin həyat keyfiyyətinin yüksəldilməsidir. Sabit və keyfiyyətli su təchizatının yaxşılaşdırılması, kanalizasiya problemlərinin aradan qaldırılması, subasma risklərinin minimuma endirilməsi isə paytaxt sakinlərinin gündəlik həyatına birbaşa təsir göstərən amillərdir. Prezident İlham Əliyev bununla bağlı müşavirədə vurğuladı ki, həyata keçirilən bütün layihələrin mərkəzində vətəndaş dayanmalıdır. İnfrastrukturun inkişafı insanların rahatlığına, sağlamlığına və təhlükəsizliyinə xidmət etməlidir. Bu yanaşma sosial dövlət konsepsiyasının praktik təzahürü kimi qiymətləndirilir.

Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramı Azərbaycanın beynəlxalq öhdəlikləri və dayanıqlı inkişaf məqsədləri ilə də uzlaşır. Yeri gəlmişkən, su resurslarının səmərəli idarə olunması, ekosistemlərin qorunması və şəhərlərin dayanıqlılığının artırılması BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin əsas komponentlərindən biridir. Bu baxımdan Bakı və Abşeron yarımadasında həyata keçiriləcək layihələr təkcə yerli deyil, eyni zamanda, regional və qlobal miqyasda da mühüm önəm daşıyır. Azərbaycan bu sahədə müasir yanaşmaları tətbiq etməklə nümunəvi model formalaşdırmaq niyyətindədir.

Müşavirədə adıçəkilən Dövlət Proqramının maliyyələşmə mənbələri və icra mexanizmləri də müzakirə olundu. Qeyd edildi ki, layihələrin mərhələli şəkildə həyata keçirilməsi, vəsaitlərin səmərəli istifadəsi və ictimai nəzarətin təmin edilməsi əsas prinsiplərdən olacaq. Prezident İlham Əliyev bu sahədə ciddi nəzarət mexanizmlərinin qurulmasının vacibliyini xüsusi vurğuladı. Dövlət başçısının fikrincə, iri infrastruktur layihələri yalnız texniki cəhətdən deyil, həm də idarəetmə və məsuliyyət baxımından da mükəmməl olmalıdır.

Yanvarın 12-də keçirilən müşavirə bir daha göstərdi ki, Bakı şəhəri və Abşeron yarımadasının gələcək inkişafı üçün su təsərrüfatının modernləşdirilməsi həlledici əhəmiyyət daşıyır. Bu istiqamətdə son illər reallaşdırılan genişmiqyaslı layihələr də 2026–2035-ci illər üzrə Dövlət Proqramının paytaxtın infrastruktur simasını dəyişəcəyini, ekoloji təhlükəsizliyi möhkəmləndirəcəyini və şəhər mühitinin keyfiyyətini yeni səviyyəyə qaldıracağını deməyə əsas verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən bu strateji xətt Bakını təkcə regionun deyil, daha geniş coğrafiyanın müasir və dayanıqlı şəhərlərindən birinə çevirməyi hədəfləyir. Qarşıdakı onillikdə atılacaq addımlar paytaxt sakinlərinin rifahında, şəhərin görünüşündə və ölkənin ümumi inkişaf modelində öz aydın əksini tapacaq.

***Vaqif BİNYATOĞLU***
***XQ***

*Araşdırma*

# Paytaxt metrosu: “Hansı stansiyaya gedirsən?”

## *Məsafəyə görə ödəniş modeli sosial ədalətin tələbidir*

**Bakı metrosunda 2026-cı ildən etibarən tətbiqi nəzərdə tutulan yeni tarif mexanizmi paytaxtın ictimai nəqliyyat sistemində yeni ödəniş qaydasının başlanğıcı kimi qiymətləndirilir. “Bakı Metropoliteni” QSC-nin Maliyyə departamentinin rəisi Kamal Hüseynlinin mediaya açıqlamasına əsasən, hazırda bu qurumda qüvvədə olan ödənişin vahid tarif modelindən sərnişinin getdiyi məsafəyə uyğun qiymətlərə keçid imkanları geniş araşdırılır. İqtisadi baxımdan əsaslandırılan bu yanaşma daha ədalətli tarif mexanizminin formalaşdırılmasını hədəfləyir.**

Qeyd edək ki, cari il “Bakı Metropoliteni”nin qarşışında duran əsas vəzifələrdən biri maliyyə uçotunun daha dəqiq qurulması, maliyyə hesabatlarının ikinci rübün sonunadək açıqlanması və xərclərin strukturlaşdırılmasıdır. Xərc-gəlir mərkəzlərinin müəyyənləşdirilməsi, diferensial tarif modellərinin təhlili, xətt və stansiya səviyyəsində fəaliyyət göstəricilərinin ayrılması əsas prioritetlərdəndir. Bütün bunlarla yanaşı, kommersiya gəlirlərinin genişləndirilməsi və əməliyyat xərclərinin optimallaşdırılması istiqamətində də konkret addımlar nəzərdə tutulur.

Bu il metropolitendə mövcud “qırmızı” və “yaşıl” xətlərin ayrılması üzrə sərnişin axınında qismən azalmalar proqnozlaşdırılır, amma, ümumilikdə, əməliyyat fəaliyyətinin daha optimallaşdırılması gözlənilir. Belə ki, bu dövrdə subsidiya ehtiyacının, təqribən, 40 milyon manat səviyyəsində formalaşacağı proqnozlaşdırılır. Eyni zamanda, metropoliten şəhər miqyasında yüksək tutumlu və kütləvi istifadə olunan nəqliyyat sistemidir və onun maliyyə modeli tənzimlənən tarif mexanizmi əsasında formalaşır. Bu yanaşma metronun bütün şəhər əhalisi üçün əlçatanlığını gerçəkləşdirir, eyni zamanda, tarif gəlirlərinin əməliyyat xərclərini tam qarşılamamasına səbəb olur və subsidiya mexanizmini zəruri edir.

Beləliklə, uzunmüddətli hədəf metronun qısa müddətdə özünü tam maliyyələşdirən sistemə çevrilməsi deyil, əməliyyat xərclərinin optimallaşdırılması, tarif və kommersiya gəlirlərinin payının artırılması və orta müddətdə əməliyyat üzrə subsidiya asılılığının mərhələli şəkildə azaldılmasıdır. Dövlət büdcəsindən ayrılan vəsaitlərin isə əsasən yeni xətlər, stansiyalar və infrastrukturun genişləndirilməsi kimi kapital tutumlu layihələrə yönəldilməsi nəzərdə tutulur.

### Sosial ədalətin tələbi

Bakı metrosunda illərdir ki, tətbiq olunan vahid tarif modeli sadəliyi və rahatlığı ilə seçilsə də, müasir şəhər nəqliyyatı sistemlərinin tələbləri fonunda artıq müəyyən suallar doğurur. Belə ki, 2 – 3 stansiya yol gedən sərnişinlə 20 stansiya qət edənin eyni məbləğ ödəməsi iqtisadi ədalət prinsipinə uyğun gəlmir. Xüsusilə son illərdə Bakı şəhərinin ərazisinin genişlənməsi, yeni yaşayış massivlərinin formalaşması və metro xətlərinin kənar ərazilərə doğru uzanması bu fərqi daha qabarıq şəkildə nəzərə çarpdırır.



Məsafəyə görə ödəniş modeli isə “az yol – az ödəniş, çox yol – daha çox ödəniş” prinsipinə əsaslanır. Bu yanaşma həm metropolitenin real istismar xərclərinin daha düzgün bölüşdürülməsinə, həm də sərnişinlər arasında nisbətən ədalətli maliyyə yükünün formalaşmasına imkan yaradır.

**Nəqliyyat üzrə ekspert Eldəniz Cəfərov** bildirir ki, diferensial tarif sistemlərinin bir neçə tətbiq forması mövcuddur. Bunlardan ən geniş yayılanı məsafə və ya stansiya sayına əsaslanan pilləli tarif modelidir. Bu halda qısa məsafə qət edən sərnişinlər üçün minimum tarif, daha uzun məsafələr üçün isə mərhələli şəkildə artan tarif tətbiq olunur. Alternativ variant isə zona üzrə tarif sistemidir. Bu model şəhər mərkəzi, orta və kənar zonalara bölünür. Sərnişinin keçdiyi zonaların sayına uyğun olaraq gedişhaqqı müəyyənləşdirilir.

Zona modeli texniki baxımdan nisbətən sadə, inzibati baxımdan isə daha çevik hesab olunur. Lakin burada da sosial tarazlığın qorunması əsas şərtdir. Çünki şəhərin kənar ərazilərində yaşayan əhalinin gəlir səviyyəsi çox zaman mərkəzdə yaşayanlarla müqayisədə aşağı olur. Bu səbəbdən paytaxt üçün ən əlverişli, uyğun modelin seçilməsi zamanı təkcə iqtisadi deyil, həm də sosial göstəricilər əsas meyar kimi nəzərə alınır.

### Texnoloji imkanlar və tətbiq mexanizmi

Məsafəyə görə tarif sisteminin tətbiqi üçün texniki infrastruktur həlledici rol oynayır. Mövcud “BakıKart” sistemi bu baxımdan ciddi potensiala malikdir. Sərnişinin metroya daxil olarkən və çıxarkən kartını oxutması vasitəsilə sistem avtomatik olaraq qət edilən məsafəni və ya keçilən zonaları müəyyənləşdirə bilər. Bu, insan amilini minimuma endirir və şəffaf hesablamanı gerçəkləşdirir.

Eyni zamanda, rəqəmsal texnologiyaların inkişafı fərqli sərnişin seqmentləri üçün xüsusi tarif paketlərinin tətbiqinə də imkan yaradır. Məsələn, gündəlik intensiv istifadəçilər üçün sabit aylıq paketlər, tələbələr və pensiyaçılar üçün güzəştli tariflər, sosial həssas qruplar üçün isə diferensial subsidiyalar nəzərdə tutula bilər.

Tarif islahatlarının ən həssas tərəfi sosial balansın qorunmasıdır. Belə ki, məsafəyə görə ödəniş modeli düzgün tənzimlənmədiyi halda, şəhərin kənar ərazilərində yaşayan və gündəlik olaraq uzun məsafə qət edən vətəndaşların maliyyə yükü arta, bu isə müəyyən sosial narazılıqlarla nəticələnər. Beynəlxalq təcrübə də göstərir ki, belə halların qarşısını almaq üçün bir sıra dövlətlərdə müxtəlif kompensasiya mexanizmlərindən istifadə edilir. Bunlara sosial kartlar, subsidiya paketləri, güzəştli abonementlər və ya maksimum tarif həddi tətbiqi daxildir. “Bakı Metropoliteni”ndə planlaşdırılan islahatlarda da bu mexanizmlərin nəzərə alınması vacibdir.

Bəs Bakı hansı modeli seçməlidir? Bu sualın cavabı üçün, ilk növbədə, xarici dövlətlərin bu istiqamətdəki təcrübəsi fonunda bəzi məqamlara diqqət yetirək. Belə ki, Yaponiya, Cənubi Koreya və Sinqapur kimi ölkələrdə məsafəyə əsaslanan tarif sistemi yüksək dəqiqliklə işləyir və ictimai nəqliyyatın maliyyə dayanıqlılığını reallaşdırır. Avropa şəhərlərində isə zona modelinə daha çox üstünlük verilir və bu, şəhərsalma siyasəti ilə uzlaşdırılır.

Moskva və İstanbul kimi meqapolislərdə vahid tarif modeli saxlanılsa da, bu şəhərlərdə paralel olaraq aylıq və illik abonementlər vasitəsilə müəyyən balans yaradılır. Zaman əsaslı tarif sistemləri daha çox turist axını olan şəhərlərdə səmərəli sayılır. Mütəxəssislərin fikrincə, Bakı üçün ideal model isə qarışıq yanaşma hesab edilir. Burada əsas tarifin məsafə və ya zona üzrə hesablanacağı, lakin sosial qruplar, eləcə də daimi istifadəçilər üçün əlavə yumşaldıcı mexanizmlərin tətbiq olunacağı gözlənilir.

Ekspertlər tərəfindən “Bakı Metropoliteni”ndə 2026-cı ildən etibarən məsafəyə görə gedişhaqqı tətbiqinin paytaxtın ictimai nəqliyyat sistemində keyfiyyətcə yeni mərhələnin başlanğıcı olacağı bildirilir. Bu islahat nəticəsində metropolitenin maliyyə dayanıqlılığının güclənəcəyi, xidmət keyfiyyətinin yüksəldilməsinə əlavə resurslar yaranacağı və ədalətli ödəniş prinsipinin gerçəkləşəcəyi vurğulanır. Eyni zamanda, bütün bunların tarif mexanizminin sosial ədalət və ictimai razılıq prinsipləri əsasında qurulacağı şərtilə mümkün olacağı deyilir. Əks halda, iqtisadi baxımdan düzgün görünən model sosial baxımdan riskli nəticələr doğura bilər. Dünya təcrübəsi isə göstərir ki, uğurlu tarif islahatlarının açarı məhz balanslı yanaşmadır.

***V.BAYRAMOV***
***XQ***

# Uğurlarımızın əsasında informasiya siyasətinə dövlətin strateji yanaşması dayanır

**Prezident İlham Əliyevin 2021-ci il yanvarın 12-də imzaladığı "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı ilə ölkə mediasının inkişafında yeni bir mərhələnin əsası qoyuldu, Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyi yaradıldı. Ötən beş il ərzində Agentliyin fəaliyyəti, ölkədə həyata keçirilən media islahatlarının gedişi və qarşıda duran vəzifələr barədə AZƏRTAC-ın suallarını Agentliyin İcraçı direktoru Əhməd İsmayılov cavablandırır.**



**– Əhməd müəllim, Medianın İnkişafı Agentliyinin beşillik fəaliyyətinə nəzər saldıqda hansı məqamları vurğulamaq istərdiniz?**

– Azərbaycanda həyata keçirilən media islahatlarının beşillik mərhələsinə nəzər saldıqda inamla deyə bilərik ki, qarşıda qoyulmuş vəzifələrin hər birinin yerinə yetirilməsi istiqamətində sistemli addımlar atılıb, ölkənin media ekosisteminin müasirləşdirilməsi, yeni trendlərə uyğunlaşdırılması baxımından praktik nəticələr əldə olunub. Medianın inkişafının dəstəklənməsi, bu sahədə peşəkarlığın artırılması və rəqəmsallaşmanın stimullaşdırılması, eyni zamanda, cəmiyyət tərəfindən mediaya etimadın yüksəldilməsi islahatların mahiyyətini təşkil edən vacib amillərdir. Əldə olunmuş nailiyyətlərin əsasında dövlətin informasiya siyasətinə strateji yanaşması, cənab Prezidentin həm cəmiyyətin informasiya təminatında, həm də ictimai nəzarətin həyata keçirilməsində medianın fəaliyyətinə verdiyi daimi dəstək dayanır ki, bu da konkret nəticəyönümlü islahatların daha inamlı həyata keçirilməsi prosesində müstəsna əhəmiyyət daşıyır. Eyni zamanda, medianın sağlamlaşması və müasirləşməsi tendensiyasının vacibliyini anlayan ölkənin media ictimaiyyətinin və cəmiyyətimizin islahatların davamlılığına konseptual yanaşması, həmrəyliyi bu illər ərzində görülmüş işlərə münasibətin göstəricisidir.

Məlumdur ki, cənab Prezident "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərmanı 44 günlük Vətən müharibəsində möhtəşəm zəfərimizdən az vaxt keçdikdən sonra imzalamaqla cəmiyyətin informasiya təminatının yaxşılaşdırılmasına dövlətin həssas yanaşmasını nümayiş etdirmiş oldu. Fərmandan irəli gələrək tətbiq olunmuş yeniliklər Azərbaycan mediasının şəffaflıq və vətəndaş məmnunluğu prinsiplərinə əsaslanan, cəmiyyətin obyektiv və peşəkar şəkildə məlumatlandırılmasına xidmət edən fəaliyyətinin stimullaşdırılmasına şərait yaradan, modernləşmə, rasionallıq, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi kimi qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinin, innovativ yanaşmaların tətbiqinə təkan verib. Media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması, vətəndaş və cəmiyyət üçün ictimai maraq doğuran layihələrin həyata keçirilməsinin təşkili, həmçinin dövlət orqanlarının və qurumlarının, yerli özünüidarəetmə orqanlarının, hüquqi və fiziki şəxslərin müvafiq sahə üzrə fəaliyyətinin əlaqələndirilməsinin həyata keçirilməsi Medianın İnkişafı Agentliyinin əsas prioritetlərindən olub.

**– Media islahatlarının əsas tərkib hissəsi olan "Media haqqında" Qanun Azərbaycan mediasının inkişafı üçün yeni imkanlar və yeni mərhələ kimi qiymətləndirilir. Ümumiyyətlə, islahatların gedişində əldə olunmuş nəticələrlə yanaşı, yaxın perspektiv hədəflər barədə nə deyə bilərsiniz?**

– Azərbaycanda həyata keçirilən media islahatlarının "yol xəritəsi" funksiyasını yerinə yetirən "Media haqqında" Qanun ötən dövr ərzində ölkənin informasiya mühitinin sağlamlaşdırılması və qorunması sahəsində öz praktik əhəmiyyətini təsdiqləyib. Xatırlatmaq istərdik ki, Qanun layihə formasında parlamentdə müzakirəyə çıxarılanadək aparıcı media subyektlərində onun təqdimatı olub və yüzlərlə jurnalistin, media nümayəndəsinin və ekspertinin iştirakı ilə müzakirəsi həyata keçirilib. Qanunun parlament səviyyəsində də dəfələrlə ictimai müzakirəsi təşkil olunub. Bir çox ekspertlər haqlı olaraq "Media haqqında" Qanunu dövlət büdcəsi haqqında Qanundan sonra cəmiyyətdə böyük maraq doğurmuş və geniş müzakirə olunmuş hüquqi akt kimi dəyərləndiriblər. "Media haqqında" Qanunun məqsədi ölkəmizin informasiya məkanının təhlükəsizliyinin təmin edilməsi, yerli medianın inkişafına təkan verilməsi, informasiya mühitinin sağlamlaşdırılması və rəqabət qabiliyyətinin artırılması, habelə jurnalistika peşəsinin nüfuzunun yüksəldilməsinə şərait yaradılmasıdır. Qanun qüvvəyə mindikdən sonra "Media Reyestrinin aparılması Qaydaları"nın icrası təmin edilib, media subyektlərinə və jurnalistlərə dair məlumatların sistemləşdirilməsi prosesinin hüquqi tənzimlənməsi həyata keçirilib.

Əlamətdar haldır ki, cənab Prezident 2022-ci il 8 fevral tarixində, yəni Qanunu təsdiqləməsi ilə eyni gündə güzəştli ipoteka kreditindən istifadə etmək hüququna malik olan şəxslərin siyahısına jurnalistlərin də daxil edilməsini nəzərdə tutan Fərman imzalayıb.

Bildiyiniz kimi, bu ildən media subyektlərinin öz fəaliyyətlərindən əldə etdikləri gəlirlərin gəlir (mənfəət) vergisindən azadolma müddəti artırılıb. Mediaya bu iqtisadi güzəştlər 2023-cü il yanvarın 1-dən tətbiq edilməyə başlanılıb. Media sahəsində dövlətin qərarlarının məzmununa nəzər salsaq görərik ki, Azərbaycan mediasının iqtisadi dayanıqlılığının gücləndirilməsi, müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində olub. Medianın İnkişafı Agentliyi də öz işini media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, müvafiq sahədə yeni iqtisadi modelin formalaşdırılması, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması üzərində qurub. Vurğulamaq istərdik ki, media islahatlarının bu təməl yanaşmasının bundan sonra da davam etdirilməsi prioritet hədəflərimizdəndir.

**– Beş il ərzində Agentlik tərəfindən jurnalist peşəkarlığının artırılması istiqamətində addımların, eyni zamanda, mediaya dəstək layihələrinin həyata keçirilməsinin davamlılığı təmin olunub. Növbəti mərhələ üçün bu istiqamət əsas götürüləcəkmi?**

– Azərbaycan mediasının güclü olması, insanları ictimai məzmunlu informasiya ilə yüksək səviyyədə təmin etməsi, vurğuladığınız hər iki amillə, yəni həm jurnalist peşəkarlığının artırılması, həm də media subyektlərinin güclənməsi ilə bilavasitə bağlıdır. Bu baxımdan, gələcəkdə də bu xətt öz aktuallığını qoruyub saxlayacaq. Ölkəmiz sistemli şəkildə dezinformasiya təhdidləri ilə üzləşir, müasir çağımızda informasiya mühitimizi çirkləndirməyə yönəlmiş addımların intensivliyi əvvəlki illərlə müqayisədə daha da artıb. Cənab Prezidentin vurğuladığı kimi, Azərbaycanın nüfuzu möhkəmləndikcə, beynəlxalq müstəvidə öz layiqli yerini tutduqca ona qarşı müəyyən qarayaxma kampaniyaları da geniş vüsət alır. Azərbaycan mediası yalnız daxili auditoriyanı məlumatlandırmaqla öz işini bitmiş hesab etməməlidir, bununla yanaşı, dezinformasiya təhdidlərinə cavab vermək, ölkəmiz haqqında həqiqətləri dünyaya çatdırmaq kimi vacib missiya da bizim medianın üzərinə düşür.

Nizamnaməsinə uyğun olaraq Agentlik Azərbaycanda medianın inkişafı prosesini stimullaşdırmaq məqsədilə yüksəkkeyfiyyətli jurnalistikanı təşviq etmək üçün yerli və beynəlxalq mütəxəssislərin iştirakı ilə inkişaf proqramlarının icrası, müvafiq sahədə kadr potensialının gücləndirilməsi və məşğulluq imkanlarının genişləndirilməsi, regional media üçün əlverişli mühitin yaradılması kimi bir sıra istiqamətlərdə media dəstək layihələri həyata keçirir. Media nümayəndələrinin bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə peşəkar və sahəvi jurnalistikanın inkişafı istiqamətində il ərzində yerli və xarici ekspertlərin iştirakı ilə müxtəlif tədbirlər və inkişaf proqramları həyata keçirilməkdədir. Medianın İnkişafı Agentliyinin ADA Universiteti ilə uğurlu tərəfdaşlığı çərçivəsində təkcə ötən il 250-yə yaxın media nümayəndəsi üçün yerli və xarici ekspertlərin təlimçi qismində cəlb olunması ilə müxtəlif mövzularında təlimlər təşkil edilib.

Ötən il Medianın İnkişafı Agentliyinin və Avropanın aparıcı xəbər şəbəkələrindən biri olan "Euronews" telekanalının birgə əməkdaşlığı ilə daim dəyişən media mühitində tələbatlı məzmun yaratmaq, müasir media tendensiyalarını effektiv tətbiq etmək və oxucu vərdişlərinə uyğun yeni media texnikalarını anlamaq məqsədilə yüksəkkeyfiyyətli təlim proqramları təqdim edən "Euronews Academy" Azərbaycanda fəaliyyətə başlayıb. Beynəlxalq tədris platforması tərəfindən media nümayəndəsi, jurnalistika və kommunikasiya ixtisası üzrə təhsil alan, həmçinin media sahəsinə marağı olan tələbələr üçün "Rəqəmsal jurnalistika" və "TV və canlı jurnalistika" mövzularında ümumilikdə 3 moduldan ibarət təlim proqramları icra edilib.

Onu da qeyd etmək istərdik ki, Azərbaycanda elə bir media subyekti yoxdur ki, beş il ərzində Agentliyin həyata keçirdiyi təlim proqramlarından kənarda qalsın. Hər il artan statistik göstəricilər deməyə əsas verir ki, jurnalist peşəkarlığının artırılması davamlı xarakter daşıyır, media əməkdaşlarının yeni bilik və bacarıqlara yiyələnməsi bundan sonra da davam etdiriləcək.

**– Media subyektləri üçün dəstək layihələrinin həyata keçirilməsi artıq yeni məzmun daşımaqdadır. Bu barədə nə deyə bilərsiniz?**

– Xatırlatmaq istərdik ki, Agentlik "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nın prinsiplərinə istinad edərək media subyektlərinin fəaliyyətini dəstəkləmək məqsədilə müsabiqələr təşkil edir. Məqsəd media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsinin təmin edilməsidir. Dövlətin mediaya dəstək mexanizmləri dövrün tələblərinə uyğun olaraq daim təkmilləşdirilməkdə və yeni elementləri özündə əks etdirməkdədir. Belə ki, əvvəllər yalnız sosial şəbəkələr peşəkar jurnalistikanın rəqibi kimi görülürdüsə, hazırda IT texnologiyalarının inkişafı, xüsusən də süni intellekt əsaslı kontentin geniş yayılması mediaya münasibətdə daha çevik yanaşma tələb edir. Media da öz növbəsində göstərilən dəstəkdən müasir trendlərdən geri qalmamaq üçün yararlanmalıdır.

**– Əhməd müəllim, son illər yalnız ölkəmizdə deyil, beynəlxalq müstəvidə formalaşmış yeni media trendlərindən biri də Şuşada keçirilən media forumlardır. Bu barədə də fikirlərinizi bildirməyinizi istərdik.**

– Dünya jurnalistlərinin beyin mərkəzi kimi formalaşmış Şuşa Qlobal Media Forumlarında Azərbaycan Prezidenti İlham Əliyevin şəxsən iştirak etməsi, media nümayəndələrinin çoxsaylı suallarını cavablandırması dövlətimizin haqq səsinin dünyaya çatdırılması baxımından əlamətdar hadisə olmaqla yanaşı, eyni zamanda, mediaya diqqət və qayğının müstəsna təzahürüdür. Yeni media mühitində müşahidə edilən tendensiyaların geniş spektrdan təhlili, media sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, bu sahədə aparıcı trendlərin izlənilməsi, innovativ təkamülün yaradıcı sənayelər üçün yaratdığı imkanların tətbiq mexanizmlərinin araşdırılması məqsədilə 22-24 iyul 2023-cü il tarixlərində Şuşa şəhərində "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" Şuşa Qlobal Media Forumu keçirilib. Forum çərçivəsində dünyanın tanınmış və nüfuzlu media rəhbərləri, ekspertləri panel sessiyalarda media və informasiya-kommunikasiya sahəsində qlobal səviyyədə mühüm aktuallıq kəsb edən məsələləri müzakirə edib, həmçinin tədbir çərçivəsində müxtəlif beynəlxalq layihələrin təqdimatı, sərgilər, mədəni tədbir, təlimlər təşkil olunub, Forum gedişində çoxsaylı əməkdaşlıq müqavilələri imzalanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə 2024-cü il 20-22 iyul tarixlərində "Yalan Məlumatların İfşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumu təşkil edilib, qlobal media gündəminin müzakirəsi və dezinformasiyaya qarşı birgə hərəkət platformasının yaradılması Forumun əsas hədəfi olub.

Dövlətimizin başçısının iştirakı ilə 2025-ci il 19-21 iyul tarixlərində "Rəqəmsal keçidlər: süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda 3-cü Şuşa Qlobal Media Forumu təşkil edilib.

**– Şuşada keçirilən media forumlarından söz düşmüşkən, medianın beynəlxalq əlaqələri barədə fikirlərinizi də eşitmək maraqlı olardı.**

– Şuşa Qlobal Media Forumlarının dinamik təsirləri özünü beynəlxalq əlaqələrimizin gücləndirilməsində göstərməkdədir. Ötən il noyabr ayında D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin media sahəsinə məsul qurumlarının və aparıcı media subyektlərinin rəhbərlərinin, digər yüksəkvəzifəli nümayəndələrin və sahə üzrə tanınmış ekspertlərin iştirakı ilə "Dialoqun, əməkdaşlığın və regional həmrəyliyin təşviq edilməsi" mövzusunda ilk dəfə D-8 Media Forumu keçirilib. Səkkiz ölkədən və Təşkilatın Katibliyindən xarici nümayəndələr olmaqla baş tutan bu Forum çərçivəsində D-8 Media Mükəmməllik Mərkəzinə dair təqdimat edilib, habelə üzv dövlətlər arasında media sahəsində birgə inkişaf və əməkdaşlıq ilə bağlı Bakı Bəyannaməsi imzalanıb.

2025-ci il 27-28 noyabr tarixlərində Türk Dövlətləri Təşkilatının media və informasiya üzrə məsul nazirlərinin və yüksəkvəzifəli rəsmilərinin 7-ci toplantısı, təşkilatın Media və informasiya üzrə işçi qrupunun 12-ci iclası keçirilib. Forum çərçivəsində, həmçinin WUF13 Azərbaycan Əməliyyat Şirkətinin nümayəndəsi "Ümumdünya Şəhərsalma Forumunun On üçüncü sessiyası (WUF13) çərçivəsində media imkanları" mövzusunda təqdimatla çıxış edib.

Ötən il dekabrın 5-də Azərbaycan və Gürcüstan arasında media və kommunikasiya sahəsində ikitərəfli əməkdaşlığın gücləndirilməsi məqsədilə Azərbaycan-Gürcüstan Media Forumu da təşkil edilib.

**– Media islahatlarının gətirdiyi vacib yeniliklərdən biri də media savadlılığı və bu istiqamətdə ictimai düşüncənin daha da inkişaf etdirilməsi, maarifləndirmə tədbirlərinin gücləndirilməsidir. Əhməd müəllim, istənilən cəmiyyət üçün media savadlılığı niyə bu qədər önəm daşıyır?**

– Rəqəmsal transformasiya şəraitində sağlam media mühitinin formalaşdırılması, dezinformasiya risklərinin azaldılması və cəmiyyətdə media savadlılığının gücləndirilməsi Agentliyin fəaliyyətində prioritet istiqamətlərdən biri olmuşdur, bu məqsədlə media savadlılığının artırılmasına yönəlmiş sistemli, çoxşaxəli tədbirlər görülməkdədir. Media savadlılığı ilə bağlı cəmiyyətdə düşüncə tərzinin inkişaf etdirilməsi və informasiya təhlükəsizliyinin təmini, dezinformasiyaya qarşı mübarizənin gücləndirilməsi, bu sahədə görülən tədbirlərin effektivliyinin yüksəldilməsi, o cümlədən, müxtəlif tərəflər arasında koordinasiya, eləcə də əməkdaşlıq əlaqələrinin genişləndirilməsi məqsədilə artıq üçüncü ildir ki, hər ilin dekabrında "Media savadlılığı" Həftəsi təşkil edirik. Həftəyə hazırlıq işləri çərçivəsində regionlarda yaşayan gənclərin media və informasiya mühitində məsuliyyətli mövqeyinin formalaşdırılması, informasiyanın etibarlılığının müəyyənləşdirilməsi istiqamətində bilik və bacarıqlarının artırılması, habelə dezinformasiyaya qarşı mübarizədə həmrəyliyin gücləndirilməsi məqsədilə Agentlik silsilə tədbirlər həyata keçirir. Məsələn, təkcə ötən il Bakı şəhərində yerləşən, 2-si pilot olmaqla, 12 ümumi və orta təhsil müəssisəsində müəllimlər üçün TOT (təlimçilər üçün təlim) seminarları təşkil olunub, noyabr-dekabr aylarında isə həmin müəllimlər tərəfindən məlumatlandırma sessiyası və açıq dərs keçirilib.

Media savadlılığı üzrə fəaliyyətlərin regional əhatə dairəsinin genişləndirilməsi və bu sahəyə diqqətin artırılması məqsədilə Naxçıvan Muxtar Respublikasında "Media savadlılığı" həftəsi çərçivəsində silsilə tədbirlər həyata keçirilib. Media savadlılığı geniş aspektdə sosial, mədəni və iqtisadi fəaliyyətlərin mərkəzində olan bacarıq olduğundan bu istiqamətdə görülən işlərdə effektiv nəticə əldə edilməsi üçün sektorlararası əməkdaşlığın təşviqi məqsədilə bu il Həftə dövlət orqanları (qurumları), özəl şirkətlər və akademik müəssisələr olmaqla, 13 qurumun tərəfdaşlığı ilə təşkil edilib. Həftə çərçivəsində beynəlxalq təcrübənin öyrənilməsi, bilik və təcrübə mübadiləsinin aparılması məqsədilə Türkiyə, Özbəkistan, Qazaxıstan, Macarıstan, Pakistan və Albaniyadan xarici qonaqlar ölkəmizə səfər edib.

**– Əhməd müəllim, ötən il 150 illik yubileyini qeyd edən Azərbaycan mediası üçün əlamətdar hadisələrlə yadda qaldı, gələcək perspektivlər barədə nə deyə bilərsiniz?**

– Ötən il milli mətbuatın yubiley tədbirləri silsilə xarakter daşıdı və yüksək səviyyədə qeyd olundu. Cənab Prezident tərəfindən jurnalistlər dövlət təltiflərinə layiq görüldülər. Eyni zamanda, "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis olunması dövlətin milli jurnalistikanın inkişafına göstərdiyi həssas münasibətin təzahürü kimi qiymətləndirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AMEA-nın 80 illik yubileyində jurnalistləri ədəbi dil məsələsində xüsusi məsuliyyət daşıyan peşə sahibləri kimi qeyd etməsi ilə bağlı çağırışından dərhal sonra – 2025-ci il noyabrın 7-də Medianın İnkişafı Agentliyinin və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə media mühitində Azərbaycan dilinin ədəbi normalara uyğun, səlis və düzgün istifadəsini təşviq etmək, dil mədəniyyətini inkişaf etdirmək və mediada nitq standartlarının yüksəldilməsinə töhfə vermək məqsədilə "Mediada Azərbaycan ədəbi dilinin normalarının düzgün tətbiqi" mövzusunda konfrans keçirilib. Konfrans çərçivəsində "Televiziya və radio məkanında Azərbaycan ədəbi dilinin normalarına əməl olunması vəziyyəti və nitq mədəniyyəti" və "Çap və onlayn mediada Azərbaycan dilinin istifadə qaydaları: problemlər və həll yolları" mövzularında panellər təşkil edilib, yekunda müzakirələrdən praktik çıxarışlar hazırlanıb. Dövlətimizin başçısının ana dilimizin qorunması ilə bağlı bir müddət öncə yerli telekanallara verdiyi müsahibəsində bir daha bəhs edib.



Qeyd etdiyimiz kimi, dezinformasiya ilə mübarizə Azərbaycan üçün həmişə prioritet olaraq qalacaq. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva COP29 çərçivəsində Yaşıl Zonada "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda keçirilən konfransdakı çıxışında beynəlxalq ətraf mühit gündəliyinə münasibətdə riyakarlıq və ikili standartların aydın göründüyünü vurğulayaraq bildirmişdi ki, "COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycan ətraf mühit məsələlərindən xeyli uzaq olan mülahizələr hesabına ədalətsiz hücum dalğası, yalan hekayətlər və ikili standartlar ilə üzləşib". Bu cür ikili standartların başa çatdığını söyləmək sadəlövhlük olardı, ona görə də Azərbaycan mediası ölkəmizin informasiya mühitini çirkləndirmə hallarına qarşı daim prinsipial olmalıdır. Bir sözlə, müasirləşmə, informasiya rəqabətində daha da güclənmə, ölkəmizin haqq səsini yüksək səviyyədə dünyaya çatdırmaq kimi prinsiplər dərinləşən media islahatlarının əsas hədəfi olaraq qalacaq.

***"Xalq qəzeti"nin kollektivi Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin kollektivini əlamətdar yubiley münasibətilə təbrik edir, quruma ölkəmizdə jurnalistikanın inkişafı naminə yeni uğurlar arzulayır.***

# Unudulmaz Məmməd Araz






**“Məmməd Araz yaradıcılığı təkcə poeziya deyil, millətin yaddaşı və vicdanının səsidir. Onun misralarında dağların sükutu, şəhərin hay-küyü və insanın qəlbindəki böyük Vətən sevgisi birləşir”. Xalq şairi Məmməd Arazın xatirəsinə həsr olunmuş ədəbi-bədii məclis bu sözlərlə başlayıb.**

Xatirə mərasimində iştirak edən akademiklər Nizami Cəfərov və Muxtar İmanov, ədəbiyyatşünas-tənqidçi Əsəd Cahangir, Əməkdar incəsənət xadimi Nazim Kazımov, Xalq şairi Sabir Rüstəmxanlı və digər qonaqlar Məmməd Araz yaradıcılığının poetik-fəlsəfi məzmunundan, şairin lirikasının vətəndaşlıq qatlarından söhbət açıblar. Tədqiqatçı-alim, şair Qardaşxan Əzizxanlı və filoloq-alim, şair Adilə Nəzər isə çıxışlarında şairin poeziyasının çağdaş ədəbi düşüncəyə təsirinə diqqət çəkib və ustada həsr etdikləri şeirlərini səsləndiriblər.

Gecədə Əməkdar artist Nuriyyə Hüseynova, II Televiziya Muğam müsabiqəsinin qalibi Güllü Muradova, aşıq Ramin Qarayev, bəstəkar və müğənnilər Niyaməddin Musayev, Çilənay Hüseynova, müğənnilər Mehranə Vəliqızı, Sərxan Bünyadzadə şairin şeirlərinə bəstələnmiş mahnılar səsləndirərək, şairin poeziyasını musiqi və muğamın dili ilə tamaşaçılara çatdırıblar.

Aktyor və qiraət ustaları Kamran Yunis, Həlimət Sultan, Şirzad Pirallahı, Müşfiqə Baləddinqızı, Ülviyyə Niyazqızı, İbrahim Əhmədov, eləcə də Hədəf Liseyinin şagirdləri Məmməd Arazın şeirlərini səsləndiriblər.

Sonda şairin ailə üzvləri adından yazıçı, Milli Məclisin üzvü Aqil Abbas çıxış edərək şairin xatirə mərasiminin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirib. Qonaqlar məclisdən hədiyyə aldıqları şairin IV cildlik kitabları ilə ayrılıblar.

*XQ*

**bp, Xəzər dənizinin Azərbaycan sektorunda Əşrəfi-Dan Ulduzu-Aypara sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişin əsasında fəaliyyət göstərən əməliyyat şirkəti kimi elan edir ki, Əşrəfi-Dan Ulduzu-Aypara (ADUA) layihəsi üçün seysmik tədqiqat proqramına aid Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ) sənədinin layihə variantını müzakirə etmək üçün ictimaiyyətlə onlayn görüş keçirəcək.**

bp bütün maraqlı tərəfləri 16 yanvar 2026-cı il tarixdə saat 13.00-dan 15.00-dək “Microsoft Teams” vasitəsilə keçiriləcək bu görüşdə iştiraka dəvət edir.

ƏMTQ sənədlərinin layihə variantı və rəy formaları 26 dekabr 2025-ci il tarixdən bp-nin veb-səhifəsinə yerləşdirilmişdir.

Görüşdə proqram və sənəd haqqında təqdimatlar olacaq, auditoriyanın sualları cavablandırılacaq, irəli sürülən fikirlər və rəylər ətrafında müzakirə keçiriləcək. Rəy və təklifləri həmçinin esiafeedback@bp.com elektron ünvanına göndərməklə də təqdim etmək olar.

**Görüşə qoşulmaq üçün ətraflı təlimat, keçid və QR kod bp-nin veb-səhifəsində verilir.**

# Özbəkistanda yeni azərbaycanşünaslıq mərkəzi



**Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbərliyi ilə Daşkənd İqtisadiyyat və Pedaqogika Universitetinin rəhbərliyi arasında görüş keçirilib.**

Mərkəzdən verilən məlumata görə, qurumun direktoru Akif Marifli və Daşkənd İqtisadiyyat və Pedaqogika Universitetinin rektoru Şakarbay Janikulov əməkdaşlıq haqqında saziş imzalanıb.

Saziş çərçivəsində universitet nəzdində Xalid Səid Xocayev adına Azərbaycanşünaslıq Tədris-Tədqiqat Mərkəzinin yaradılması nəzərdə tutulub. Yeni mərkəz Azərbaycanın tarixi, mədəniyyəti, dili və ədəbiyyatının öyrənilməsi, eləcə də Azərbaycan ilə Özbəkistan arasında akademik və elmi əməkdaşlığın inkişafı üçün ixtisaslaşmış platforma kimi fəaliyyət göstərəcək. Burada birgə elmi tədqiqatların aparılması, akademik mübadilə proqramlarının həyata keçirilməsi, elmi-maarifləndirici tədbirlərin təşkili və gənclərin intellektual potensialının inkişafına yönəlmiş təşəbbüslərin dəstəklənməsi planlaşdırılır.

Qeyd edək ki, mərkəz Azərbaycan və Özbəkistan arasında elmi və mədəni əlaqələrin formalaşmasında mühüm rol oynamış görkəmli alim, şair və tərcüməçi Xalid Səid Xocayevin şərəfinə onun adını daşıyacaq.

*XQ*

# Diasporumuzun amalı Vətəni şərəflə təmsil etməkdir



**Prezident İlham Əliyevin sərəncamı ilə xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsində xidmətlərinə görə bir qrup soydaşımız təltif olunub. Onların arasında tanınmış aktyor və rejissor, Xalq artisti Cahangir Novruzov da var. O, “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu”na layiq görülüb.**

1995-ci ildən Türkiyədə yaşayan ünlü sənətkar 20 ildir ki, Adana şəhərində, Çukurova Universitetinin Dövlət Konservatoriyasının teatr bölməsində çalışır. O, bu şəhərdəki Azərbaycan Kültür və Həmrəylik Dərnəyinin sədr müavinidir. Xalq artisti bizimlə söhbətində bildirdi ki, diaspor fəaliyyətinə verilən bu qiymət minnətdarlıq doğurmaqla yanaşı, onu bu sahədə daha fəal olmağa həvəsləndirir:

— Açığı, belə bir xəbəri gözləmirdim. Son günlər bütün düşüncəm və diqqətim ailəmdə yaranmış bir problemə yönəlmişdi. Belə anlarda, ümumiyyətlə vətəndən kənarda insan hər şeydən çox mənəvi dayaq axtarır. Məhz bu həssas məqamda dövlətimizin göstərdiyi diqqət və qayğı, sadəcə, sevindirici deyil, ailəmizi ayaqda saxlayan böyük bir mənəvi dəstək oldu. Sanki, bu diqqət “tək deyilsən” mesajını verdi. O an hiss etdim ki, daxilimdə yığılıb qalan ağırlıq xeyli azaldı, qəlbimə sakitlik gəldi. Bu cür dəyər və etimad insanın gücünü artırır, ona yaşadığı çətinliklər qarşısında dayanmaq üçün yeni bir iradə və inam verir.

Cahangir müəllim onu da söylədi ki, sənət adamı üçün ən böyük mükafat xalqına və dövlətinə xidmət etdiyini hiss etməkdir:

— Biz sənət adamları harada olsaq da işimizlə vətənə xidmət edən insanlarıq. Bizim missiyamız təkcə səhnədə rol oynamaq deyil, milli kimliyi, mədəniyyəti, Azərbaycan adını ölkədən kənarda ləyaqətlə təmsil etməkdir. İnsan vətəni üçün, milləti üçün çalışırsa, həm də öz borcunu yerinə yetirir. Bu diqqət və ehtiram insan üçün son dərəcə qürurvericidir. Çünki belə məqamlarda anlayırsan ki, illər boyu görülən işlər, çəkilən zəhmət hədər getməyib, əvəzsiz qalmayıb.

İndiki mükafatlandırma təkcə bir sənət adamının deyil, ümumilikdə, vətənə xidmət edən hər kəsin əməyinə verilən yüksək dəyərin ifadəsidir. İnsan hiss edir ki, gördüyü işlər dövlətin və xalqın yaddaşında yaşayır, qiymətləndirilir. Bu baxımdan Azərbaycan–Türkiyə mədəni əməkdaşlığına xidmət etmək ikiqat şərəfdir.

Möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycan xalqını uzun illərdən sonra başı dik, özünə inanan, gələcəyə ümidlə baxan bir millətə çevirən güclü və uzaqgörən liderdir. Bu gün ölkəmizin qazandığı uğurlar, milli qürurun və özünəinamın bərpası onun həyata keçirdiyi siyasətin, göstərdiyi qətiyyətli mövqenin nəticəsidir. Mənə göstərilən bu diqqəti də həmin böyük dövlətçilik baxışının, insana və əməyə verilən dəyərin təzahürü kimi qəbul edirəm. Buna görə də göstərilən etimada, diqqətə və yüksək qiymətə görə dərin hörmət və səmimi təşəkkürümü bildirirəm.

**Müsahibimiz vurğuladı ki, Vətəndən kənarda yaşadığı illərdə həmişə qəlbi Azərbaycanla döyünüb:**

– Düzünü desəm, Azərbaycanda yaşadığım illərdə vətəni bu qədər dərindən hiss etməmişdim. Uzaqda olanda insan kim olduğunu, haradan gəldiyini daha aydın anlayır. Azərbaycanlı olmağın məsuliyyəti məhz orada – vətəndən kənarda insanın çiyinlərinə daha ağır düşür. Əsas məsələ hamının etdiyini etmək yox, Vətəni yaxın-uzaqlarda tanıtmaq və milli kimliyi layiqincə təmsil etməkdir. Azərbaycanlı olmaq təkcə pasport göstəricisi deyil. Bu, davranışdır, təmsilçilikdir, örnək olmaqdır. Bu gün aldığım təbriklər, müəllimlərimin və professorlarımın zəngləri mənim üçün həm qürur, həm də böyük məsuliyyətdir. Sanki bir imtahandan keçdik və bu imtahan bizi daha diqqətli olmağa çağırır. Mən hər zaman Azərbaycan adına çalışmışam və bundan sonra da azərbaycanlı adını ləyaqətlə daşımağa davam edəcəyəm. Hörmətli və möhtərəm Prezidentimizə göstərdiyi diqqətə görə bir daha dərin minnətdarlığımı bildirirəm. Bu etimad mənim üçün həm şərəf, həm də məsuliyyətdir.

*Müsahibəni hazırladı:*
***Namiq QƏDİMOĞLU***
***XQ***

# “İRS” jurnalı fransız dilində

**Azərbaycanın tarixi, mədəniyyəti haqqında məlumatların dünyada yayılmasında mühüm rol oynayan “İRS” beynəlxalq jurnalının fransız dilində növbəti nömrəsi nəşr olunub.**




Nömrədə Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayevanın “Faşizm üzərində qələbədə azərbaycanlıların böyük rolu” adlı məqaləsi dərc olunub. Məqalədə İkinci Dünya müharibəsində qazanılmış qələbədə xalqımızın, xüsusilə də Fransa Müqavimət Hərəkatında vuruşmuş azərbaycanlıların böyük töhfəsi və rolundan bəhs olunur.

Eləcə də Azərbaycanın musiqi tarixinə, bəstəkar qadınlarımıza, ölkəmizin XVIII–XIX əsrlərdəki milli memarlıq şedevrlərinə, dünyanın səkkizinci möcüzəsi sayılan Neft Daşları platformasına, ölkəmizin neft tarixinə həsr edilmiş məqalələr dərc olunub, Şəki Xan sarayı və ölkəmizin turistik imkanlarından bəhs edən məqalələr də yer alıb.

*XQ*

**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti**

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan boyaların (illik tələbat üzrə) satın alınması məqsədilə*

**Açıq Tender Elan Edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2026-cı il yanvarın 16-sı saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu:** (012) 404-37-00, daxili: 1263.
**Ünvan:** Bakı, Mikayıl Useynov küçəsi 2.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 06 (30975) 13 yanvar 2026-cı il, çərşənbə axşamı

*Təbiət idraka çağırır bizi*

# İstiləşmənin psixoloji fəsadları



**Son illər iqlim dəyişikliyi təkcə ekoloji və iqtisadi sahədə deyil, insan sağlamlığının ən həssas tərəflərindən biri olan psixi durum üzərində də ciddi izlər buraxır. Dünyanın bir çox regionlarında müşahidə olunan uzunmüddətli və intensiv istilər insan həyatına əlavə təhlükə gətirir. Ənənəvi olaraq ekstremal istilər günvurma, ürək-damar problemləri və susuzlaşma ilə əlaqələndirilsə də, müasir elmi yanaşmalar bu təhlükənin daha dərin və görünməyən tərəfinə – psixi sağlamlığa təsirinə diqqət çəkir. Aparılan tədqiqatlar göstərir ki, yüksək temperatur yalnız bədəni deyil, insanın emosional tarazlığını, davranışını və psixoloji davamlılığını da sarsıdır.**

Belə ki, ABŞ-ın ayrı-ayrı ştatları səviyyəsində aparılan növbəti tədqiqatlarda ekstremal istilərin təsirinin depressiya və təşviş pozuntularının geniş yayılması ilə əlaqələndirilir. Tədqiqatçılar bu qənaətə ABŞ-ın bütün 50 ştatı üzrə məlumatları təhlil edərək gəliblər. Araşdırma "Journal of Psychiatric Research" jurnalında dərc olunub.

Tədqiqatın müəllifləri iqlim ekstremallarının əhalinin psixi sağlamlığına necə təsir göstərə biləcəyini araşdırıblar. İşə başlamağa səbəb ABŞ-da son illərdə istilik dalğalarının, meşə yanğınlarının və iqlim dəyişikliyinin digər təzahürlərinin artması olub.

Təhlil üçün alimlər federal qurumların məlumatlarından istifadə ediblər. Onlar 2020-ci ilin iyun–sentyabr ayları arasında – yay mövsümünün ən isti dövründə – hər bir ştatda temperaturun 38°C-dən yuxarı olduğu günlərin orta sayını hesablayıblar. Daha sonra bu göstəricilər mümkün gecikmiş istilik təsirini nəzərə almaq üçün 2022-ci ildə depressiya və təşvişin yayılma səviyyələri ilə müqayisə edilib.

Analiz davamlı müsbət əlaqə ortaya qoyub: ştatda ekstremal istilərin olduğu günlərin sayı nə qədər çox olurdusa, 2 il sonra depressiya və təşviş pozuntularının göstəriciləri də bir o qədər yüksək olurdu. Müəlliflərin hesablamalarına görə, temperaturun 38°C-dən yuxarı olduğu hər əlavə 10 gün psixi sağlamlıq problemlərinin yaranma ehtimalının 6,2 faizə artması ilə əlaqəli olub.

Bu əlaqə yaş strukturu, cins, irqi və etnik tərkib, təhsil səviyyəsi və tibbi sığortası olmayan əhalinin payı da daxil olmaqla demoqrafik və sosial-iqtisadi amillər nəzərə alındıqdan sonra da qalmaqda davam edib. Eyni zamanda, ştatlar üzrə təşviş və depressiv simptomların median yayılma səviyyəsi təxminən 51 faiz, ekstremal isti günlərin median sayı isə təxminən səkkiz gün təşkil edib, baxmayaraq ki, regionlar arasında fərqlər xeyli olub.

Araşdırma həmçinin göstərib ki, sosial həssaslıq istilərin təsirini gücləndirir. Təhsil səviyyəsi daha aşağı olan və sığortasız əhalinin payı yüksək olan ştatlarda psixi pozuntuların göstəriciləri daha yüksək qeydə alınıb. Müəlliflərin fikrincə, bu fakt iqlim riskləri ilə sosial bərabərsizliklərin kəsişdiyini göstərir.

Gözlənilməz nəticələrdən biri isə 65 yaşdan yuxarı əhalinin payı daha çox olan ştatlarda təşviş və depressiya göstəricilərinin daha aşağı olmasıdır. Bu, yaşlı insanların iqlim stressorlarına daha həssas olması barədə yayğın təsəvvürə ziddir. Müəlliflər vurğulayırlar ki, bu təsir ayrıca və daha dərindən öyrənilməlidir.

Alimlər iqlim amillərinin psixi sağlamlığa təsiri ilə bağlı tədqiqatların genişləndirilməsinə və bu risklərin ictimai səhiyyə strategiyaları ilə iqlimə uyğunlaşma planlarının hazırlanmasında nəzərə alınmasına çağırıblar. Mövcud elmi sübutlar göstərir ki, ekstremal istilər psixi sağlamlıq üçün ciddi və artan təhlükədir. Bu risk iqlim dəyişikliyinin sürətləndiyi şəraitdə daha da aktuallaşır və yalnız fərdi deyil, ictimai sağlamlıq məsələsi kimi dəyərləndirilməlidir.

İqlim dəyişiklikləri ilə mübarizə təkcə təbiətin deyil, insanın psixi rifahının qorunması deməkdir. Ekstremal istilərin görünməyən təsirlərini vaxtında dərk etmək və qabaqlayıcı tədbirlər görmək cəmiyyətin sağlam gələcəyi üçün mühüm şərtdir.

***Nurəngiz ADİLQIZI***
***XQ***

# I Türkoloji Qurultayın yubileyinə hazırlıq müzakirələri



**AMEA Rəyasət Heyətində Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə hazırlıqla bağlı müşavirə keçirilib. Mərasimdə yubileylə əlaqədar elmi tədbirlərin təşkili və icrası, nəşrlərin hazırlanması və yayılması məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.**

AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin sədrliyi ilə keçirilən müşavirə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsi haqqında" 22 oktyabr 2025-ci il tarixli sərəncamından irəli gələn vəzifələrin müzakirəsinə həsr olunub.

Müşavirədə çıxış edən akademik İsa Həbibbəyli Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin qeyd olunmasını Azərbaycan ictimaiyyəti və türk dünyası ilə əlaqələrin daha da genişləndirilməsi üçün mühüm tarixi hadisə kimi dəyərləndirib. O, 1926-cı il fevralın 26-dan martın 6-dək Birinci Türkoloji Qurultayın məhz AMEA-nın Rəyasət Heyətinin Böyük akt zalında keçirildiyini xatırladaraq, qurultayın türkoloji fikrin formalaşmasında və inkişafında mühüm rol oynadığını vurğulayıb. Akademik bildirib ki, həmin qurultay bu gün də türkoloji tədqiqatlar üçün ideya və metodoloji mənbə kimi aktuallığını qoruyub saxlayır.

AMEA rəhbəri dövlət başçısının müəyyən etdiyi prioritetlərə uyğun olaraq, akademiyada ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirildiyini qeyd edib. Bu çərçivədə Akademiyada xüsusi Tədbirlər Planının hazırlandığını söyləyən akademik İsa Həbibbəyli AMEA-nın bir sıra elmi müəssisələrində Türk dünyasının tarixi, ədəbiyyatı, folkloru, dili, musiqisi, arxeologiyası və fəlsəfəsi üzrə tədqiqatlar aparan struktur bölmələrin fəaliyyət göstərdiyini, həmçinin türkdilli ölkələrin akademik elmi və ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin genişləndirildiyini diqqətə çatdırıb. Vurğulanıb ki, bu istiqamətdə görülən işlər türk xalqlarının elmi-mədəni inteqrasiyasına mühüm töhfə verir.

Akademik Birinci Türkoloji Qurultayın 100 illik yubileyi çərçivəsində AMEA-da nəzərdə tutulan işləri sadalayıb, "Türkologiya" jurnalının yubileyə həsr olunmuş xüsusi buraxılışının nəşrinin planlaşdırıldığını da diqqətə çatdırıb.

Daha sonra Birinci Türkoloji Qurultayın 100 illik yubileyinə hazırlıqla bağlı təşkilati məsələlər müzakirə olunub.

AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru filologiya elmləri doktoru Nadir Məmmədli, Yunus Əmrə İnstitutunun Bakı koordinatoru Gökhan Seyhan, AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri, filologiya elmləri doktoru Sərxan Xavəri, Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlu, Mərkəzi Elmi Kitabxananın direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynov, AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov, İctimai Elmlər Bölməsinin elmi katibi, filologiya üzrə fəlsəfə doktoru Zümrüd Mənsimova, Yunus Əmrə İnstitutunun müəllimi Hüseyn Musayev və başqaları çıxış edərək təkliflərini səsləndiriblər.

Müşavirədə Birinci Türkoloji Qurultayın 100 illik yubileyinin keçirilməsinə dair tapşırıqlar verilib.

***Q.YUSİFOĞLU***
***XQ***

## İDMAN

# Boks məşqçiləri üçün təlim

**Dünən Bakıda məşqçilik seminarı başlayıb. Boks Mərkəzində təşkil olunan təlimlərə beynəlxalq boks dərsliyinin müəllifi, təcrübəli polşalı mütəxəssis Adam Kusior rəhbərlik edir.**




O, məşqçilərə qaydalardakı yeni dəyişikliklər, onların tətbiqi, dərsliklərdəki məşq proseslərinin daha da təkmilləşdirilməsi ilə bağlı seminar keçəcək. Seminar 2, nəzəri və praktiki hissədən ibarət olacaq. Yekunda məşqçi-müəllimlər imtahan verəcəklər.

Təlimlərdən öncə Azərbaycan Boks Federasiyasının baş katibi Nağı Səfərov iştirakçılara seminarın əhəmiyyətindən danışıb. Bildirib ki, hədəfimiz boksda, hakimlikdə və məşqçilikdə ön sıralarda olmaqdır.

Adam Kusior isə çıxışında son illər Azərbaycanda boksun inkişafını yüksək qiymətləndirib. O qeyd edib ki, 2 il öncə də Bakıda seminar keçib və ölkəmizdə kifayət qədər yüksək potensiala malik məşqçilər var: "İnanıram ki, bu gün seminara qatılan mütəxəssislər də tezliklə özlərini yaxşı tərəfdən sübut edəcək, yetirmələrinin nəticələri ilə milli komandalara böyük fayda verəcəklər".

30-a yaxın məşqçinin qatıldığı seminar yanvarın 18-də yekunlaşacaq. İmtahandan uğurla keçən iştirakçılara sertifikatlar təqdim olunacaq.

# Yunan-Roma millimizin yeni baş məşqçisi

**Yunan-Roma güləşi üzrə Azərbaycan millisinə yeni baş məşqçi təyin edilib. Azərbaycan Güləş Federasiyası Olimpiya Oyunlarında ümumilikdə 4 qızıl medal qazanmış Məhəmməd Bəna ilə müqavilə bağlayıb. Milli komandanın böyük məşqçisi vəzifəsinə Nurəddin Rəcəbov təyin edilib. Məşqçilər korpusunda Rövşən Bayramov, Sabah Şəriəti, Bəhruz Həzrətipur və Rəsul Cazini Dorçə də yer alıb.**



Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, İran yığması London–2012 Olimpiya Oyunlarında Bənanın rəhbərliyi altında 3 qızıl medal qazanaraq İran güləşində yeni rekorda imza atıb. Bu mütəxəssislə qonşu ölkənin komandası Tokio–2020 Olimpiadasında isə 1 qızıl və 1 bürünc medal qazanıb. 2011-ci ildə FILA (indiki UWW) tərəfindən dünyanın ən yaxşı məşqçisi adına layiq görülən Bəna İranda "Cəsarət" ordeni ilə təltif edilib.

O, dünya yunan-Roma güləşi tarixində ən uğurlu və nüfuzlu baş məşqçilərdən biridir. Bənanın məşqçilik yanaşması sistemlilik, intizam, taktiki düşüncə və psixoloji davamlılıq prinsiplərinə əsaslanır.

# Sofiyada bürünc medal

**6-12 yanvar tarixlərində Azərbaycanı fiqurlu konkisürmənin buz üstündə rəqs növü üzrə beynəlxalq yarışlarda təmsil edən idmançı cütlüyü Samanta Ritter və Daniel Brikalov Bolqarıstanın Sofiya şəhərində keçirilən "Sofia Trophy" adlı yarışda iştirak ediblər.**




Turnirin nəticələrinə əsasən, cütlüyümüz 11 idmançı arasında 171,75 xal toplayaraq 3-cü nəticə göstərərək bürünc medala sahib olub.

***Qabil YUSİFOĞLU***
***XQ***

## HAVA

# Aranda yağış və sulu qar, dağlarda qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, lakin axşam bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Yanvarın 13-dən 14-nə keçən gecəyə doğru ayrı-ayrı yerlərdə intensivləşəcəyi, bəzi şəhərətrafı ərazilərdə yağışın sulu qarla qarışıq yağma ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şimal-qərb küləyi əsəcək, axşam arabir güclənəcək.**



Havanın temperaturunun gecə 5-7, gündüz 7-11 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 756 millimetr civə sütununa enəcək. Nisbi rütubət 80-90 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin günün ikinci yarısında şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının intensivləşəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 8-13 dərəcə isti, dağlarda gecə 0-4 dərəcə şaxta, gündüz 2-7 dərəcə isti olacağı bildirilir.

***Q.ƏLİYEV***
***XQ***

✓ ***Astara Rayon İcra Hakimiyyəti başçısının Pəlikeş kənd inzibati ərazi dairəsi üzrə nümayəndliyinə məxsus dairəvi möhür itdiyi üçün etibarsız sayılır.***

✓ ***Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən Əliyev Faiq Şirməmməd oğlunun adına verilmiş 056586 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Dillər Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi beynəlxalq münasibətlər fakültəsinin dekanı İbrahim Kazımbəyliyə atası

**FEYZULLA KAZIMBƏYLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin kollektivi iş yoldaşları İlhamə Quliyevaya qardaşı

**İLHAM QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2738
SİFARİŞ 15
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00